# Bakı konfransı iqlim dəyişikliyi ilə mübarizəni yeni mərhələyə yüksəldəcək

*İstiləşmə qlobal sağlamlıq üçün ən ciddi təhlükə sayılır*



**İqlim Dəyişmələri üzrə Hökümətlərarası Ekspertlər Qrupunun hesabatına görə, son 100 ildə Yer kürəsində orta temperatur 0,8 dərəcə yüksəlib. Buna səbəb, əsasən, istilik effekti yaradan qazların – karbon dioksid (CO2), metan (CH4), azot oksidi və xlor-fülor birləşmələrin konsentrasiyasının artması ilə birbaşa bağlı olub.**

Sənaye dövrünü əhatə edən son 250 ildə atmosferdə məhz karbon qazının ümumi miqdarının 28 faiz, metanın miqdarının 60 faiz artması qeydə alınıb. Azərbaycan da qlobal iqlim dəyişmələrinin təsirindən kənarda qalmayıb. Son 100 ildə respublika ərazisində orta illik temperatur 0,4–1,30 dərəcəyə qədər çoxalıb. İqlim dəyişikliyi fonunda ölkəmiz daşqın, qar uçqunu, tufan, qasırğa, dalğalanma, güclü külək, quraqlıq, buzlaqların əriməsi, şoranlaşma, torpaqların deqradasiyası, səhralaşma, yağıntıların və su ehtiyatlarının azalması və s. ekstremal iqlim hadisələrinin təsirlərinə məruz qalıb. İqlim dəyişmələri həm regional həm də qlobal səviyyədə insanların qida təhlükəsizliyini və suya çıxışını məhdudlaşdırıb, aclıq, yoxsulluq və digər ağır sosial-iqtisadi nəticələrə, miqrasiyanın güclənməsinə səbəb olub, yoluxucu və xroniki xəstəliklərin miqyası genişlənib.

*(ardı 8-ci səhifədə)*

# “Şvabeizm”



Səhifə ⇨ 4

## Saxta ehtiyat hissələr avtomobilləri qəzalara aparır



Səhifə ⇨ 9

## Almaniyada “miqrant ovu”





Səhifə ⇨ 11

# USAID Ermənistanı revanşizmə sürükləyir

**Cənubi Qafqazda sülh və sabitliyin əldə olunmasında, bölgədə təhlükəsizliyin yaranmasında maraqlı olmayan qüvvələrdən biri də ABŞ Beynəlxalq İnkişaf Agentliyi – USAID-dir. Birmənalı şəkildə demək mümkündür ki, təşkilatın təşəbbüsləri hər zaman Ermənistanın maraqlarına xidmət edib. Bu da quruma rəhbərlik edən şəxsin – Samanta Pauerin qatı ermənipərəst olmasından irəli gəlir. Onun ermənipərəstliyi özünü hər addımda büruzə verir.**

Yada salmaq yerinə düşər ki, xanım Pauer Azərbaycan Ordusunun ölkənin bütün ərazisində dövlət suverenliyinin bərqərar olması məqsədilə 2023-cü il sentyabrın 19–20-də keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən dərhal sonra – sentyabrın 25-də ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi vəzifəsini icra edən Yuri Kimlə birlikdə İrəvanda peyda olmuş, burada iki gün vaxt keçirmiş, baş nazir Nikol Paşinyana Prezident Co Baydenin məktubunu çatdırmış və sərhədyanı Gorunzur kəndinə gedərək Qarabağı könüllü tərk etmiş ermənilərlə görüşmüşdü. Haylara “canıyananlıq” edən Pauer “X” platformasındakı hesabında onlara bəslədiyi tükənməz sevgisini ortaya qoymuşdu.

*(ardı 4-cü səhifədə)*





Xalqın qəzeti!

# Xalq qəzeti

№ 199 (30603) 13 sentyabr 2024-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# İqtisadi yüksəliş xarici ticarətə geniş meydan açıb

*Azərbaycanın dünya ölkələri ilə mal dövriyyəsi 26 milyard 239 milyon dollara çatıb*



**Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli, uğurlu siyasət nəticəsində hazırda Azərbaycan dünyada baş verən iqtisadi təlatümlər fonunda dünyanın sürətli inkişaf tempinə çatan ölkələrindən birinə çevrilib. Bu, özünü daha çox çevik və səmərəli iqtisadi idarəetmə hesabına, köklü struktur-institusional islahatların reallaşdırılması nəticəsində qeyri-neft sektorunun payının yüksəlməsində büruzə verib.**

Qeyri-neft sənayesinin inkişafı ölkəmizin karbohidrogen daşıyıcılarının hasilat və ixracından əldə edilən gəlirlər hesabına sürətlənib, eyni zamanda, bunun nəticəsində daxili istehsalın və istehlak bazarının idxaldan asılılığı azalıb, ixracın şaxələnməsi reallaşıb. Respublikada yüzlərlə müasir sənaye müəssisəsinin, yeni istehsal sahələrinin, müxtəlif bölgələrdə sənaye parklarının yaradılması isə yerli məhsulların payının əhəmiyyətli dərəcədə artmasını şərtləndirməklə yanaşı, ixrac imkanlarının genişlənməsində önəmli rol oynayıb.

Təbii ki, ixrac imkanlarının genişləməsi üçün respublikada müxtəlif sahələri əhatə edən istehsalat sahələrinin, yeni investisiyalar cəlb edilməsi üçün gözəl biznes mühitinin və siyasi sabitliyin yaradılması diqqət mərkəzində saxlanılıb. Yeri gəlmişkən, ölkədə əlverişli biznes mühiti dedikdə, şübhəsiz ki, sahibkarlar, iş adamları üçün stimullaşdırıcı biznes və investisiya mühitinin mövcudluğu, bu sahədə dövlət tərəfindən müxtəlif dəstək tədbirlərinin, həmçinin vergi və gömrük güzəştlərinin reallaşdırılması nəzərdə tutulur və bunlar hazırda iqtisadi inkişafın dinamikasını şərtləndirir.

*(ardı 7-ci səhifədə)*

# Rusiya, İran və Zəngəzur dəhlizi

*Moskva Tehranı ağıllı olmağa çağırır*



**Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqunun iranlı həmkarı Əli Əkbər Əhmədian ilə görüşündə səsləndirdiyi fikirləri təkrarlayıb. Əvvəlcə Şoyqunun nə dediyini xatırlayaq: “Rusiya Tehranla Zəngəzurla bağlı əvvəlki razılaşmalara sadiqdir və Moskvanın bununla əlaqədar siyasəti dəyişməyib”.**

Əlqərəz, M.Zaxarova keçirdiyi ənənəvi brifinqdə bildirib ki, Moskvanın Zəngəzur dəhlizi məsələsində Cənubi Qafqazda kommunikasiyaların açılması ilə bağlı mövqeyi dəyişməzdir. Xanım sözçü fikrini əsaslandırarkən, üçtərəfli Bəyanat məntiqi üzərində dayanıb: “Bir daha xatırladıram ki, regionda nəqliyyat blokadasının aradan qaldırılması ilə bağlı Rusiyanın mövqeyi məlumdur. Bu mövqe heç bir dəyişikliyə məruz qalmayıb. Biz ardıcıl olaraq Cənubi Qafqazda bütün nəqliyyat və iqtisadi kommunikasiyaların blokdan çıxarılmasının tərəfdarıyıq. Eyni zamanda, bütün iştirakçı tərəflərin maraqlarını qeyd-şərtsiz nəzərə alırıq. Biz Azərbaycan, Ermənistan və Rusiya liderlərinin 2020-ci ildən 2022-ci ilə qədər qeydə alınmış və qəbul edilmiş üçtərəfli bəyanatlarında məsələnin həllinin müvafiq olaraq qarşılıqlı məqbul yanaşmalara əsasən çıxış edirik”.

*(ardı 3-cü səhifədə)*

# Heydər Əliyev Fondunun Vatikanda Müqəddəs Yubiley İlinə töhfəsi



**Vatikan şəhəri dövləti üzrə qubernatorluq ilə Heydər Əliyev Fondu arasında Müqəddəs Pavel Bazilikasında (Basilica of Saint Paul Outside the Walls) bərpa işlərinə dair müqavilə imzalanıb. Sənədi Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov və Vatikan şəhəri dövləti üzrə qubernatorluğun prezidenti kardinal Fernando Vergez Alzaqa imzalayıblar.**

Vatikana səfər çərçivəsində, eyni zamanda, Vatikan şəhəri dövləti üzrə qubernatorluğun prezidenti kardinal Fernando Vergez Alzaqa və bir sıra digər rəsmi şəxslər ilə görüş keçirilib, Azərbaycanla Müqəddəs Taxt-Tac arasında əlaqələr, Heydər Əliyev Fondu ilə birgə layihələr müzakirə olunub.

Daha sonra Azərbaycan nümayəndə heyəti Müqəddəs Pavel Bazilikasını ziyarət edib.

Müqəddəs Pavel Bazilikası Vatikanın ən böyük abidələrindəndir və 1980-ci ildən UNESCO-nun Ümumdünya İrs Siyahısına daxildir. 2025-ci ildə Vatikanda hər 25 ildən bir təşkil olunan Müqəddəs Yubiley İli çərçivəsində 30 milyondan çox katolik zəvvarın bu kilsəni ziyarət etməsi gözlənilir. Bərpa işləri, ilk növbədə, 2025-ci ildə keçiriləcək Müqəddəs Yubiley İli zamanı ziyarətçilərin bu dini ocağa təhlükəsiz girişinin təmin edilməsi məqsədilə aparılır.

Qeyd edək ki, ötən müddətdə Heydər Əliyev Fondu Vatikanda bir sıra bəşəri əhəmiyyət daşıyan tarixi abidələrin bərpasına, mədəni irsin qorunması sahəsində işlərə öz töhfəsini verib.

# Mərkəzi Seçki Komissiyasının növbəti iclası



**Sentyabrın 12-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.**

İclasda Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərə baxılıb.

Maraqlı subyektlərin də qatıldıqları iclasda əvvəlcə müraciətlərlə bağlı ərizəçilərin özlərinin bilavasitə iştirakı ilə aparılan hərtərəfli, obyektiv və şəffaf araşdırma prosesi barədə ətraflı məlumat verilib.

Ardınca Komissiya üzvlərinin geniş müzakirəsinin nəticəsi olaraq, vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin edilməsi üçün qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada, operativ şəkildə baxılan müraciətlərlə bağlı müvafiq qərarlar qəbul edilib.

Mərkəzi Seçki Komissiyasının iclasında, həmçinin cari məsələlərə baxılıb.

*XQ*

# Fransanın Azərbaycanın məhkəmə qərarına qarşı ittihamı qəbuledilməzdir

**Fransanın Avropa və Xarici İşlər Nazirliyinin bu ölkə vətəndaşı Teo Klerkə qarşı, guya, məhkəmənin ayrı-seçkilik edərək "haqsız qərar verməsi" barədə bəyanatı – özünü "hüquqi dövlət" adlandıran bir dövlətin Azərbaycanın məhkəmə prosedurlarını heçə sayması qəbuledilməzdir. Fransa tərəfindən səsləndirilən iradların heç bir əsası yoxdur.**

Bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin açıqlamasında bildirilib. XİN rəsmisinin sözlərinə görə, dövlət əmlakına qəsdən ziyan vuran Fransa vətəndaşına, eləcə də digər şəxslərlə bağlı verilən hökm məhkəmənin səlahiyyətindədir və Fransa tərəfinin bu qərarı sual altına almağa ixtiyarı yoxdur: "Fransa vətəndaşı Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin əmlakı qəsdən məhvetmə və ya zədələmə maddəsi ilə azadlıqdan məhrum olunub. Qeyd edək ki, belə əməllərə görə Teo Klerk əvvəllər Fransada da cəzalandırılıb və ona cərimə tətbiq olunub".

A.Hacızadə açıqlamasının sonunda deyib ki, Azərbaycanda məhkəmə hakimiyyətinə və insan hüquqlarına dair iddia səsləndirən, dünyaya "demokratiya dərsi" keçməyə çalışan Fransanın beynəlxalq hüquq pozuntuları, neokolonial siyasəti, irqçilik, diskriminasiya, islamofobiya, insan hüquqlarının məhdudlaşdırılması kimi fəaliyyətləri hər kəsə məlumdur. Buna görə də Fransanın bu fəaliyyətindən dərs çıxarması daha faydalı olardı.

*XQ*

# Qardaş ölkənin yeni hərbi attaşesi Müdafiə Nazirliyində

**Türkiyənin ölkəmizdə yeni təyin edilən hərbi attaşesi general-mayor Gaffar Gören Müdafiə naziri general-polkovnik Zakir Həsənova təqdim olunub.**

Zakir Həsənov iki qardaş ölkənin dövlət başçılarının səmimi münasibətlərinin digər sahələrə olduğu kimi, hərbi əməkdaşlığa da müstəsna təsirini xüsusi vurğulayıb. O, türkiyəli hərbi attaşeyə Azərbaycan–Türkiyə arasında hərbi əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində gələcək fəaliyyətində uğurlar arzulayıb.

General-mayor G.Gören ölkələrimiz arasında hərbi əməkdaşlığın daha da inkişaf etdirilməsi naminə səylərini əsirgəməyəcəyini bildirib.

*XQ*



# Azərbaycan – Serbiya ekoloji əməkdaşlığı



**Azərbaycanla Serbiya arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair saziş imzalanıb.**

Belqradda keçirilən mərasimdə sazişi Azərbaycanı COP29-un müəyyən edilmiş prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev imzalayıb. Sənəd iki ölkə arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığın genişləndirilməsini nəzərdə tutur.

Azərbaycanlı nazir Belqradda Serbiya hökuməti ilə bir sıra görüşlər keçirib.

*XQ*

# Türkiyəli hakimlər Ali Məhkəmədə



**Azərbaycan Respublikası Ali Məhkəməsində ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Ali Məhkəməsinin sədri Ömər Kərkəzin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**

Söhbət zamanı sədr İnam Kərimov Ömər Kərkəzi qardaş Türkiyənin Ali Məhkəməsinin sədri seçilməsi münasibəti ilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb. Xalqlarımızın qardaşlığı və həmrəyliyi sayəsində iki ölkə arasında bütün sahələrdə əlaqələrin yeni mərhələyə qədəm qoyduğu və daim inkişaf etdiyi vurğulanıb.

Görüşdə ölkəmizdə aparılan məhkəmə-hüquq islahatları, həmçinin Azərbaycan Respublikası Ali Məhkəməsinin fəaliyyəti barədə geniş məlumat verilib.

Səmimi qəbula görə təşəkkürünü bildirən Ömər Kərkəz iki ölkə arasında qarşılıqlı əməkdaşlığın böyük əhəmiyyət daşıdığını vurğulayaraq, əlaqələrin daha da möhkəmləndirilməsi üçün səylərin artırılmasının vacibliyini diqqətə çatdırıb.

Görüşdə hüquqi dövlət quruculuğu sahəsində həyata keçirilən tədbirlər və məhkəmə-hüquq təcrübəsi ilə bağlı geniş fikir mübadiləsi aparılıb. Bildirilib ki, hər iki ölkənin məhkəmə orqanları arasında əməkdaşlığın daha da gücləndirilməsi üçün yeni imkanlar mövcuddur.

*XQ*

# Xarici İşlər Nazirliyində



**Dünən Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov Qətərin ölkəmizdəki yeni səfiri Məhəmməd Həməd Səad əl-Haciri ilə görüşüb.**

Azərbaycan XİN-in rəhbəri Qətər səfirini diplomatik təyinat münasibətilə təbrik edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Görüş zamanı Azərbaycan ilə Qətər arasında mövcud ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyindən irəli gələn məsələlər, gələcək planlar, habelə bölgədə mövcud vəziyyət müzakirə olunub.

Səfir Məhəmməd Həməd Səad əl-Haciri fəaliyyəti müddətində Azərbaycan ilə Qətər arasında mövcud əməkdaşlığın inkişafı istiqamətində səylərini əsirgəməyəcəyini diqqətə çatdırıb.

*

**Həmin gün Xarici işlər naziri Ceyhun Bayramov Əlcəzair Xalq Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş səfiri Zəkiyyə İğılı qəbul edib.**

Cari ilin ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə əlamətdar olduğunu qeyd edən nazir bu illər ərzində əməkdaşlığımızın inkişafında qarşılıqlı səfərlərin, habelə intensiv siyasi dialoqun əhəmiyyətli rol oynadığını diqqətə çatdırıb. Bir sıra istiqamətlər, o cümlədən, iqtisadiyyat, ticarət, enerji təhlükəsizliyi, humanitar və sair sahələr üzrə əməkdaşlığın inkişafı üçün perspektivlərin mövcud olduğu, bu xüsusda imkanların müzakirəsi istiqamətində siyasi məsləhətləşmələr mexanizmindən istifadənin vacibliyi vurğulanıb.

Regional və beynəlxalq təşkilatlar, xüsusilə BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı çərçivəsində qarşılıqlı dəstək və əməkdaşlığın bundan sonra da davam etdirilməsinin əhəmiyyəti qeyd olunub.

*

**Dünən Xarici işlər naziri Ceyhun Bayramov ilə Lüksemburq Böyük Hersoqluğunun xarici işlər və xarici ticarət naziri Xavier Bettel arasında telefon danışığı olub.**

Tərəflər Azərbaycan və Lüksemburq arasında mövcud münasibətlərin inkişafı, qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsində bu kimi təmasların əhəmiyyətli rolu olduğunu diqqətə çatdırıb.

Ceyhun Bayramov, həmçinin qarşı tərəfi postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, Azərbaycan və Ermənistan arasında normallaşma prosesinin gedişatı, hazırkı vəziyyəti barədə ətraflı məlumatlandırıb.

Ermənistan qanunvericiliyində ölkəmizə qarşı davam edən ərazi iddialarının, habelə bu ölkənin sürətli hərbiləşməsinin bölgədə dayanıqlı sülh quruculuğu prosesinə təhdid törədən əsas amillər olduğu vurğulanıb.

*XQ*

# Hərbi Prokurorluğun yüksək rütbəli zabitlərlə birgə tədbiri



**Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri və Müdafiə Nazirliyinin yüksək rütbəli hərbi qulluqçuları N saylı hərbi hissənin şəxsi heyətinin hüquqi maariflәndirilməsi istiqamətində birgə tədbir keçirib.**

Hərbi prokurorun böyük köməkçiləri Firad Əliyev, ədliyyə müşaviri İsmayıl Əliyev, Tərtər hərbi prokuroru Emin Vəliyev, eləcə də digər şəxslər hərbi qulluqçular qarşısında hüquqi maarifləndirici məzmunlu çıxışlar ediblər və sualları cavablandırıblar.

*XQ*

# Rusiya, İran və Zəngəzur dəhlizi

(əvvəli 1-ci səhifədə)




Xanım Zaxarovanın üzərində dayandığı ən konkret məqam isə 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın 9-cu bəndidir. Rusiya XİN sözçüsü brifinqdə məhz bu bənddə yazılanları bir-bir diqqətə çatdırıb: "Regiondakı bütün iqtisadi və nəqliyyat əlaqələri blokdan çıxarılacaq. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətini təşkil etmək məqsədi ilə Azərbaycan Respublikasının qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat rabitəsinin təhlükəsizliyinə təminat verir. Nəqliyyat rabitəsinə nəzarəti Rusiya FSB-nin Sərhəd Xidməti həyata keçirir. Tərəflərin razılığı ilə Naxçıvan Muxtar Respublikasını Azərbaycanın qərb rayonları ilə birləşdirən yeni nəqliyyat kommunikasiyalarının tikintisi təmin ediləcək".

Göründüyü kimi, Rusiya regional kommunikasiyaların açılması məsələsində başqa yol tanımadığını ortaya qoyub. Ermənistanın üçtərəfli Bəyanatdakı imzasını ləğv etmədiyini bildirən Zaxarova deyib ki, təklif olunan formul təkcə Bakı və İrəvanın deyil, həm də regiondakı bütün qonşuların, bölgə dövlətlərinin, o cümlədən, Rusiyanın, İranın və Türkiyənin maraqlarına cavab verir.

M.Zaxarova, həmçinin Zəngəzur dəhlizi ilə bağlı Ermənistanda, habelə İranın bəzi dairələrində yaranmış isterik ab-havaya da münasibət bildirib. Haşiyə çıxaq ki, Tehrandan gələn mesajlar regionda sərhədlərin dəyişdirilməsinin yolverilməzliyini, İrəvan isə ərazi bütövlüyü və suverenliyin toxunulmazlığını rəhbər tutur. Rusiya XİN rəsmisi belə mülahizələrin gerçək əsasının olmadığını vurğulayaraq deyib ki, Moskva heç bir dövlətin suverenliyini şübhə altına almaq niyyətində deyil.

Yeri gəlmişkən, Zaxarova oxşar fikirləri bir müddət əvvəl də dilə gətirmişdi. O, Azərbaycan, Rusiya və Ermənistan baş nazirlərinin müavinlərinin rəhbərlik etdikləri üçtərəfli işçi qrupunun iclaslarında Naxçıvana yolla bağlı sonuncunun ərazi bütövlüyünə və suverenliyinə xələl gətirməyən hüquqi formulun razılaşdırıldığını vurğulamış və bildirmişdi ki, rəsmi İrəvan sonradan razılaşmadan boyun qaçırdı. Necə? Erməni tərəfinin tələbi bu olub ki, Rusiya sərhədçiləri Ermənistan ərazisində olduğu kimi, Azərbaycan ərazisində də keşik çəksinlər. Təbii ki, tələb yolverilməz idi. Ona görə də Rusiya XİN rəhbəri Sergey Lavrov rəsmi İrəvanın mövqeyini regional kommunikasiyaların blokdan çıxarılmasının sabotajı kimi dəyərləndirmişdi.

Bəli, Zaxarova yenə eyni fikirlərini diqqətə çatdırır və bildirir: "Təəssüf ki, bizim heç bir təqsirimiz olmadığından, bu qrupda (Azərbaycan, Rusiya və Ermənistan baş nazirlərinin müavinlərinin rəhbərlik etdikləri üçtərəfli işçi qrupu – red.) iş dayanıb. Düşünürəm ki, kimin günahkar olduğunu təxmin edə bilərsiniz. Üçtərəfli işçi qrupu çərçivəsində tamhüquqlu qarşılıqlı fəaliyyətin tezliklə bərpası Cənubi Qafqazın nəqliyyat-kommunikasiya sisteminin bərpasına birbaşa töhfə verməklə yanaşı, bütün regionun sosial-iqtisadi inkişafını təmin edəcək. Niyə bu mövzuda, o cümlədən, Ermənistan mediasında bütöv bir dezinformasiya kampaniyasına başlanıldığı mənə o qədər də aydın deyil".

Əlbəttə, M.Zaxarova kimi təcrübəli diplomat haqqında söz açdığı dezinformasiya kampaniyasına hansı səbəbdən start verildiyini çox gözəl bilir. Bilir ki, destruktiv mövqeyindən, anti-sülh baxışlarından daşınmayan baş nazir Nikol Paşinyan və komandası havadarlarının köməyi ilə Cənubi Qafqazdakı erməni avantürizminin saxlanılmasına çalışır. Hazırda avantürizmin hədəfində Rusiyanı bölgədən sıxışdırıb çıxarmaq dayanır. Rəsmi İrəvan bu məsələdə özünün "Dünyanın kəsişməsi" təşəbbüsünü irəli sürür. Daha dəqiq desək, təşəbbüsü Azərbaycanın Naxçıvana yol müstəvisindəki Zəngəzur dəhlizi məntiqinə qarşı qoyur.

Deməli, Qərb bir tərəfdən Rusiyanı bölgədən sıxışdırmaq istəyirsə, digər yandan "Dünyanın kəsişməsi" layihəsi ilə Ermənistanı regional kommunikasiyaların açar nöqtəsinə çevirməyi, beləliklə İrəvanın avantürist niyyətlər naminə daha da güclənməsini hədəfləyir. Hədəfləyir ki, gələcəkdə ondan Bakıya qarşı təzyiq vasitəsi kimi yararlansın. Qərbin məqsədi Azərbaycanda kifayət qədər, yaxşı dərk edilir və ona qarşı siyasi-diplomatik müqavimət formalaşdırılır.

Mövcud dolaşıq labirintdə anlaşılmayan İranın mövqeyidir, yəni, regional sərhədlərin dəyişməsinin yolverilməzliyini vurğulayıb, faktiki olaraq, qaşınmayan yerdən qan çıxarmağa çalışmasıdır. Azərbaycan rəsmiləri də dəfələrlə ölkəmizin Ermənistana qarşı ərazi iddiasının olmadığını bəyan ediblər. Deməli, Tehran rəhbərliyi, eləcə də İrandakı siyasilər erməni dəyirmanına su tökən ampluadan daşınmalı, rasional düşünməyi bacarmalıdırlar. Nəzərə alaq ki, istər Zaxarovanın, istərsə də ondan əvvəl Şoyqunun bildirdikləri, eyni zamanda, bu mövqeyin alternativsizliyinə dair mühüm çağırışdır. Çağırış həm də ona görə səslənir ki, İran Türk dünyasının birləşməsi yolunda problemə çevrilməsin, ənənəvi anti-türk mövqeyindən daşınaraq, müasir dövrün reallıqlarına söykənərək hərəkət etsin. Onu da nəzərə alaq ki, bu hərəkətin zərəri yox, böyük iqtisadi faydaları var ki, mövcud istiqamətdə təminat verən təkcə Rusiya deyil, eyni zamada, Azərbaycan və Türkiyədir. Qərbin Ermənistan vasitəsilə reallaşdırmağa çalışdığı siyasət isə birmənalı şəkildə dağıdıcıdır.

**Ə.CAHANGİROĞLU**
**XQ**

# Sülhün kürəyinə sancılan xəncər



**Azərbaycan Müdafiə Nazirliyinin atəşkəs rejiminin pozulması ilə bağlı növbəti rəsmi məlumatı: "Sentyabrın 11-i saat 10:50 radələrində Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Heydərabad yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeləri Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən üzbəüz mövqelərdən atıcı silahlar vasitəsilə atəşə tutulub. Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb".**

Təəssüf ki, nazirliyin sərhəddə vəziyyətin gərginləşməsindən xəbər verən bu xarakterli məlumatları son günlər mütəmadi hal alıb. Addım səsləri yaxınlaşmaqda olan sülh sazişinin kürəyinə atəşin məhz indiki məqamda açılması müəyyən suallar doğurur. Ermənistan baş nazirinin, hökumətin yüksək ranqlı digər rəsmilərinin, guya, Azərbaycanla sülh sazişini imzalamağa hazır olduqlarını bəyan etdikləri məqamda sərhəddə insident yaratmağa cəhdlərin edilməsi təsadüfi sayıla bilərmi? Qətiyyən yox! Görünən odur ki, Ermənistan özünü normal dövlət kimi deyil, qondarma qurum kimi aparmaqda davam edir. Son vaxtlar Azərbaycan ərazilərinin, xüsusilə ordumuzun Naxçıvanın sərhədyanı bölgədəki mövqelərinin atəşə tutulması intensiv xarakter alıb.

Sərhəddə bu cür təxribatlara əl atan İrəvanın altniyyətinin Zəngəzur dəhlizinin açılmasını əngəlləmək olduğunu güman etmək çətin deyil. Ermənistan hakimiyyəti Naxçıvana maneəsiz əlaqənin açılmasını ləngitməklə, Türkiyənin bu dəhliz vasitəsilə Azərbaycanla birbaşa əlaqə yaratmasına mane olmaqla kommunikasiyaların açılmasında özünün deyil, Bakının maraqlı olmadığı təsəvvürünü yaratmağa çalışır. Belə təxribatçı hərəkətlərin nəticəsində ortaya çıxacaq "problemin" həlli üçün Avropa İttifaqını bölgəyə cəlb etmək isə Paşinyan iqtidarının strateji hədəflərindəndir. İrəvanın burada güddüyü ikinci məqsədi sülh danışıqlarında Aİ-nin obyektiv səbəblərdən zəifləmiş vasitəçilik rolunun yenidən güclənməsinə nail olmaqdır. Ermənistanın sülhə aparan yola daş diyirləməsi, atəşkəs rejimini tez-tez pozması həm də buna hesablanıb.

*

Əgər bu gün Ermənistan ordusu sülhə atəş açırsa və "sülhsevər" Nikol Paşinyan ordusunun sərhəd təxribatlarının qarşısını ala bilmirsə, bu halda onun Zəngəzur dəhlizi boyunca təhlükəsizliyimizi təmin edəcəyi barədə dediklərinə inana bilərikmi? İndi gəlin belə bir vəziyyəti təsəvvür etməyə çalışaq: Zəngilandan Ordubada istiqamət alan qatar, yaxud avtomobilin qarşısını silahlı erməni quldurları kəsir və bu zaman "təhlükəsizliyə təminat vermiş" Ermənistan sərhədçiləri hadisədən "xəbərtutmurlar".

Hayların Qarabağ münaqişəsini alovlandırdıqları ötən əsrin 80-ci illərinin sonlarını yadımıza salaq. 1988-ci ildən başlayaraq soydaşlarımızın getdiyi qatarlar ermənilər tərəfindən daşa basılır, atəşə tutulurdu. Yəni, "Başına gələn başmaqçı olar" zərb-məsəlimizin məntiqi ilə bundan sonra erməniyə güvənmək mümkün deyil. Eləcə də dəhlizə nəzarəti icarəyə vermək istədiyi əcnəbi şirkətə necə? Bəlkə İrəvan bu missiyanı Aİ-nin mülki müşahidəçilərinə – durbinli diplomatlarına həvalə etmək barədə düşünür?

Komandanı Qərbdən, yaxud Cənubdan aldığı güman edilən rəsmi İrəvan populist və avantürist açıqlamaları ilə dünənki tərəfdaşlarını da özünə qarşı çevirməyə başlayıb. Durumun diqqəti cəlb edən digər tərəfi odur ki, İran rəhbərliyi Zəngəzur dəhlizi ilə bağlı bəyanatlarını sərtləşdirdikcə Ermənistan hakimiyyəti də məsələyə yersiz müdaxiləni, yaxud sərsəm iddialarını səsləndirməkdə davam edir. Faktiki olaraq, İranın əsl niyyəti Turan dəhlizinə çevriləcək Zəngəzur layihəsini sabotaj etməkdir. ABŞ, Aİ, Çin, Rusiya, digər güc mərkəzlərinin mübarizəsinin də birbaşa dəhlizə fokuslandığı məlumdur. İran Ali Milli Təhlükəsizlik Şurasının katibi Əli Əkbər Əhmədianın rusiyalı həmkarı Sergey Şoyqu ilə görüşünü də məhz bu prizmadan dəyərləndirmək lazımdır.

Hökumətlərarası razılaşmaya əsasən, Azərbaycan İran ərazisindən keçməklə Naxçıvana gedəcək (Araz dəhlizi – red.) kommunikasiya xəttinin inşası istiqamətində işləri davam etdirir. Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadə yerli mediaya müsahibəsində deyib. Onun sözlərinə görə, Ermənistan üçtərəfli Bəyannaməni təhrif edir: "Bu da bizdə təəssüf doğurur. Üçtərəfli sənədin 9-cü bəndində kommunikasiyaların açılması ilə bağlı konkret öhdəliklər var. Əgər Ermənistan hazırkı mövqeyində təkid edirsə, Azərbaycanın alternativ variantlar var. Onlardan biri də İran üzərindən, Araz çayının cənub sahili ilə müvafiq kommunikasiya xətlərinin çəkilməsidir. Bu istiqamətdə müvafiq işlər gedir. Ermənistan özünütəcrid etmək siyasətini davam etdirirsə, bu, onun öz seçimidir. Bu seçim onların xeyrinə deyil".

*

Birmənalı şəkildə deyə bilərik ki, Naxçıvanın sərhəd bölgələrinə atəşin açılması sülh prosesini pozmaq, mövcud status-kvonun ömrünü uzatmaq, dəhliz ətrafında xarici güclərin əsəblərini daha da tarıma çəkmək niyyətini güdür. Fəqət, Paşinyan və komandası sərhəddə açılan atəşin, ümumilikdə, Azərbaycan dövlətinə qarşı yönəldiyini də gərək unutmasın. Üstəlik, atəşin son ünvanının Türkiyə olduğu da gizli deyil. Axı, qardaş Türkiyə ilə Sədərək arasında çox qısa məsafə var. Məsələnin tarixi-siyasi tərəfinə gəldikdə isə Bakı İrəvana XX əsrin Qars müqaviləsini, XXI əsrin Yeni Qars sazişini – Müttəfiqlik haqqında Şuşa Bəyannaməsini xatırlada bilər. Son olayların fonunda diqqəti çəkən daha bir məqam isə Tehranın yenə "ağzına su alıb" gözləməsidir. Bəs, ermənilərin sərhədin üzərindən Naxçıvana atəş açması İranı narahat etmir? Çox güman ki, Ermənistan ordusunun atdığı güllələrin səsini İran sərhədçiləri də eşidiblər. İntəhası, İran yenə susur.

Bəli, Ermənistan hələ sülhə tam hazır deyil. Danışıqlarda Azərbaycana təzyiq etmək üçün müxtəlif variantlar axtarmağa girişib. Aydındır ki, onun hərbi təxribatlarının arxasında siyasi məqsədlər durur. Əgər İrəvanın yeni hərbi qarşıdurmaya getmək niyyəti varsa, Azərbaycanın "dəmir yumruğ"u "Damokl qılıncı" kimi onun başının üstündədir. Ermənistan əldə etdiyi, almağa çalışdığı ən müasir silahlara sahib olsa belə, yenə də qüdrətli Azərbaycan Ordusu ilə cəngə girmək iqtidarında deyil. Çünki bütün müharibələrin son nəticəsi döyüş meydanında qazanılır. Ona görə də Ermənistan uzaqmənzilli raketlərə güvənməkdənsə, yaxın tarixin acı dərslərini yada salsın. Onun üçün budəfəki filmal 23 günlük antiterror əməliyyatından da ağır ola bilər. İrəvanın növbəti hərbi sabotajı tam özünütəcridə aparıb çıxaracaq.

İrəvan üçün ciddi düşünmək və səhv etməmək məqamıdır. Ermənistan müstəqilliyinin, bu ərazinin tarixin müəyyən dönəmində kənar qüvvələr tərəfindən ona peşkəş edildiyini, qonşunun torpaqlarında özünə dövlət yaratdığının fərqinə varmalıdır. Bunlar keçmişdə qalsa da, ondan ibrət götürmək heç vaxt gec deyil. Qafqazda söz sahibi Azərbaycandır və dəhlizin haradan və necə keçəcəyini də o müəyyənləşdirir.

***İmran BƏDİRXANLI***
***XQ***

## Ekspert rəyləri

**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**



– Ermənistan Azərbaycana qarşı bir neçə istiqamətdən hərəkətə keçib. Birincisi hərbi istiqamətdir ki, bu, sərhəddə törətdiyi təxribatlarda özünü göstərir. Məqsəd bizi nədəsə günahlandırmağa bəhanə əldə etməkdir. Digər istiqamət diplomatik fəaliyyətdir. İrəvan dünyaya bəyan edir ki, sülh sazişinin mətnini 80 faiz razılaşdırıblar və onu imzalamağa hazırdırlar, o biri məsələlər sonraya qalsın. Bu, tam cəfəngiyyatdır və Bakı bununla heç vaxt razılaşmayacaq. Çünki yerdə qalan 20 faiz məsələlər Azərbaycan üçün olduqca mühümdür.

Ermənistan hələ də qonşulara qarşı ərazi iddiaları ilə çıxış edir. Həmin iddialar onun konstitusiyasının preambulasında da əks olunub. Bakı bu vəziyyətdə hansı sazişi imzalaya bilər? İndi özünü "sülh göyərçini" kimi qələmə verən Paşinyan, görünür, xaricdəki müəyyən dairələrin rəğbətini qazanmağa çalışır. Zəngəzur dəhlizinin açılmasını isə böyük problemə çevirib. Ən müxtəlif bəhanələr gətirir. Sərhəddə hansı ölkənin qüvvələri dayanacaq? Dava bunun üstündədir. 2020-ci ildə imzalanmış üçtərəfli sənəd var. Onun 9-cu bəndində hər şey aydın şəkildə yazılıb. Yəni, Amerikanı yenidən kəşf etməyə ehtiyac yoxdur.

Paşinyanın belə təxribatçı addımları atmaqda məqsədi Avropadan dəstək əldə etməkdir. Həm də Azərbaycana qarşı yeni bir qətnamə qəbul etsinlər. Amma Azərbaycan həm hərbi, həm də diplomatik cəbhədə fəaliyyətini davam etdirəcək. Bakının mövqeyi, əvvəlki kimi, dəyişməz və prinsipialdır. İrəvan bunu dərk etməli və lazımi nəticəni çıxarmalıdır.

**Yeganə HACIYEVA,**
**siyasi icmalçı**



– Ermənistan Zəngəzur dəhlizi ətrafında və sərhəddə vəziyyətin qeyri-sabit olması təsəvvürünü yaratmağa çalışmaqla bir məqsəd güdür: kənar gücləri, ilk növbədə, Qərbin silahlı qüvvələrini Zəngəzura və sərhəd bölgəsinə yerləşdirilməsi üçün informasiya bazası formalaşdırmaq. Başladığı təbliğat kampaniyasının sonunda isə İrəvan Zəngəzurda özünün daha çox güvəndiyi dövlətin ordusunun təmsilçiliyinə nail olmaq və yaranacaq yeni reallığı öz xeyrinə həll etmək niyyətindədir.

Bəli, Ermənistan hakimiyyəti sərhədlərinin qorunmasında artıq Rusiyaya güvənmir və onun daxildə yeritdiyi siyasət rus sərhədçilərinin yavaş-yavaş ölkədən çıxarılmasına hesablanıb. İrəvanın son addımları məhz bundan xəbər verir. "Zvartnos" hava limanından başladığı prosesi sərhədlərə qədər genişləndirməyi planlayan Paşinyan hökuməti paralel olaraq Zəngəzur dəhlizi ətrafında da atəşkəsi pozmaqla, sərhəddə səs-küy qaldırmaqla əsas planlarını gerçəkləşdirməyə cəhd edir. Sərhəd təxribatlarının delimitasiya və demarkasiya prosesinin aparılacağı ərazilərin perimetri boyu baş verməsi təsadüfi sayıla bilməz. Bu, həm də ona hesablanıb ki, sərhədin müəyyən edilməsi prosesində dirəniş göstərmək üçün bəhanə qazansın.

Bu məsələ ilə bağlı sentyabrın 24-də Ermənistan konstitusiya məhkəməsi qərar verəcək. Yəni, avqustun 30-da imzalanmış hökumətlərarası sənədin məhkəmə tərəfindən təsdiqlənəcəyi gözlənilir. Bütün bunlar İrəvanın sülhdənqaçma "fəaliyyətinin" fəsadlarıdır.

# USAID Ermənistanı revanşizmə sürükləyir

(əvvəli 1-ci səhifədə)

S.Pauerin Ermənistan rəsmiləri ilə tez-tez görüşlər keçirməsi diqqətdən yayınmır. O, 2024-cü il aprelin 5-də Brüsseldə N.Paşinyanla görüşmüşdü. Görüşdə Ermənistan təhlükəsizlik şurasının katibi Armen Qriqoryan, xarici işlər naziri Ararat Mirzoyan, Ermənistanın ABŞ-dəki səfiri Lilit Makunts, ABŞ-nin İrəvandakı səfiri Kristina Quinn, USAID-in Ermənistandakı missiyasının direktoru Con Allelo, USAID-in milli təhlükəsizlik direktoru Kolin Tomas Yensen də iştirak etmişdilər. Görüşdən sonra bildirilmişdi ki, müzakirə olunan əsas məsələlər Ermənistanda USAID proqramlarının həyata keçirilməsi, Qarabağı tərk etmiş ermənilərin dəstəklənməsi, Hayastanda demokratiyanın inkişafına yönəlmiş layihələrin icrası ilə bağlı olub.



Bu görüşdən 3 ay sonra – iyulun 8-də S.Pauer Ermənistana ikinci səfərini etmişdi. İyulun 11-dək davam edən səfər çərçivəsində keçirilən görüşlərdə USAID-in bu ölkəyə humanitar, psixo-sosial, eləcə də islahatların təşviqinə dəstəyi müzakirə olunmuşdu. S.Pauer iyulun 10-da İrəvanda baş nazir N.Paşinyanla görüşdə bildirmişdi ki, ABŞ Administrasiyası Ermənistanla sıx əməkdaşlığa önəm verir və ölkənin hökumət proqramlarını ardıcıl dəstəkləməyə hazırdır. Paşinyan isə bildirmişdi ki, onun hökuməti islahatların həyata keçirilməsi istiqamətində ardıcıl addımları qətiyyətlə davam etdirəcək.

İndi isə həmin səfərin və keçirilən görüşlərin praktiki nəticələri özünü göstərir. Sentyabrın 11-də baş nazirin müavini Mqer Qriqoryan və USAID-in yerli missiyasının direktoru Con Allelo Ermənistan və ABŞ arasında inkişaf əməkdaşlığı üzrə qrant sazişinə düzəliş imzalayıblar. Ermənistan hökumətinin yaydığı məlumata görə, nəticədə USAID sazişi çərçivəsində nəzərdə tutulan məbləğ iki dəfədən çox artırılaraq 120 milyon dollardan 250 milyon dollara çatdırılıb, həmçinin birgə layihələrin sahələri genişləndirilib. Genişlənmiş saziş fəlakət risklərinin idarə edilməsi, kibertəhlükəsizlik, ərzaq və enerji təhlükəsizliyi, regional əməkdaşlıq və ticarət, demokratik proseslər və inklüziv iqtisadi inkişaf kimi sahələri əhatə edəcək.

İmzalanma mərasimindən sonra açıqlama verən M.Qriqoryan bildirib ki, Ermənistan üçün vacib olan təkcə maliyyə dəstəyi deyil, həm də birgə proqramlarımız nəticəsində irəli sürülən demokratik dəyərlər (?), yaradıcı ideyalar və inkişaf etmiş biznes mədəniyyətidir. "Sonuncunun ölkəmizə sərmayə qoyması bizə əsaslı islahatlar aparmağa və vətəndaşların həyat keyfiyyətini yüksəltməyə imkan verir" – deyə Qriqoryan vurğulayıb.

USAID-in yerli missiyasının direktoru C.Allelo isə deyib: "Bu dəyişiklik bizim Ermənistanla tərəfdaşlığımıza sadiqliyimizi göstərir. Dəstəklərimizin həcmini artırmaqla və proqramlarımızı genişləndirməklə biz Ermənistanın inkişafına və uğur qazanmasına kömək edirik. Bizim ümumi məqsədlərimizə çatmaqda Ermənistan hökuməti və nazirlikləri ilə işimiz həlledici rola malikdir".

Göründüyü kimi, ABŞ tərəfi müxtəlif vasitələrlə Ermənistana dəstək verməyə, onu ayağa qaldırmağa, dirçəltməyə çalışır. Nədənsə, bu zaman dəstək verilən ölkənin 30 ilə yaxın qonşu dövlətin torpaqlarını işğal altında saxladığı, onun 1 milyondan çox vətəndaşını qaçqın və məcburi köçkün vəziyyətinə saldığı unudulur. Rəsmi İrəvan bu gün də Azərbaycana ərazi iddialarından əl çəkməyib. Hələ də konstitusiyasından ölkəmizə ərazi iddialarına əsas verən müstəqillik bəyannaməsinə istinad edən müddəanı çıxarmayıb. Doğrudur, sülh danışıqları aparılır və uzun sürən müzakirələr nəticəsində bir çox maddələri razılaşdırmaq mümkün olub. Amma rəsmi Bakının mövqeyi bundan ibarətdir ki, saziş yalnız bütün maddələr üzrə razılıq əldə edildikdən sonra imzalanmalıdır. Beləliklə, bir maddənin razılaşdırılmaması qalan digər maddələrin də razılaşdırılmadığı anlamına gəlir.

Ermənistanın mövqeyi üzündən bölgədə sülh yaranmır. Xarici havadarları isə onun iqtisadi vəziyyətini yaxşılaşdıraraq, İrəvana öz mövqeyindən geri çəkilməyə, konstruktiv olmağa imkan vermirlər.

Girişdə qeyd etdiyimiz kimi, USAID də, təəssüf ki, belə qüvvələrdən biridir. Keçmiş işğalçını və hazırda qonşu ölkəyə qarşı ərazi iddialarından əl çəkməmiş ölkəni dəstəkləmək isə USAID-in məqsədləri sırasına daxil deyil. Hər halda rəsmi bəyan edilmiş məqsədlərə təbii fəlakətlərin aradan qaldırılması, yoxsulluğun ləğv olunması, qlobal məsələlər, o cümlədən ətraf mühit üzrə texniki əməkdaşlıq, ABŞ-nin ikitərəfli maraqları, sosial-iqtisadi inkişaf kimi məsələlər daxildir. Amma görünən odur ki, Demokratlar Partiyasının üzvü, erməni sevgisi aşıb-daşan xanım Pauer rəhbərlik etdiyi qurumu da özünün istəklərinə, necə deyərlər, qurban verir.

Burada diqqəti cəlb edən bir məqam da var. S.Pauerin keçirdiyi bütün görüşlərdə Qarabağdan könüllü getmiş ermənilərin problemləri qabardılır. Məsələn, onun aprelin 5-də Paşinyanla Brüsseldə keçirilən görüşü ilə bağlı Ermənistan hökumətinin mətbuat xidmətinin yaydığı məlumatda deyilirdi: "Həmsöhbətlər "Dağlıq Qarabağdan" (?) olan məcburi köçkünlərin (?) humanitar problemlərinə toxunublar. Nikol Paşinyan beynəlxalq tərəfdaşlar, o cümlədən ABŞ tərəfindən "məcburi köçkünlərə" göstərilən dəstəyin əhəmiyyətini və onun davam etdirilməsinin vacibliyini vurğulayıb. Bu kontekstdə "məcburi köçkünlərin" dəstəklənməsi üzrə gələcək addımlarla bağlı məsələlər, xüsusən də onların mənzillə təmin olunması məsələsi müzakirə edilib".

Yaxud da iyulun 10-da İrəvanda Paşinyanla keçirilən görüşlə bağlı yayılan məlumatda yenə də "Dağlıq Qarabağdan olan məcburi köçkünlərin" humanitar problemlərinə və Ermənistan hökumətinin onların həlli istiqamətində atdığı addımlara, o cümlədən mənzil proqramına toxunulduğu bildirilib. Bu kontekstdə Paşinyan beynəlxalq ictimaiyyətin davamlı dəstəyinin və aprelin 5-də Brüsseldə keçirilən Ermənistan–Aİ–ABŞ yüksək səviyyəli görüşündə əldə olunmuş razılaşmaların həyata keçirilməsinin vacibliyini vurğulayıb. Həmsöhbətlər, həmçinin Ermənistan–Azərbaycan sülh prosesi, eləcə də Paşinyan hökumətinin "Sülhün kəsişməsi" layihəsi ilə bağlı məsələlərə toxunublar.

Ötənilki lokal xarakterli antiterror tədbirlərini bəhanə edib bölgədən öz xoşları ilə çıxıb gedən ermənilərin sayı ən şişirdilmiş rəqəmlərdə 100 mini keçmir. Elə S.Pauer özü də həmin günlərdə lokal xarakterli tədbirləri "Azərbaycanın hərbi əməliyyatı", Qarabağ iqtisadi rayonunu isə "Dağlıq Qarabağ" adlandırıraraq qeyd etmişdi ki, bunun nəticəsində 100 mindən çox insan öz evlərini tərk edərək qonşu Ermənistana köçmək məcburiyyətində (?) qalıb. Halbuki, Azərbaycanın 1 milyon vətəndaşı öz doğma yurdundan zorla qovulub çıxarılanda, qaçqın və məcburi köçkün vəziyyətinə düşəndə USAID-dən heç bir səs-səmir çıxmırdı. Üstəlik, həmin dövrdə – 1992-ci ildə ABŞ Konqresi tərəfindən "Azadlığa dəstək aktı"na edilən 907-ci düzəliş Azərbaycana ABŞ-nin birbaşa dövlət yardımını qadağan etmişdi. Erməni lobbisinin təşəbbüsü ilə qəbul edilmiş bu qadağa ərazisi işğal olunmuş, böyük humanitar fəlakətlə üzləşmiş Azərbaycanı ABŞ hökumətindən birbaşa yardım almayan yeganə postsovet dövlətinə çevirmişdir. Halbuki, məcburi köçkünlərin üzləşdikləri humanitar böhranın aradan qaldırılması USAID-in elan etdiyi birbaşa məqsədlər sırasındadır. Həmin dövrdə Azərbaycana yardım etməyən təşkilat indi Ermənistana hərtərəfli qayğı göstərməklə onu açıq-aşkar revanşizmə sürükləyir.

Məsələ ilə bağlı "XQ"yə şərh verən **politoloq İlyas Hüseynov** bildirdi ki,



USAID-in Ermənistan ərazisində belə fəallaşması təsadüfi deyil. Onun sözlərinə görə, əvvəlcə Avropa İttifaqının mülki adlanan missiyası Hayastanda yerləşdi, sonra Ermənistan–Aİ–ABŞ yüksək səviyyəli görüşü keçirildi. Bundan sonra Qərblə Ermənistan arasında miqyası böyük olan proseslər cərəyan etməyə başladı: "Eyni zamanda, Avropa Sülh Fondu Ermənistana 10 milyon avro vəsait ayırır. Bütün bunlar regionda gərginliyin artırılmasına, Ermənistanın revanşist iddialarının daha da möhkəmlənməsinə xidmət edir".

İ.Hüseynov qeyd etdi ki, biz təşkilatın rəhbərinin Azərbaycana qərəzli mövqedən yanaşmasının dəfələrlə şahidi olmuşuq. Xanım Pauer uzun müddətdir ki, quruma başçılıq edir. S.Pauer həm də bölgədə "rəngli inqilablar", çevrilişlər, üsyanlar, böhranlar və fəlakətlər axtarışında olanların təmsilçisidir. Ancaq onun bu istəyi çin olmayacaq. Azərbaycan Ermənistanla döyüş meydanında Zəfər çalıb, eyni zamanda, daxildə sabitliyi pozmağa yönəlmiş bir çox təxribatları neytrallaşdırmağı bacarıb. Müxtəlif sınaqlardan alnıaçıq, üzüağ çıxıb. Yenidən xam xəyallara düşənlər, o cümlədən USAID və onun direktoru əvvəlki illərin təcrübəsini unutmamalıdırlar.

*Səxavət HƏMİD*
*XQ*

# "Şvabeizm"

## *Yaxud Avropa demokratiyasına düşən növbəti ləkə*

**Azərbaycana və Türkiyəyə qarşı düşmən mövqeyi ilə seçilən Frank Şvabe yenidən "fəallaşıb". "Korrupsion Seele" (korrupsiya ruhu) ləqəbi ilə tanınan və Almaniyanı Avropa Şurası Parlament Assambleyasında təmsil edən parlamentari köhnə mərəzindən əl çəkmək fikrində deyil. Əminik ki, bu qatı ermənipərəstin yuyulmamış qaşıq kimi ortaya düşməsinin səbəbi təkcə Azərbaycanda deyil, elə Avropanın özündə də hər kəsə yaxşı məlumdur. Ölkəmizdə bu ilin noyabrında keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransı (COP29) yaxınlaşdıqca təkcə M.Şvabenin yox, eyni zamanda, digər ona bənzərlərin daha rəngarəng həyasızlıq üsullarına əl atacaqları şübhəsizdir. Belə hallara öyrəncəliyik. Ancaq...**



Bəli, M.Şvabe Azərbaycanın COP29-a evsahibliyini gözdən salmağa çalışır və bu səbəbdən hədyanlarını sıralamağa davam edir. Əslində, cənab "Korrupsion Seele" erməni lobbi və diaspor təşkilatlarından aldığı maliyyələrdən ruhlanıb hərəkətə keçərkən, heç də yenilik etmir. Ölkəmizdə reallaşmış "Eurovision" müsabiqəsi, Avropa Oyunları, İslam Oyunları, "Formula-1" yarışları ərəfəsində eyni tendensiyanın müşahidə olunduğunu, ənənəvi ittihamların dövriyyəyə buraxıldığını görmüşük. Məsələyə mövcud prizmadan yanaşsaq, Şvabenin etdikləri köhnə şparqalkaların yenidən üzə çıxarılmasından başqa bir şey deyil. Axı onun özü də mahiyyətcə köhnə adamdır, böyük fiqurların əlindəki kiçik peşkadır. İndi bu peşka çalışır ki, COP29 müstəvisində Azərbaycana qarşı beynəlxalq aləmdə antipatiya yaransın.

F.Şvabe Qərb dairələrinin leksikonunda siyasi dəyənəyə çevrilmiş "insan haqları", "demokratiya", "siyasi məhbuslar" kimi ifadələri əldə bayraq edərək, ölkəmizə qarşı hücuma keçir. Görünür, Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin səs hüququndan məhrum edilməsi istiqamətindəki "fəaliyyəti" ağalarının ona böyük məbləğdə sərmayə yatırımlarına səbəb olub. O da bundan ruhlanaraq, ölkəmizin rəhbərliyinə "siyasi məhbusları" azadlığa buraxmaq çağırışı ünvanlayıb. Beləsinə necə başa salasan ki, Azərbaycanda siyasi məhbus yoxdur? Axı danışdıqları yalanlara inanacaq qədər miskin və rəzil təbiətə malikdir.

Rəzilliyin və miskinliyin nəticəsidir ki, Qərbin anti-Azərbaycan dairələrinin dəstəklədiyi yerli şəbəkə "Abzas Media", "Toplum TV" və sair bu sayaq media qurumlarının ifşası qıcıq doğurur. Heç şübhəsiz, qıcıq dünyadakı ikili standartlar siyasətinin təzahürüdür. Şvabe həmin siyasəti reallaşdıranların əlindəki sərsəmlik alətidir. Bu adam fikir bildirərkən nəinki beynəlxalq hüquq prinsiplərini heçə sayır, adi etik qaydalara riayət etmir. Yada salaq ki, həmişə insan hüquqları sahəsində manipulyasiyaları ilə yadda qalan alman parlamentari vaxtilə ölkəmizi 44 günlük müharibəyə görə də qınamış, habelə Azərbaycanı işğalçı kimi təqdim edənlərin cəbhəsində yer almışdı.

Bəli, dünyada ikili standartlar siyasətinin nəticəsidir ki, Ermənistanda baş verən hadisələrlə bağlı Qərb institutları və onların Şvabe kimi maşaları susurlar. Elə götürək, 2019-cu ildə ölkə həbsxanasında müxalifyönlü jurnalistin aclıq aksiyası keçirərək dünyasını dəyişməsini. Söhbət Mher Yegiazaryandan gedir. Başqa müxalif siyasətçi Armen Qriqoryanın 2022-ci ilin iyulunda məhkəmə zalındaca canını tapşırmasını da xatırlayaq. Görəsən, Ermənistan baş naziri Nikol Paşinyanın və komandasının keçmiş hakimiyyətin bir çox fəal funksionerinə qarşı həyata keçirdiyi repressiya siyasəti niyə insan hüquqlarının pozulması kimi dəyərləndirilməyib? Necə dəyərləndirilsin, axı erməni iqtidarı Qərbpərəstdir!

Əlbəttə, saxta "Martin Lüter Kinq"in, yəni M.Şvabenin bu sayaq məqamlara diqqət yetirməsi mümkünsüzdür. Çünki Azərbaycanla bağlı konkret "təlimatları" var. Bu "təlimatların" həyata keçirilməsində əsas meyar abırsızlıq və həyasızlıqdır ki, alman parlamentaridə həmin keyfiyyətlərin hər biri, özü də artıqlaması ilə cəmləşib. Cəmləşib ki, mütəmadi olaraq Qarabağ ermənilərinin hüquqları barədə danışan bu məxluq bir dəfə də olsun, Qarabağdakı keçmiş qondarma rejimin və işğalçı Ermənistanın törətdiyi dağıntılardan, Azərbaycanın mədəni irsinin məhvə məruz qalmasından, azərbaycanlıların öz ata-baba yurdlarına qayıdış hüquqlarının otuz il müddətində tapdalanmasından bir dəfə də söhbət açmayıb.

Ümumən, M.Şvabenin çoxsaylı yaramaz əməllərini yada salmaq mümkündür. Ancaq yazımızda onların hamısını sadalamaq niyyətindən uzağıq. Yalnız bir faktı diqqətə çatdırmaqla fikrimizi tamamlamaq, həm də şvabelərin gerçək mahiyyətini fərqli prizmadan təqdim etmək istərdik.

Deməli, alman parlamentari bir müddət əvvəl BBC-yə müsahibəsində Azərbaycana 7 fevral Prezident seçkiləri məsələsində hədyan yağdırarkən, prosesə Avropa Şurasından müşahidəçilərin dəvət olunmaması üzərində dayanmışdı. ATƏT-in seçki müşahidəçiliyini, bir növ, süngü ilə qarşılayan Şvabenin sözlərindən belə çıxmışdı ki, onun təmsil olunduğu qurumun məqsədi seçkidən maliyyə vəsaiti qazanmaqdır.

Təsəvvür edin, bu həyasız deputat, faktiki olaraq, ATƏT-i Azərbaycan hakimiyyətindən rüşvət almaqda günahlandırmışdı. Daha doğrusu, o, elə danışmışdı ki, sanki ATƏT təmsilçilərinin maddi mənfəət əldə etməsindən, özünün buna müvəffəq ola bilməməsindən narazıdır, durumu ədalətsizlik kimi qiymətləndirir. "ATƏT-in Azərbaycana səfərindən məmnun deyiləm. Çünki bizim razılaşmamız var ki, heç bir ölkənin bizdən bir-birimizə qarşı istifadə etməsinə icazə verməyəcəyik, yəni ya biz birlikdə dəvət olunmalıyıq, ya da heç birimiz o ölkəyə getməyəcəyik", – deyən Şvabenin mahiyyətinin çürüklüyü göz önündədir. Yəqin, elə bu çürük mahiyyətinə görədir ki, "Korrupsion Seele" ləqəbi ilə tanınıb.

Sonda onu da deyək ki, ümumən M.Şvabe və onun kimilərinin mövcudluğu, yəni üzə çıxarılmaları, söz demək, fikir bildirmək imkanı əldə etmələri, onlara hansısa formada tribuna verilməsi, bütövlükdə, demokratiya adına böyük ləkədir və "köhnə qitə"nin aparıcı institutlarının ciddi böhranından xəbər verir. Hesab edirik ki, məsələ barədə Avropada yaxşı-yaxşı düşünməlidirlər. Düşünməli və bilməlidirlər ki, əzmlə ağa qara, qaraya ağ demək potensialına malik siyasi ədəbaz xislətli yalaqların olması qitənin əldə etdiyi bütün mütərəqqi dəyərlərin puça çıxması ilə nəticələnəcək.

*R.ƏVƏZ*
*XQ*

# Zaxarovanın eyhamları – üçtərəfli bəyanat reallığı

**Rusiyanın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova ənənəvi brifinqində Ermənistanın baş naziri Nikol Paşinyanı, necə deyərlər, ağ yuyub, qara sərdi. Əvvəlcə, rusiyalı rəsminin bu ritorikasının konkret səbəblərindən söz açaq.**

Ümumən, rəsmi İrəvanın 44 günlük müharibəyə son qoymuş Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladıqları 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatdan, o cümlədən, bütövlükdə üçtərəfli bəyanatlar sistemindən boyun qaçırdığı məlumdur. 2020-ci ildən ötən müddətdə bununla bağlı tendensiyanın ən müxtəlif formalarını görmüşük. Erməni iqtidarı əvvəl Qarabağda qeyri-qanuni erməni hərbi birləşmələrini saxladı, sonra Laçın dəhlizi məsələsində manipulyasiyalara yol verdi və ilaxır. Siyahını genişləndirmək də olar, amma ehtiyac duymuruq. Ona görə ki, Azərbaycan haqqı olanı əldə edib və bundan sonra da əldə edəcək. İndiki durumda ölkəmiz, obrazlı desək, vəhşi heyvanın başını kəsmiş durumdadır və heç şübhəsiz, bıçağı onun üstündə saxlamayacaq. Ancaq başı bədənindən ayrılmış vəhşinin can verərkən, çapaladığını da görürük.

Ermənistanın son zamanlardakı çapalamaları 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın 9-cu maddəsini yerinə yetirməmək üstündədir. Paşinyanın bir müddət əvvəl keçirdiyi mətbuat konfransında dediklərindən belə nəticə çıxmışdı ki, həmin sənəd Ermənistanın müharibə məğlubu obrazını müəyyənləşdirmir, eyni zamanda, bəyanat Azərbaycana qalib dövlət üstünlüyü vermir.

Nikol bir neçə gün öncəki "Yerevan dialoqu" fonunda çıxış edərkən də mövzuya bir qədər fərqli prizmadan yanaşmış və demişdi ki, üçtərəfli bəyanatın Ermənistan ərazisində təhlükəsizliyin üçüncü qüvvələr və ya ölkə tərəfindən təmin edilməsini nəzərdə tutduğunu təsəvvürə gətirməyə cəhdlər göstərilir və belə hallar yolverilməzdir. Göründüyü kimi, hər iki məsələ bir-birinə çox yaxındır. Paşinyan birinci deyimində Azərbaycanın tələbini, ikinci deyimdə isə Rusiyanın mənafeyini nəzərə almadığını sübuta yetirir. Bunu üçtərəfli bəyanatda öz imzasının olduğunu bilərək edir. İndi Zaxarovanın da dediyi odur ki, imza heç də uşaq oyuncağı deyil.



Bəli, M.Zaxarova vurğulayır ki, Paşinyan üçtərəfli bəyanatın 9-cu bəndini sitat gətirərkən, orada Azərbaycanla Naxçıvan arasında nəqliyyat kommunikasiyalarına nəzarətin Rusiya Federal Təhlükəsizlik Xidmətinin sərhəd qoşunları tərəfindən həyata keçirilməsini nəzərdə tutan hissəyə məhəl qoymur. Bu yerdə həmin 9-cu bənddə yer alan məqamları diqqətə çatdıraq: "Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirirlər. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək".

"Maneəsiz hərəkətin təşkili" ölkəmizin "Azərbaycandan Azərbaycana yol" məntiqi ilə səsləşir. Rəsmi Bakı tələb edir ki, Naxçıvana yolda hansısa sərhəd və gömrük nəzarəti olmasın. Ermənistan isə ərazi bütövlüyü və suverenlik məsələsini bayraq edərək, buna qarşı çıxır. Həmçinin, üçtərəfli bəyanatın "Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir" müddəasını da özünün dövlət prinsiplərinə zidd sayır. Paradoksa diqqət yetirək: Ermənistanın Türkiyə və İranla sərhədlərini rus hərbçiləri qoruyur, indi Nikol və komandası ərazi bütövlüyündən və suverenlikdən dəm vururlar. Bu azmış kimi, ölkəmizi və Rusiyanı qeyri-konstruktivlikdə də qınayırlar.

(ardı 5-ci səhifədə)

# AMEA elmi fəaliyyətin yeni mərhələsində

### I məqalə

***Azərbaycan Milli Elmlər Akademiyası ölkəmizin intellektual potensialının möhkəmlənməsinə çox dəyərli töhfələr vermişdir. Bu gün də Azərbaycan Milli Elmlər Akademiyası ölkəmizin ümumi inkişafında fəal rol oynayır.***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***



### Elm fenomeni və müasir Azərbaycan

Elm Azərbaycan üçün ən aktual mövzulardan biridir. Cəmiyyətin müxtəlif kəsimlərinin bu mövzuda fikir bildirməsi çox lazımlıdır. Elm elə bir sahədir ki, onun haqqında peşəkar səviyyədə və konstruktiv aspektdə fikir söyləməyin əhəmiyyəti böyükdür. Çünki XXI əsr cəmiyyəti üçün elmi fəaliyyətin təşkili, elmi yaradıcılığın nəticələri və onların praktiki tətbiqi strateji mahiyyət daşıyır.

Çox yaxşıdır ki, Azərbaycan cəmiyyətində son illər elm və təhsilə cəmiyyət həssaslıqla yanaşır. Əslində, indiki mərhələdə elmlə təhsili bir-birindən ayırmaq müasir tələblərə uyğun gəlmir. Elmi yaradıcılığın təməli təhsillə qoyulur. Artıq dünyanın elm sahəsində aparıcı mövqe tutan dövlətləri məsələnin məhz bu tərəfinə daha çox diqqət yetirirlər.

Nümunə üçün göstərə bilərik ki, ABŞ, Avropa, Latın Amerikası, Uzaq Şərq ölkələrində hətta azyaşlı məktəblilərdə fənlərarası yaradıcılıq qabiliyyətini xüsusi proqramlar vasitəsilə yaratmaq və inkişaf etdirməyin yollarını axtarırlar. Bu istiqamətdə aparılan tədqiqatlar göstərir ki, təhsil pilləsində fənlərarası sferada yaradıcı gəncləri yetişdirmək mümkündür və bunun üçün xüsusi tədris proqramları hazırlamaq olar. Və bu zaman, məsələn, Uzaq Şərqin təcrübəsi ilə Qərbin təcrübəsi fərqlənə bilər. Konkret olaraq, Sinqapurda, Malayziyada və Vyetnamda aparılan araşdırmalara görə, bu dövlətlərin pedaqoqlarının fənlərarası yaradıcılıq haqqında anlayışları ABŞ, Avropa və Latın Amerikasından fərqlənir. Deməli, hər ölkənin təhsil sistemi özünəməxsus proqramlar hazırlamalıdır.

Bu və buna bənzər gerçəkliklər eyni zamanda, dövlətin elmi müəssisələrinin fəaliyyətində keyfiyyət dəyişikliklərinin edilməsi zərurətini meydana çıxarır. Məlumdur ki, Azərbaycanda, müxtəlif nazirliklərin tərkibində 134 elmi-tədqiqat institutu fəaliyyət göstərir. Ölkənin ali elmi təşkilatı olan AMEA indiki formada humanitar və ictimai elmləri, habelə sosiologiya sahələrini əhatə edir. AMEA-nın tərkibində iki regional elmi bölmə və iki elmi mərkəz fəaliyyət göstərir. Bundan başqa, əgər AMEA-nın tərkibində 11 elmi tədqiqat institutu varsa, Elm və Təhsli Nazirliyi sistemində 27 elmi tədqiqat institutu fəliyyətdədir.

Təbii ki, AMEA elm sahəsində həmişə aparıcı rol oynamışdır və indi də bu davam etməlidir. Fikrimizi təsdiq edən bir neçə nümunə göstərə bilərik.

1993-cü ildə ulu öndər Heydər Əliyev Naxçıvandan Bakıya gələndə ilk görüş yeri kimi AMEA-nı seçdi və Azərbaycan alimləri ilə səmimi müzakirələr apardı. Prezident İlham Əliyev Heydər Əliyevin bu addımının səbəbini AMEA-nın 60 illik yubiley tədbirində belə izah etmişdir. “O görüş rəmzi xarakter daşıyırdı. Çünki Azərbaycan alimləri, ziyalıları ölkəmizin, cəmiyyətimizin elitasıdır. Onların dünyagörüşü, hərəkətləri, fəaliyyəti Azərbaycanın inkişaf dinamikasını, inkişaf perspektivlərini xeyli dərəcədə müəyyən edir”.

Bu fikirlərdə çox mənalar əksini tapmışdır. Birincisi, Azərbaycanda elmin ciddi ənənəsi vardır. İkincisi, Ulu öndər AMEA-nın elmi fəaliyyəti ilə cəmiyyətin elitasının formalaşmasında aparıcı rol oynadığına inanır və güvənirdi. Üçüncüsü, Prezident İlham Əliyev AMEA-nın “Azərbaycanın inkişaf dinamikasını, inkişaf perspektivlərini xeyli dərəcədə müəyyən” etdiyinə əmindir.

Nümunə kimi gətirilən tezislərin fonunda Ulu öndərin aşağıdakı fikri də çox əhəmiyyətlidir: “Hansı iqtisadiyyat olursa-olsun elm inkişaf etməlidir, ötən dövrdə Elmlər Akademiyasının çərçivəsində Azərbaycan elmi çox inkişaf etmişdir”.

Ulu öndərin bu mövqeyini Prezident İlham Əliyev AMEA-nın 70 illik yubileyinə həsr edilmiş ümumi yığıncaqda belə demişdir: “Bu 70 ildə akademiya böyük və uğurlu yol keçmişdir. Azərbaycan Milli Elmlər Akademiyası ölkəmizin intellektual potensialının möhkəmlənməsinə çox dəyərli töhfələr vermişdir. Kadr hazırlığı işinə də dəyərli töhfələr vermişdir. Bu gün də Azərbaycan Milli Elmlər Akademiyası ölkəmizin ümumi inkişafında fəal rol oynayır, alimlər öz elmi araşdırmalarını apararaq ölkəmizin gələcək inkişaf dinamikasını sürətləndirirlər.

Mən çox istəyirəm ki, Azərbaycan alimləri gələcəkdə də ölkəmizin hərtərəfli inkişafında daha fəal rol oynasınlar”.

Gətirilən nümunələrdən və AMEA-nın fəaliyyətinin tarixindən aydındır ki, Azərbaycanda ciddi elm vardır!

Bununla yanaşı, elmlə bağlı məsələnin başqa aktual tərəfi də mövcuddur. Biz əsas olaraq onun üzərində dayanmaq istərdik. Fikrimizi bir neçə qısa və lakonik tezislər vasitəsilə ifadə etmək istərdik.

Birincisi, Azərbaycanda yuxarıda vurğuladığımız kimi, elmlə məşğul olan çox sayda təşkilat vardır. Bu, o deməkdir ki, söhbət ciddi və peşəkar səviyyədə elmdən gedirsə, hər bir elmi təşkilatın məsuliyyətindən danışmaq lazımdır. Bunu nəzərə almadan bir sıra KİV orqanlarında hər hansı elmi təşkilata “Nə işlə məşğuldur?” sualını ünvanlayıb, dərhal da mənfi cavab verməyin adı populizmdir. Yanaşma baxımından isə diletantlıqdır. Həm də elmin yaradıcılıq sahəsi və onun sosial funksiyaya malik sfera olması ilə bağlı müasir təsəvvürlərə malik olmamaq deməkdir.

İkincisi, müasir mərhələdə elm bütün dünyada dövlətçilik, cəmiyyətə və dövlətə xidmətlə bağlı araşdırılır. Elmi fəaliyyətlər həmin istiqamətdə təşkil edilir və yeniləşdirilir. Əsas məqamlardan biri ondan ibarətdir ki, bu zaman konkret dövlətin elmi ənənəsi ciddi nəzərə alınır. Öz ənənəsini inkar edib və ya onun özəlliklərini nəzərə almadan “yeniləşmək həvəsi”nə düşənlər, ümumiyyətlə, qısa müddətdə özləri “düşürlər”.

Üçüncüsü, elm həmişə kollektiv fəaliyyətdir. Həm yaradıcılıq üsulu baxımından, həm də elmi fəaliyyətin təşkili aspektindən belədir. Ölkə miqyasında təşkilati səviyyədə götürdükdə bu, o deməkdir ki, Azərbaycanda elmlə məşğul olan bütün təşkilatların koordinasiyalı fəaliyyəti sayəsində elmdə köklü və ciddi yenilik etmək mümkündür. Onda sual belədir: Azərbaycanda AMEA-dan başqa hansı elmi təşkilat ölkə miqyasında bu məsələni aktuallaşdırıb və konkret hansı addımları atıb? Mən bu suala, təəssüf ki, müsbət cavab verə bilmirəm!

Bu üç tezisin işığında Azərbaycanda elm sahəsində mövcud vəziyyəti və onun perspektivli inkişaf iqtiqamətlərini təhlil edə bilərik.

### Elmin transformasiyası

Əlbəttə, indi “transformasiya” termini dəbdədir. Onu rast gəlinən hər bir sosial, mənəvi, mədəni, iqtisadi, əxlaqi, idarəetmə, ekoloji və s. proseslərə aid edirlər. Lakin onu da bilmək gərəkdir ki, “transformasiya”nı ciddi surətdə hər hansı sahəyə aid edəndə, konkret məzmununu da verməlisən. Yəni danışdığımız sfera üçün “transformasiyanın məzmunu, reallaşma mexanizmi və məqsədi nədir?” sualına mütləq izah lazımdır. O cümlədən, bir alim elmin transformasiyasından danışırsa, mütləqdir ki, nəyi nəzərdə tutduğunu izah etsin. Əks halda, bu nəticəverici olmayan, boş ifadəyə çevrilir.

Müasir anlamda elmin transformasiyası anlayışı beş aspekti özündə birləşdirir. Birinci aspekt elmi yaradıcılığın yeni səviyyəyə yüksəldilməsidir. Bunun da öz növbəsində iki daxili aspekti vardır – nəzəri və praktiki-tətbiqi. Nəzəri olaraq elmi yaradıcılığın transformasiyası (fərz edək ki, burada “transformasiya” dedikdə elmi yaradıcılığın keyfiyyətcə yeni səviyyəyə keçidinin nəzərdə tutulduğunu qəbul edirik, yəni bu tezislə bağlı ümumi konsensusa nail olunmuşdur) alınan nəticələrin çevik surətdə praktiki-tətbiqi reallaşması ilə uyğunluq təşkil edir.

Dünya təcrübəsi göstərir ki, sovet sisteminə daxil olan ölkələrdə praktiki-tətbiqi aspekt zəif inkişaf etmişdir. Hətta bu aspektdə güclü elmi potensiala malik olan Rusiya Tanzaniyadan belə geridə qalır! Deməli, ciddi olaraq elmi yaradıcılığın nəzəri ilə praktiki aspektlərinin uyğunluğuna nail olmaq istəyiriksə, buna təcrübə gərəkdir. Təcrübə də nəzəri modelin və ya konsepsiyanın hazırlanmasından sonra onun praktiki tətbiqini həyata keçirməyi tələb edir. Yəni burada istənilən dövlət üçün sınaq, səhvlər və onların üzərində işləmək təcrübəsinin toplanması mütləqdir. Deməli, birinci aspekt özlüyündə mürəkkəb, sistemli və ierarxik struktur-funksional özəlliyə malik prosesdir.

Elmi transformasiyanın ikinci aspekti təşkilatın struktur-funksional olaraq yeniləşməsi ilə bağlıdır. Bu da öz növbəsində yeni struktur vahidlərinin yaradılmasını və funksional kontekstdə onların təkmilləşməsini tələb edir.

Elmi transformasiyanın üçüncü aspekti bu fəaliyyətin müasir tələblərə uyğun təşkilini nəzərdə tutur. Bu proses mürəkkəb struktur-funksional mahiyyətə malikdir. Konkret olaraq, böyük elmi təşkilat üçün söhbət elmi tədqiqat institutları çərçivəsində yaradıcılıq və elmi fəaliyyət proseslərinin harmoniya şəklində yeniləşməsindən, institutlararası əlaqələrin təşkilinin beynəlxalq təcrübə əsasında yenidən təşkilindən, təşkilatda, ümumiyyətlə, elmi idarəetməni yeniləşdirməkdən, dünyanın müxtəlif elmi mərkəzləri ilə əlaqələrin fərqli səviyyəyə yüksəldilməsindən və alınan biliklərin praktikaya çevik tətbiqi mexanizmlərini formalaşdırmaqdan gedir. Bu da elmi təşkilatın düşünülmüş, əhatəli, sistemli və perspektivli fəaliyyət kursunu hazırlaması deməkdir. Razılaşaq ki, məsələnin bu tərəfi də fəaliyyət birliyi və zaman tələb edir.

Elmi transformasiyanın dördüncü aspekti təşkilat olaraq daxili fəaliyyətə müasir aparıcı elmi təşkilatların fəaliyyət elementlərinin tətbiqini tələb edir. Məsələn, elektron kommunikasiya üsulundan geniş istifadə (nümunə – “elektron akademiya” yaradılması), biliyin saxlanması və kommunikasıyasının elektron üsulundan geniş istifadə (məsələn, “elektron - kitabxana” yaradılması), gənc alimlərin bu proseslərə geniş cəlb edilməsi (məsələn, “Gənc akademiya” yaradılması) və s.

Elmi transformasiyanın beşinci aspekti beynəlxalq elmi əməkdaşlığı müasir tələblər çərçivəsində inkişaf etdirməyi ehtiva edir. Bura dünyanın yüksək reytinqli jurnallarına çıxış, Azərbaycan alimlərinin dərc olunan məqalələrinin müxtəlif beynəlxalq elmi bazalara yerləşdirilməsi, alimlərin müxtəlif elmi proqramların həyata keçirilməsində iştirakının təşkili ilə yanaşı, tanınmış elm adamları ilə təcrübə mübadiləsinin təşkili, xarici elmi qurumlarla əməkdaşlığın inkişafı da daxildir.

Beləliklə, elmin transformasiyası kompleks xarakterli mürəkkəb və mərhələli prosesdir. Onu həyata keçirmək elmi təşkilatdan dərin əsaslandırılmış, konkret məqsədi müəyyənləşmiş və məzmunu ilə feili aspekti uyğunluq təşkil edən yeniləşmə kursunu hazırlamaq tələb olunur. Bəs Azərbaycanda sözdə deyil, əməldə bu istiqamətdə hansı elmi təşkilat davamlı fəaliyyət mərhələsinə keçid etmişdir? Hələlik yalnız Azərbaycan Milli Elmlər Akademiyası!

### Strateji məqsəd

Bəli, AMEA geridönməz formada yeniləşmə prosesini artıq 2 ildir ki, aparır. Burada iki əlamət özünü göstərir. Birincisi, AMEA-ya daxil olan elmi tədqiqat institutları, idarəetmə vahidləri və texniki personal bu prosesi həm aktiv dəstəkləyir, həm də aktiv fəaliyyət göstərir. İkincisi, təəssüf ki, digər elmi təşkilatlar AMEA-da gedən bu prosesə adekvat reaksiya vermirlər. Yəni nə prosesin mahiyyətinə varmaq istəyirlər, nə də təcrübə mübadiləsinə can atırlar. Buna baxmayaraq, AMEA rəhbərliyi yeniləşmə prosesini inamla davam etdirir.

Təşkilatın rəhbərliyi yeniləşmənin strateji məqsədini də dəqiq müəyyən etmişdir. AMEA prezidenti onu lakonik surətdə belə ifadə etmişdir: “Dövlətə sadiqlik ənənələrini yaradıcı şəkildə davam və inkişaf etdirməklə bərabər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müəyyən etdiyi ölkənin strateji inkişaf kursuna xidmət etmək və dövlət tərəfindən müəyyən olunmuş prioritetlər əsasında AMEA-nı yeniləşdirmək!”

Bu strateji məqsədin çətiri altında AMEA-nın elmi yeniləşmə prosesinin hər bir aspekti dəqiq işlənmişdir və 2022-ci ilin oktyabr ayından ardıcıl olaraq əməli fəaliyyətdə onlar həyata keçirilir. Bura yuxarıda elmin transformasiyasının vurğuladığımız bütün aspektləri üzvi surətdə daxildir. Konkret faktlarla bu tezisin əsaslı olduğunu sübut edə bilərik.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Zaxarovanın eyhamları – üçtərəfli bəyanat reallığı

**(əvvəli 4-cü səhifədə)**

Əlqərəz, Zaxarova bildirir ki, əgər Ermənistan rəhbərliyi sözügedən 9-cu bəndə, ümumən, üçtərəfli Bəyanata məhəl qoymursa, yəni adekvat davranmırsa, buyursun, sənəddən rəsmən imtina etsin. Ancaq “Biz belə bir istək eşitməmişik. Nə diplomatik kanallarla, nə də ictimai müstəvidə bu barədə məlumat verilməyib”, – deyən Zaxarova Ermənistanın manipulyasiyaya yol verdiyini də açıqlayıb: “Axı söhbət beynəlxalq hüquqdan, tərəflərin imzaladıqları, mütəmadi olaraq istinad etdikləri sənədlərdən gedir. Nəinki bu sənədlərdən danışır, hətta sitat gətirirlər. Bunları isə sehrli çubuq dalğası ilə deyil, öz töhfəsini verən, yazılanların reallığa çevrilməsi üçün təkcə vaxtını deyil, bəzən həyatını da qurban verən insanlar həyata keçirirlər. Ona görə də mənə elə gəlir ki, sənədlərdən sitat gətirməyə belə qeyri-ciddi, hətta məsuliyyətsiz yanaşmaq olmaz”.

İlk cümləmizdəki “ağ yuyub, qara sərmək” dedikdə Zaxarovanın məhz bu fikirlərini nəzərdə tuturduq. Hesab edirik ki, xanım sözçünün dilə gətirdikləri Paşinyanı uşaq kimi danlamaqdır. Hərçənd, Nikol sırtılmış uşaq kimidir. Onun nəinki bir danlağı, hətta danlaqları adi qarşıladığı məlumdur. Təkcə Paşinyan deyil, bütövlükdə, Ermənistan hazırda möhkəm döyülmüş, çoxsaylı zərbələrə məruz qalmış, ölümdən qurtulduqdan sonra onu döyənə cavab qaytaran, özünü, guya, heç nə olmamış kimi aparana bənzəyir.

İmtinadan söz düşmüşkən isə bildirək ki, Nikol haqqında söz açdığımız mətbuat konfransında ölkəsinin üçtərəfli bəyanatdan imtina etməyəcəyini də bildirmiş və demişdi ki, belə bir qərar Ermənistanın öz öhdəliklərini yerinə yetirmək iqtidarında olmadığı anlamını daşıyar. O, bu məsələ ilə bağlı fikirlərini davam etdirərək, guya, Azərbaycanın və Rusiyanın üçtərəfli bəyanata məhəl qoymadığını vurğulamışdı. Həm döyüləsən, həm döyülmədiyini deyəsən, həm də səni döyənə qarşı çıxasan. Bir atalar misalında deyildiyi kimi, utanmasan oynamağa nə var?

Amma başqa bir atalar misalında deyilir ki, keçinin buynuzu qaşınanda, çobanın çomağına sürtünər. Hazırda Ermənistan əvvəldə bildirdiyimiz kimi, həm başı kəsilmiş vəhşi heyvan durumundadır, həm də zopa istəyən keçinin. Zaxarova isə kifayət qədər diplomatikdir. O, həm ölkəsinin üçtərəfli Bəyanatın ərsəyə gəlməsinə əmək verdiyini, həm də Ermənistanın 44 günlük müharibə dönəmində düşdüyü son dərəcə acınacaqlı durumu xatırladır. Əlbəttə, xanım sözçü başqa məqamlara da diqqət yetirir. Məsələn, deyir ki, hansısa konyuktura naminə əsl mahiyyəti görməməyin cəzasını nəsillər çəkdi və sülh uğrunda mübarizə aparan, müxtəlif vəziyyətlərdə olan, bu və ya digər şəkildə bölgəsi üçün dinc gələcək istəyənlərə hörmət edilməlidir: “Biz müvafiq sənədlərin müddəalarını işlədənlərin həm də regionda sülh və sabitlik naminə səylərinə hörmətlə yanaşmalı, sözlə oynamamalıyıq. Ən başlıcası budur ki, məsuliyyətli siyasətçilər mürəkkəb tarixi proses nəticəsində hazırlanmış sənədlərə qarşı məsuliyyətsiz davranmamalıdırlar”.

Görəsən, M.Zaxarova Paşinyana Ermənistanın 44 günlük müharibədə Azərbaycanın əlindən alanın Rusiya olduğunu daha necə xatırlatmalıdır? Xanım sözçü son günlər keçirdiyi brifinqlərin, demək olar, hamısında bununla bağlı eyhamlar səsləndirir, amma rəsmi İrəvan onun dediklərindən nəinki nəticə çıxarmır, hətta anti-Rusiya və anti-Azərbaycan ritorikasını bir qədər də gücləndirir. Belə getsə, Zaxarova savaş günlərində erməni baş nazirin Prezident Vladimir Putinə davamlı yalvarışlarından da danışmalı olacaq. Başqa çarə yoxdur. Hərçənd, bunun da Paşinyana və komandasının üzvlərinə elə bir təsirinin olmayacağı məlumdur. Necə deyərlər, ilan ulduz görməsə, ölməz.

***Ə.RÜSTƏMOV***
***XQ***

# EPF Koalisiyası Ermənistanın ekoloji cinayətlərini pisləyib



**Dünən Bakıda “Environmental Protection First” Koalisiyasının üzvləri Ermənistanın qanunsuz dağ-mədən sənayesi fəaliyyətinin Azərbaycanın və bütövlükdə, Cənubi Qafqazın ekologiyasını zəhərləməsi ilə bağlı brifinq keçiriblər.**

EPF Koalisiyasının həmtəsisçisi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın sədri Amin Məmmədov bildirib ki, koalisiya 2023-cü ilin yayında ölkədə fəaliyyət göstərən 4 qeyri-hökumət təşkilatının Ermənistanın xarici investorların dəstəyi ilə Azərbaycanın tarixi torpaqları olan Arazdəyən ərazisində metallurgiya zavodunu tikmək barədə bəyanat verməsindən sonra yaradılıb: “Sonra bu sahə üzrə ixtisaslaşmış müstəqil ekspertləri də prosesə cəlb etdik. Mütəmadi olaraq səsləndirdiyimiz etiraz bəyanatları nəticəsində zavodun tikintisinin dayandırılmasına qərar verildi”.

Brifinqdə qeyd edilib ki, 2023-cü ildə “Azərkosmos” Ermənistanın Azərbaycanla şərti sərhədində yerləşən 20-dən çox dağ-mədən sənayesi müəssisəsinin fəaliyyətinin kosmik təsvirləri təqdim edib. Bu təsvirlərdə 1990-cı illərin sonlarından və son 3 ilə yaxın müddətdə həmin ərazilərdəki dəyişiklik, torpaqların vizual təsviri əks olunub. Bununla bağlı Azərbaycanda akkreditasiya olunmuş diplomatik nümayəndələrin iştirakı ilə geniş təqdimat keçirilib.

Azərbaycan vətəndaş cəmiyyətləri tərəfindən fəaliyyətin gücləndirildiyini vurğulayan həmtəsisçi, bu məsələlərin bütün beynəlxalq tribunalarda qaldırıldığını da vurğulayıb. O qeyd edib ki, Ermənistan minalar vasitəsilə də ərazilərimizə kifayət qədər zərbə vurub. Bu da köçkünlərin öz torpaqlarına vaxtında qayıtması imkanlarını məhdudlaşdırır. Ona görə də mina təhlükəsi neytrallaşdırılmalıdır.

Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondunun sədri Sabit Bağırov, EPF Koalisiyasının eksperti Leyla Əliyeva bildiriblər ki, Ermənistan Azərbaycanla ekoloji sahədə tam şəffaf və konstruktiv şəkildə əlaqə qurmalıdır.

***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 398** **Bakı şəhəri, 5 sentyabr 2024-cü il**

***"Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 21 may tarixli 1154-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 21 may tarixli 1154-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 mart tarixli 52 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 3, maddə 209 (Cild I) ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti akt qeydlərində dəyişiklik, bərpa və ləğv qaydalarını müəyyən edən əsas müddəalar"da aşağıdakı dəyişikliklər edilsin:

1.1. 10-2-ci bənddə "maraqlı şəxs müraciət etdikdə ona müvafiq şəhadətnamə və ya arayış verilir" sözləri ", vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya arayış barəsində akt qeydi tərtib edilmiş şəxs, yaxud onun qanuni nümayəndəsi, etibarnamə ilə səlahiyyət verdiyi şəxs, barəsində akt qeydi tərtib edilmiş şəxs öldükdə isə yaxın qohumları müraciət etdikdə verilir" sözləri ilə əvəz edilsin.

1.2. 21-ci bənddə "və maraqlı şəxs müraciət etdikdə ona müvafiq şəhadətnamə və ya arayış verilir" sözləri ", vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya arayış barəsində akt qeydi tərtib edilmiş şəxs, yaxud onun qanuni nümayəndəsi, etibarnamə ilə səlahiyyət verdiyi şəxs, barəsində akt qeydi tərtib edilmiş şəxs öldükdə isə yaxın qohumları müraciət etdikdə verilir" sözləri ilə əvəz edilsin.

**2** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 627 (Cild I); 2024, № 1, maddələr 110, 124) ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.12-1-ci bənddə "akt qeydi üzrə" sözləri "vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı haqqında" sözləri ilə əvəz edilsin və həmin bəndə "şəxs" sözündən sonra ", yaxud onun qanuni nümayəndəsi, etibarnamə ilə səlahiyyət verdiyi şəxs, barəsində akt qeydi tərtib edilmiş şəxs öldükdə isə yaxın qohumları" sözləri əlavə edilsin;

2.2. 3.2-ci bəndin birinci abzasında "şəxsən yazılı ərizə verirlər" sözləri "ərizə ilə müraciət edirlər" sözləri ilə əvəz edilsin;

2.3. 5.8-3-cü bənd ləğv edilsin;

2.4. 5.9-cu bənddən "həm ər ilə arvadın hər ikisinin, həm də onlardan birinin ərizəsi üzrə" sözləri çıxarılsın;

2.5. 5.9.1-ci yarımbəndin birinci cümləsinə "nikahın pozulmasını" sözlərindən sonra "Azərbaycan Respublikası Ailə Məcəlləsinin 23.3-cü maddəsinə uyğun olaraq "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə daxil olmuş məhkəmə qətnaməsindən çıxarışa əsasən, habelə" sözləri əlavə edilsin;

2.6. 5.9.4-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"5.9.4. məhkəmənin qətnaməsinə əsasən nikahın pozulma-sının qeydiyyatı üçün birinci müraciət etmiş ərin (arvadın) ərizəsinə nikahın pozulması barədə məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsindən çıxarış əlavə edilməlidir;";

2.7. aşağıdakı məzmunda 5.9.4-1-ci yarımbənd əlavə edilsin:

"5.9.4-1. nikahın pozulması haqqında məhkəmə qətnaməsində dövlət rüsumunu tərəflərdən hansının ödəməli olduğu göstərilmədikdə nikahın pozulmasının qeydə alınması (qeydiyyat "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə daxil olmuş məhkəmə qətnaməsindən çıxarışa əsasən aparıldıqda şəhadət-namənin verilməsi) haqqında ərizə ilə birinci müraciət etmiş tərəf həmin ərizəyə dövlət rüsumunun ödənilməsi barədə sənəd əlavə etməlidir. Nikahın pozulmasının qeydə alınması (qeydiyyat "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə daxil olmuş məhkəmə qətnaməsindən çıxarışa əsasən aparıldıqda şəhadətnamənin verilməsi) üçün ikinci müraciət etmiş tərəfdən dövlət rüsumunun ödənilməsi barədə sənəd tələb olunmur;";

2.8. 5.9.5-ci yarımbəndə "nikahın pozulması" sözlərindən sonra "Azərbaycan Respublikası Ailə Məcəlləsinin 23.3-cü maddəsinə uyğun olaraq "Elektron məhkəmə" informasiya sistemindən Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin informasiya sisteminə nikahın pozulması barədə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsindən çıxarış daxil olduqda, habelə" sözləri əlavə edilsin;

2.9. 5.12-ci bəndin birinci cümləsinə "qeydə alınması" sözlərindən sonra "(qeydiyyat Azərbaycan Respublikası Ailə Məcəlləsinin 23.3-cü maddəsinə uyğun olaraq "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə daxil olmuş məhkəmə qətnaməsindən çıxarışa əsasən aparıldıqda şəhadətnamənin verilməsi)" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 399** **Bakı şəhəri, 5 sentyabr 2024-cü il**

***"Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" və "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 23 fevral tarixli 1099-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" və "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 23 fevral tarixli 1099-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli 75 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 4, maddə 365 (Cild I); 2024, № 3, maddə 315) ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin dövlət standartı və proqramı"nın 2.1-ci bəndinin yeddinci abzası səkkizinci abzas hesab edilsin və aşağıdakı məzmunda yeddinci abzas əlavə edilsin:

"tədris olunan müvafiq fənlərin məzmununa qarşılıqlı hörmət, qarşılıqlı yardım, mübahisələrin qeyri-zorakı yollarla həlli, gender bərabərliyi və şəxsiyyətlərarası münasibətlərə dair mövzular daxil etmək;".

**2** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli 76 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 4, maddə 366 (Cild I); 2024, № 3, maddə 315) ilə təsdiq edilmiş "Orta ixtisas təhsili pilləsinin dövlət standartı və proqramı"nın 2.1-ci bəndinin yeddinci abzası səkkizinci abzas hesab edilsin və aşağıdakı məzmunda yeddinci abzas əlavə edilsin:

"tədris olunan müvafiq fənlərin məzmununa qarşılıqlı hörmət, qarşılıqlı yardım, mübahisələrin qeyri-zorakı yollarla həlli, gender bərabərliyi və şəxsiyyətlərarası münasibətlərə dair mövzular daxil etmək;".

**3** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 mart tarixli 85 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 519 (Cild I) ilə təsdiq edilmiş "Peşə təhsilinin dövlət standartları"na aşağıdakı məzmunda 2.9-cu bənd əlavə edilsin:

"2.9. Peşə təhsili pilləsində tədris olunan müvafiq fənn və modulların məzmununa qarşılıqlı hörmət, qarşılıqlı yardım, mübahisələrin qeyri-zorakı yollarla həlli, gender bərabərliyi və şəxsiyyətlərarası münasibətlərə dair mövzular daxil edilir.".

**4** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 sentyabr tarixli 361 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddə 1233 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları"na aşağıdakı məzmunda 2.4-cü bənd əlavə edilsin:

"2.4. Ümumi təhsil pilləsində tədris olunan müvafiq fənn və dərsdənkənar məşğələlərin məzmununa təhsilalanların yaş xüsusiyyətləri nəzərə alınmaqla, qarşılıqlı hörmət, qarşılıqlı yardım, mübahisələrin qeyri-zorakı yollarla həlli, gender bərabərliyi və şəxsiyyətlərarası münasibətlərə dair mövzular daxil edilir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 400** **Bakı şəhəri, 6 sentyabr 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 9, maddə 869 (Cild I); 2024, № 1, maddə 80, № 3, maddə 307, № 4, maddə 450, № 5 (II kitab), maddə 585; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 17 iyul tarixli 341 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 35-ci hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 401** **Bakı şəhəri, 6 sentyabr 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 28 sentyabr tarixli 346 nömrəli Qərarı ilə təsdiq edilmiş "Aktiv istehlakçının dəstəklənməsi mexanizminin tətbiqi Qaydaları"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin "Sahibkarların mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi ilə təchizatı prosedurunun sadələşdirilməsi haqqında" 2017-ci il 4 aprel tarixli 1313 nömrəli və "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin kommunal xidmətlərə qoşulma proseslərinin daha da sadələşdirilməsi haqqında" 2018-ci il 25 dekabr tarixli 434 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 iyun tarixli 79 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 28 sentyabr tarixli 346 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 9, maddə 1367 (Cild I); 2024, № 3, maddə 312) ilə təsdiq edilmiş "Aktiv istehlakçının dəstəklənməsi mexanizminin tətbiqi Qaydaları"nın 3.2-ci və 3.3-cü bəndləri aşağıdakı redaksiyada verilsin:

"3.2. Aktiv istehlakçıların tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 3 noyabr tarixli 399 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması Qaydası" ilə tənzimlənir.

3.3. Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma xidmətinə görə ödənişin məbləği Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası tərəfindən təsdiq edilir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 402** **Bakı şəhəri, 6 sentyabr 2024-cü il**

***Vergi orqanlarının vəzifəli şəxsləri üçün elmi dərəcəyə görə əlavələrin miqdarının müəyyən edilməsi haqqında***

"Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 19 aprel tarixli 1132-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 20 may tarixli 65 nömrəli Fərmanının 2.1.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Vergi orqanlarında çalışan elmlər doktoru elmi dərəcəsi olan vəzifəli şəxslərə 50 manat (bilavasitə ixtisası üzrə çalışanlara 100 manat), fəlsəfə doktoru (elmlər namizədi) elmi dərəcəsi olan vəzifəli şəxslərə 30 manat (bilavasitə ixtisası üzrə çalışanlara 60 manat) miqdarında vəzifə maaşlarına əlavələr müəyyən edilsin.

**2** Bu Qərarın 1-ci hissəsində qeyd olunan maliyyələşdirmə məsələləri Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə dövlət büdcəsindən ayrılmış vəsait hesabına ödənilsin.

**3** Bu Qərar 2024-cü il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 403** **Bakı şəhəri, 6 sentyabr 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 7 dekabr tarixli 386 nömrəli Qərarı ilə təsdiq edilmiş "ASAN müraciət" informasiya sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" 2024-cü il 1 aprel tarixli 25 nömrəli və "Azərbaycan Respublikası Prezidentinin "Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin siyahısı"nın təsdiq edilməsi haqqında" 2020-ci il 30 iyul tarixli 1119 nömrəli, "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin yaradılması haqqında" 2021-ci il 22 iyun tarixli 1375 nömrəli, "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" 2022-ci il 21 iyul tarixli 1756 nömrəli, "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" 2022-ci il 21 iyul tarixli 1757 nömrəli, "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" 2023-cü il 26 may tarixli 2151 nömrəli və "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1028-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" 2023-cü il 26 dekabr tarixli 2424 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" 2024-cü il 1 aprel tarixli 26 nömrəli fərmanlarının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 7 dekabr tarixli 386 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1511 (Cild I); 2024, № 2, maddə 229) ilə təsdiq edilmiş "ASAN müraciət" informasiya sistemi haqqında Əsasnamə"yə əlavə – "ASAN müraciət" informasiya sisteminin fəaliyyətində iştirak edən qurumların Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

**1** 11-ci hissədə "Qarabağ İqtisadi Rayonunda" sözləri "Ağdam, Füzuli və Xocavənd rayonlarında" sözləri ilə əvəz edilsin.

**2** 12-ci hissədə "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı" sözləri "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında" sözləri ilə əvəz edilsin.

**3** 13-cü hissədə "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı" sözləri "Laçın rayonunda" sözləri ilə əvəz edilsin.

**4** Aşağıdakı məzmunda 15-ci hissə əlavə edilsin:

| | |
|---|---|
| 15. | Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 405** **Bakı şəhəri, 6 sentyabr 2024-cü il**

***"Ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25 iyun tarixli 120 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 10 fevral tarixli 220 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25 iyun tarixli 120 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 564 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 3 avqust tarixli 374 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

**1** Həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə – "Ayrı-ayrı ixtisaslar üzrə dövlət sifarişi ilə ali təhsil müəssisələrinin bakalavriat və əsas (baza ali) tibb təhsili səviyyələrində hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı" yeni redaksiyada verilsin (əlavə olunur).

**2** Həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə – "Ayrı-ayrı ixtisaslar üzrə dövlət sifarişi ilə ali təhsil müəssisələrinin magistratura və rezidentura səviyyələrində hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı" yeni redaksiyada verilsin (əlavə olunur).

**3** Həmin Qərarla təsdiq edilmiş 4 nömrəli əlavə – "Ayrı-ayrı elm sahələri üzrə dövlət sifarişi ilə ali təhsil müəssisələrinin doktorantura (dissertantlıq istisna olmaqla) səviyyəsində hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı" yeni redaksiyada verilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 407** **Bakı şəhəri, 6 sentyabr 2024-cü il**

***"Gömrük orqanlarının vəzifəli şəxslərinin və onların ailəsinin yeni qulluq yerinə köçməsi, habelə əmlakının daşınması xərclərinin və birdəfəlik kompensasiyanın ödənilməsi Qaydası"nın və "Gömrük orqanlarında qulluq yerinin dəyişdirilməsi ilə əlaqədar yaşayış yeri olmayan və bu səbəbdən kirayə götürülmüş mənzildə yaşayan gömrük orqanlarının vəzifəli şəxslərinə və onların ailə üzvlərinə mənzil kirayəsi üçün pul kompensasiyasının ödənilməsi Qaydası və məbləği"nin təsdiq edilməsi haqqında***

"Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 21 may tarixli 1153-VIQD nömrəli Qanununun tətbiqi və "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 243 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 21 iyun tarixli 111 nömrəli Fərmanının 2.1.1-ci və 2.1.2-ci yarımbəndlərinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** "Gömrük orqanlarının vəzifəli şəxslərinin və onların ailəsinin yeni qulluq yerinə köçməsi, habelə əmlakının daşınması xərclərinin və birdəfəlik kompensasiyanın ödənilməsi Qaydası" təsdiq edilsin (1 nömrəli əlavə).

**2** "Gömrük orqanlarında qulluq yerinin dəyişdirilməsi ilə əlaqədar yaşayış yeri olmayan və bu səbəbdən kirayə götürülmüş mənzildə yaşayan gömrük orqanlarının vəzifəli şəxslərinə və onların ailə üzvlərinə mənzil kirayəsi üçün pul kompensasiyasının ödənilməsi Qaydası və məbləği" təsdiq edilsin (2 nömrəli əlavə).

**3** Bu Qərarın 2-ci hissəsi ilə təsdiq edilən Qaydada nəzərdə tutulan maliyyələşdirmə məsələləri Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə Azərbaycan Respublikasının dövlət büdcəsindən ayrılmış vəsait hesabına həyata keçirilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 408** **Bakı şəhəri, 7 sentyabr 2024-cü il**

***"Elmi tədqiqatların maliyyələşdirilməsinin yeni mexanizminin tətbiqi ilə bağlı Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki İqtisadiyyat İnstitutunda 2021–2024-cü illər üzrə pilot layihənin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 3 oktyabr tarixli 375 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Elmi tədqiqatların maliyyələşdirilməsinin yeni mexanizminin tətbiqi ilə bağlı Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki İqtisadiyyat İnstitutunda 2021–2024-cü illər üzrə pilot layihənin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 3 oktyabr tarixli 375 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 10, maddə 1264 (Cild I); 2024, № 2, maddə 208) aşağıdakı dəyişikliklər edilsin:

**1** Adında və 1-ci hissədə "2021–2024-cü" sözləri "2021–2027-ci" sözləri ilə əvəz edilsin.

**2** Həmin Qərarla təsdiq edilmiş "Elmi tədqiqatların maliyyələş-dirilməsinin yeni mexanizminin tətbiqi ilə bağlı Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki İqtisadiyyat İnstitutunda 2021–2024-cü illər üzrə pilot layihənin həyata keçirilməsi Qaydası" üzrə:

2.1. adında "2021–2024-cü" sözləri "2021–2027-ci" sözləri ilə əvəz edilsin;

2.2. 1.1-ci bənddə "Elmi tədqiqatların maliyyələşdirilməsinin yeni mexanizminin tətbiqi ilə bağlı Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki İqtisadiyyat İnstitutunda (bundan sonra – İnstitut) 2021-2024-cü illər üzrə pilot layihənin həyata keçirilməsi Qaydası" (bundan sonra – Qayda)" sözləri "Bu Qayda" sözləri ilə və "İnstitutun" sözü "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki İqtisadiyyat İnstitutunun (bundan sonra – İnstitut)" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# İqtisadi yüksəliş xarici ticarətə geniş meydan açıb

**(əvvəli 1-ci səhifədə)**

Dövlət Statistika Komitəsindən aldığımız məlumata əsasən, Azərbaycan cari ilin yanvar–iyul aylarında 169 ölkə ilə ticarət əməliyyatları həyata keçirib. Bu dövrdə respublikamızın xarici ticarət dövriyyəsi 26 milyard 239 milyon ABŞ dolları təşkil edib. Ticarət dövriyyəsinin 15 milyard 446 milyon dollarını (58,9 faiz) ölkədən ixrac olunmuş məhsulların, 10 milyard 793 milyon dollarını (41,1 faiz) isə idxal məhsullarının dəyəri təşkil edib, nəticədə 4 milyard 653 milyon dollar məbləğində müsbət saldo yaranıb.

Dövlət Gömrük Komitəsinin məlumatlna görə, 2024-cü ilin yanvar–iyul aylarında ölkənin xarici ticarət dövriyyəsinin 23,1 faizi İtaliya, 13,5 faizi Türkiyə, 9,6 faizi Rusiya, 7,3 faizi Çin, 4,3 faizi İsrail, 3,2 faizi Almaniya, 2,7 faizi ABŞ, 2,6 faizi Hindistan, 2,4 faizi Çexiya, 2,2 faizi Avstraliya, hər biri 2 faiz olmaqla Xorvatiya və Birləşmiş Krallıq, hər biri 1,5 faiz olmaqla Portuqaliya və Yunanıstan, hər biri 1,3 faiz olmaqla Gürcüstan, Bolqarıstan və İran, 1,2 faizi Rumıniya, hər biri 1 faiz olmaqla Ukrayna, Tailand və Türkmənistan, hər biri 0,9 faiz olmaqla Belarus və Koreya, 12,2 faizi isə digər ölkələr ilə aparılmış ticarət əməliyyatlarının payına düşüb.

Müsbət göstəricilərin əldə edilməsində özəl sektorun fəaliyyəti xüsusilə fərqlənib. Çünki son illər ölkəmizin ixrac potensialının gücləndirilməsi istiqamətində bir sıra mühüm layihələrin həyata keçirilməsi nəticəsində bu bölmə sürətli inkişaf mərhələsinə daxil olub, sahibkarlığın hüquqi bazası formalaşdırılıb, iqtisadi sərbəstlik diqqət mərkəzində saxlanılıb. Gömrük prosedurlarının sadələşdirilməsi, ticarət maneələrinin azaldılması və tranzit daşımaların optimallaşdırılması kimi mühüm tədbirlər də gerçəkləşdirilib. Eyni zamanda, yüksək keyfiyyətli məhsul istehsalı məqsədilə respublikamıza ən müasir texnika və avadanlıqlar gətirilib. Müəssisələrdə texnoloji proses günün tələbləri səviyyəsində tamamilə yenidən qurulub.



Respublikada Ümumdünya Ticarət Təşkilatının prinsiplərinə ciddi əməl olunması, daxili bazarın qorunması, haqsız rəqabətə qarşı mübarizənin gücləndirilməsi və rəqabətin inkişafı ilə bağlı tədbirlər həyata keçirilməsi, eyni zamanda, istehlak mallarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarətin gücləndirilməsi sahibkarların, eləcə də istehlakçıların mövqelərini gücləndirib. Şübhəsiz ki, standartlaşdırma və metrologiya kimi mühüm sahələrinin beynəlxalq tələblərə uyğunlaşdırılması da milli istehsalçıların xarici bazarlara çıxışını stimullaşdırıb.

Yuxarıdakı göstəricilərin əldə olunmasında, təbii ki, sadalanan amillərlə yanaşı, digər səbəblər də mühüm rol oynayıb. Məsələn, respublikamız "Ümumiləşdirilmiş Preferensiyalar Sistemi+" Proqramına ("GSP+") qoşulandan sonra ixrac potensialı nəzərəçarpacaq dərəcədə güclənib, ixrac mallarının çeşidi artıb. Bu, ölkəmizə Avropa İttifaqı (Aİ) bazarlarına güzəştli şərtlərlə ixrac imkanı yaradıb. Belə bir tədbirin gerçəkləşdirilməsi həm də ixrac potensialının genişləndirilməsinə və ixrac strukturunun diversifikasiyasına önəmli təsir göstərib. Bütün bunlarla bərabər, ixrac potensialının güclənməsini son illər Vergi Məcəlləsinə edilən düzəlişlər, sənaye məhəllələrinin, texnoparkların, azad iqtisadi zonaların genişləndirilməsi də sürətləndirib.

Azərbaycanın ixrac potensialının gücləndirilməsindən danışarkən bir məqamı da xatırladaq. Qeyd edək ki, biznes ekomühitinin yaxşılaşdırılmasının mühüm qolu iqtisadiyyatın gömrük-vergi tənzimlənməsi sisteminin təkmilləşdirilməsidir. Bu baxımdan ölkəmizdə investisiya mühitinin cəlbediciliyinin artırılması üçün müəyyən layihələrin gerçəkləşdirilməsi ümumi prosesə təkan verir. Bu gün yerli istehsalatda istifadə olunan 300-ə yaxın aralıq malın idxal rüsumundan azad edilməsi yerli istehsalın maya dəyərinin azaldılmasına, yerli malların xarici bazarlarda rəqabət qabiliyyətinin artırılmasına müsbət təsir göstərməsi də deyilən fikrin bariz ifadəsidir.

Hazırda da bu proses davam edir. Belə ki, ixracda hesablaşma qaydalarının təkmilləşdirilməsi, yerli istehsalda xammal ehtiyacının ödənilməsi, əhalinin idxaldan asılı olan bir sıra zəruri istehlak malları ilə etibarlı təminatı məqsədilə tətbiq olunan tarif tədbirləri, o cümlədən güzəşt müddətlərinin uzadılması istiqamətində qanunvericilik layihələri hazırlanaraq aidiyyəti dövlət orqanları ilə müzakirə olunur.

Yeri gəlmişkən, ölkədə ixrac potensialının gücləndirilməsi Prezident İlham Əliyevin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də də qarşıya mühüm vəzifə kimi qoyulub. Belə bir vəzifənin gerçəkləşdirilməsinin əsas şərti kimi davamlı və yüksək iqtisadi artıma nail olunması göstərilib.

Buna görə də Milli Prioritetlərə əsaslanaraq hazırda milli iqtisadiyyat şaxələndirilir, mallar və xidmətlər üzrə ixrac potensialının tam reallaşdırılması üçün qeyri-neft iqtisadiyyatının inkişafı diqqət mərkəzində saxlanılır. İqtisadi artımın qabaqcıl və effektiv özəl təşəbbüslərə söykənməsi, dövlət və özəl əməkdaşlığın gücləndirilməsi istiqamətində layihələr gerçəkləşdirilir. Bütün bunlarla bərabər, yeniliyə meyilli özəl sektorda aktivlik daha da canlandırılır, qeyri-neft sektorunun maliyyələşməsində bu sahənin payı artırılır.

Beləliklə, respublikamızda xarici ticarət dövriyyəsi və ixrac əməliyyatlarının getdikcə genişləndirilməsi ölkələrarası münasibətlərin, iqtisadi əlaqələrin inkişafında mühüm amillərdən biridir. Bununla bağlı rəqəmlərə diqqət yetirəndə həm də aydın görünür ki, ixracın strukturunda qeyri-neft məhsullarının, o cümlədən ərzaq mallarının çəkisi getdikcə artır. Məlumat üçün bildirək ki, son illər ölkəmizdə qeyri–neft sektorunun davamlı inkişafı ilə bağlı reallaşdırılan tədbirlər nəticəsində bu sahədə rəqabətqabiliyyətli məhsulların istehsalı xeyli artıb. Bu gün həmin məhsullara dünya bazarlarında getdikcə böyük maraq yaranır.

Azərbaycan hazırda ayrı-ayrı ölkələrlə ikitərəfli əlaqələrin inkişafına xüsusi önəm verir. Son illərdə bu sahədə müsbət nəticələr əldə edilib, qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi üçün yeni istiqamətlər müəyyənləşdirilib. Prezident İlham Əliyevin xarici dövlətlərə səfərləri, eləcə də Azərbaycanın və tərəfdaş ölkələrin müxtəlif səviyyəli nümayəndə heyətlərinin qarşılıqlı görüşləri bu işə güclü təkan verib.

# Ölkədə 8 aylıq yatırım 11,2 milyard manata yüksəlib



**Cari ilin yanvar–avqust aylarında əsas kapitala 11 milyard 216,9 milyon manat məbləğində, yaxud əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,7 faiz çox investisiya yönəldilib.**

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, qeyri-neft-qaz sektoruna yönəldilən investisiyaların həcmi 3,9 faiz artıb. İstifadə olunmuş investisiyanın 5 milyard 587 milyon manatı və ya 49,8 faizi məhsul istehsalı, 4 milyard 287 milyon manatı (38,2 faizi) xidmət sahələrinə, 1 milyard 343 milyon manatı (12 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunub.

Əsas kapitala yönəldilən investisiyaların 9 milyard 316 milyon manatını və ya 83,1 faizini daxili investisiyalar təşkil edib. İnvestisiyaların 8 milyard 91 milyon manatı və ya 72,1 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub.

Yuxarıda qeyd edilən rəqəmlərdən də göründüyü kimi, ölkəmizdə yaradılan əlverişli biznes və investisiya mühiti iqtisadiyyatın bir çox sahələrində önəmli layihələrin icrasını şərtləndirir. Son bir neçə ildir ki, respublikamızda milli iqtisadiyyatın investisiya cəlbediciliyi baxımından uğurlu islahatlar həyata keçirilir. Dünyanın aparıcı təşkilatlarının hesabatlarında iqtisadiyyatımızın sürətlə inkişaf etdiyi, iqtisadi göstəricilərə görə lider ölkələr sırasına çıxdığı göstərilir. Azərbaycanın yüksək investisiya cəlbediciliyinə malik olması, təbii ki, aparılan islahatlarla bağlıdır.

# AYİB Azərbaycanla əməkdaşlığı genişləndirir

## *Bank dəniz suyunun duzsuzlaşdırılması layihəsində iştirak edəcək*

**İqtisadiyyat Nazirliyindən aldığımız məlumata görə, nazir Mikayıl Cabbarov Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) Türkiyə və Qafqaz üzrə yeni idarəedici direktoru Elizabeta Falçetti ilə görüşündə ölkəmizin bankla müxtəlif istiqamətlər üzrə uğurlu əlaqələri müzakirə edilib.**



Qeyd olunub ki, qarşıya qoyulmuş inkişaf hədəflərinin reallaşdırılması istiqamətində əməkdaşlıq imkanları genişdir. Bu kontekstdə bankla enerji, xüsusilə, bərpaolunan və alternativ enerji, özəl sektorun inkişafı, infrastruktur və digər istiqamətlər üzrə prioritet layihələrin icrası məqsədilə atılacaq addımlar müzakirə edilib. Tərəflər AYİB-in Azərbaycanda dövlət–özəl tərəfdaşlığı, o cümlədən dəniz suyunun duzsuzlaşdırılması layihələrinə, eləcə də COP29 çərçivəsində bank ekspertlərinin iştirakı məsələlərinə dair fikir mübadiləsi aparıblar.

Xatırladaq ki, Bakı şəhərinin və ətraf ərazilərin su təminatının yaxşılaşdırılması üçün dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində ölkəmizdə pilot layihə həyata keçirilməsi qərara alınıb. Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən, bu layihənin icrası ilə əlaqədar Nazirlər Kabinetinə, eləcə də aidiyyəti dövlət qurumlarına zəruri tədbirlər görülməsi tapşırılıb.

Dövlətimizin başçısının dəniz suyunun duzsuzlaşdırılması ilə bağlı imzaladığı sərəncam əhalinin suya olan tələbatının ödənilməsinin, hər zaman olduğu kimi, yenə də diqqət mərkəzində saxlanmasından xəbər verir. Ölkə rəhbərinin alternativ su mənbələrinin işlənilməsi, o cümlədən dəniz suyunun şirinləşdirilməsi ilə bağlı imzaladığı sənədlər, bu sahədə qəbul olunmuş qərarlar ölkədə su qıtlığının aradan qaldırılmasına, əhalinin içməli və suvarma suyuna olan tələbatının ödənilməsinə yönəlib.

# Sənayemizin uğur palitrası

## *İlin əvvəlindən müəssisələrdə 42,4 milyard manatlıq məhsul istehsal olunub*

**Cari ilin yanvar–avqust aylarında Azərbaycanda sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 42,4 milyard manatlıq sənaye məhsulu istehsal edilib. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə ölkədə neft-qaz sektorunda məhsul istehsalı eyni səviyyədə qalsa da, qeyri neft-qaz sektorunda 7,8 faizlik artım qeydə alınıb.**



Hesabat dövründə sənaye məhsulunun 64,4 faizi mədənçıxarma sektorunda, 29,9 faizi emal sektorunda, 4,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,9 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunub.

Bu ilin 8 ayında mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 4,4 faiz azalıb, əmtəəlik qaz istehsalı isə 4,1 faiz artıb.

Yanvar–avqust aylarında emal sektorunun kompüterlərin, elektron və optik məhsulların, əczaçılıq mallarının, elektrik avadanlıqlarının, avtomobil, qoşqu və yarımqoşquların, mebellərin, metallurgiya, kimya sənayesi və neft məhsullarının, rezin və plastik kütlə, habelə hazır metal məmulatlarının, tikinti materiallarının, içkilərin, tütün məmulatlarının, kağız və kartonun, qida məhsullarının, ağacın emalı və ağacdan məmulatların istehsalı sahələrində əhəmiyyətli artım qeydə alınıb. Geyim, dəri və dəri məmulatlarının, ayaqqabıların, toxuculuq sənayesi və poliqrafiya məhsullarının, maşın və avadanlıqların, sair nəqliyyat vasitələrinin istehsalı, eləcə də maşın və avadanlıqların quraşdırılması və təmiri işləri sahələrində isə əksinə, azalma baş verib.

Hesabat dövründə elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, eləcə də su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda da artım qeydə alınıb.

# İqtisadi artım 4 faizi ötüb

**Dövlət Statistika Komitəsindən XQ-yə bildirilib ki, cari ilin yanvar–avqust aylarında ölkədə 80 milyard 960 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,3 faiz çox ümumi daxili məhsul istehsal olunub.**




İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,2 faiz, qeyri-neft-qaz sektorunda isə 7 faiz çoxalıb. ÜDM istehsalının 37,9 faizi sənaye, 9,7 faizi ticarət, 7 faizi nəqliyyat, 6,1 faizi tikinti, 6 faizi kənd təsərrüfatı, 1,8 faizi informasiya və rabitə sahələrinin, 18,9 isə faizi digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 10,1 faizini təşkil edib. Əhalinin hər nəfərinə düşən ÜDM 7 min 941 manata bərabər olub.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***




# Bakı konfransı iqlim dəyişikliyi ilə mübarizəni yeni mərhələyə yüksəldəcək

**(əvvəli 1-ci səhifədə)**

Təsadüfi deyildir ki, Ümumdünya Səhiyyə Təşkilatı son hesabatında 21-ci əsrdə qlobal sağlamlıq üçün ən böyük təhlükə kimi iqlim dəyişikliyini vurğulayıb. Mütəxəssislərin fikrincə, gələcəkdə qlobal istiləşmənin minimuma endirilmə cəhdi uğurlu olsa belə, dəniz səviyyəsinin artması, okean istiliyi və turşuluğunun yüksəlməsi kimi neqativ təsirlərin müəyyən hissəsi əsrlər boyu davam edəcək.

Azərbaycan Respublikası Milli Məclisi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını 1995-ci ildə ratifikasiya edib. Ölkəmiz İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının "Əlavə 1" qrupuna daxil olmayan tam hüquqlu tərəf kimi bu Konvensiya qarşısında istilik effekti yaradan qaz tullantılarının kadastrının hazırlanması, müntəzəm yenilənməsi, milli məlumatların hazırlanması kimi öhdəliklər götürüb və bu vəzifələr sistemli şəkildə yerinə yetirilib.

Azərbaycanda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Kioto Protokolu 2000-ci ildə təsdiqlənib. Kioto protokolu üzrə öhdəliklərin yerinə yetirilməsinin 2-ci dövrü üçün qəbul edilən "Doha əlavəsi" isə 2015-ci il aprelin 14-də Azərbaycan Respublikasının Milli Məclisində ratifikasiya olunaraq ölkə Prezidenti tərəfindən imzalanıb.

BMT-nin 2015-ci ilin sentyabr ayında keçirilən tarixi sammitində dünya liderlərinin qəbul etdikləri "2030-cu ilədək Dayanıqlı İinkişaf sahəsində Gündəlik"də qarşıdakı on beş ildə ölkələrin "heç kəsi kənarda qoymamaq" prinsipinin diqqətdə saxlanılması, sosial-iqtisadi məsələlərlə yanaşı, iqlim dəyişmələrinə qarşı mübarizənin vacibliyi, eləcə də dünya ictimaiyyətinin səfərbər olması kimi məsələlər xüsusi vurğulanıb. Azərbaycan Respublikasında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına əlavə olan Paris İqlim Sazişi 2016-cı il aprelin 22-də imzalanıb və həmin ilin oktyabr ayında ratifikasiya edilib.



Azərbaycan Respublikası 2015-ci ilin oktyabrında Paris İqlim Sazişinin 4-cü maddəsinə əsaslanaraq BMT İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının katibliyinə "Milli səviyyədə Müəyyən edilmiş Töhfələr" sənədini təqdim edib və qlobal miqyasda iqlim dəyişmələrinin qarşısının alınması təşəbbüslərinə töhfə olaraq, 1990-cı baza ili ilə müqayisədə 2030-cu ilə qədər istixana effekti yaradan qaz emissiyalarının 35 faiz həcmində azaldılmasını qarşıya mühüm vəzifə kimi qoyub. Respublikamız 2021-ci ildə Qlazqo şəhərində keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 26-cı sessiyasında (COP26) isə 2050-ci ilə qədər isə qaz emissiyalarının 40 faiz azaldılması qərarını verib.

Yeri gəlmişkən, Paris İqlim Sazişi iqlim dəyişikliyinə qarşı qlobal mübarizənin əsas hüquqi çərçivəsini təşkil edir. Sazişin əsas məqsədi, qlobal istiləşmənin sənayedən əvvəlki səviyyədən 2 dərəcədən çox artmasının qarşısını almaq və həmin artımı 1,5 dərəcə ilə məhdudlaşdırmaqdır. Bunun üçün ölkələr öz milli iqlim planlarını hazırlayır və həmin planlar çərçivəsində istixana qazı emissiyalarını azaltmaq, enerji səmərəliliyini artırmaq, bərpaolunan enerji mənbələrinə keçidi gerçəkləşdirmək və meşəlik əraziləri qorumaq üzrə öhdəliklər götürürlər.

Paris İqlim Sazişi inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında məsuliyyətin bölüşdürülməsi məsələsinə xüsusi diqqət yetirir. Saziş hər bir ölkənin iqlim dəyişikliyinə töhfəsini və onu azaltmaq üçün fərqli imkanlarını nəzərə alaraq ədalətli keçidin reallaşdırılmasını tələb edir. İnkişaf etmiş ölkələr maliyyə və texnologiya sahələrində inkişaf etməkdə olan ölkələrə dəstək verməyə prioritet məsələ kimi yanaşırlar.

Sazişin uğurla həyata keçirilməsi üçün bir neçə əsas strategiya var. Burada, ilk növbədə, istixana qazı emissiyalarının azaldılması və karbon neytrallığının təmin edilməsi prioritetdir. Bununla yanaşı, bərpaolunan enerji mənbələrinin istifadəsinin artırılması və enerji səmərəliliyinin təkmilləşdirilməsi vacibdir. Eyni zamanda, karbon tutulması və saxlanması texnologiyalarının inkişaf etdirilməsi, meşəlik ərazilərin qorunması və yenidən meşələndirilməsi layihələri də mühüm önəm daşıyır.

2100-cü ilədək qlobal temperaturun 2 dərəcədə saxlanılması iqlim dəyişikliyi ilə mübarizədə dünya ictimaiyyətinin əsas hədəfidir. Paris İqlim Sazişi həmin məqsədin reallaşdırılması üçün qlobal səviyyədə ortaq fəaliyyətlərin həyata keçirilməsini təmin edir.

İqlim dəyişikliyi ilə mübarizədə uğur qazanılması yalnız müəyyən strategiyaların səmərəli şəkildə həyata keçirilməsi və bütün ölkələrin ədalətli və bərabər şəkildə məsuliyyət götürməsi ilə mümkün olacaq. Bu məqsədə çatdıqda bəşəriyyət daha sağlam, davamlı və təhlükəsiz bir gələcək qura biləcək. Respublikamız da həmin sahədə böyük irəliləyiş əldə edib. Günəş, külək enerjisi sahəsindəki layihələrin həyata keçirilməsi bunun bariz nümunəsidir.

Qeyd edək ki, 1990–2022-ci illər üzrə aparılan araşdırmalara əsasən, Azərbaycan 2022-ci ildə baza ili (1990) ilə müqayisədə (udulmalarla) 34,2 faiz atılmaların azaldılmasına nail olub. Bu, ölkədə ətraf mühitin yaxşılaşmasında müasir texnologiyalardan istifadə edilməsi, tükənməyən enerji mənbələrindən istifadənin genişləndirilməsi, istilik elektrik stansiyalarında mazutdan daha təmiz yanacaq olan təbii qaza keçilməsi, məişət tullantılarının idarəsinin təkmilləşdirilməsi, müasir avtomobil yollarının çəkilməsi, aqroparkların yaradılması, yeni meşə massivlərinin salınması, az karbonlu enerji səmərəliliyinin gerçəkləşdirilməsi istiqamətində atılan addımlarla reallaşıb.

Bütün bunlarla bərabər, "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində "İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış" adlı 4-cü və "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" adlı 5-ci istiqamətlərin reallaşdırılması çərçivəsində hazırda 30 illik işğaldan azad edilmiş ərazilərimizdə infrastrukturun bərpası və SMART infrastrukturun formalaşdırılması kimi layihələr həyata keçirilir. Belə ki, hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında "yaşıl enerji" zonasının yaradılması, "ağıllı" şəhər və kənd təşəbbüsləri uğurla gerçəkləşdirilir.

Xatırladaq ki, hazırda iqlim dəyişmələri ilə mübarizədə həm institusional, həm də qanunvericilik sahəsində bir sıra mühüm tədbirlərin həyata keçirilməsi diqqətdə saxlanılır. Bundan əlavə, İqlim Dəyişmələri üzrə Dövlət Komissiyasının müvafiq qərarı əsasında "Az karbonlu inkişaf üzrə Milli Strategiya", "Milli Adaptasiya Planı" və digər önəmli sənədlər hazırlanır.

## Elektromobillərin sayı sürətlə artır

**Hazırda dünyanın əksər ölkələrində olduğu kimi, Azərbaycanda da elektriklə işləyən nəqliyyat vasitələrinə maraq getdikcə artır. Bu səbəbdən də ölkəmizdə elektromobillərdən istifadənin genişləndirilməsi istiqamətində mühüm addımlar atılır.**

Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də də ekoloji cəhətdən təmiz nəqliyyat vasitələrinin təşviqini gücləndirmək üçün bir sıra tədbirlər nəzərdə tutulur.

Bununla yanaşı, 2024-cü il martın 7-də isə dövlət başçısı "Elektrik mühərrikli nəqliyyat vasitələrindən istifadənin təşviq edilməsi haqqında" sərəncam imzalayıb. Sözügedən sənədə əsasən, hökumətə bir ay ərzində elektrik şarj stansiyalarının yerləşdirilməsi və quraşdırılması yerlərini müəyyən etmək tapşırılıb.

Son illərdə hökumətin gerçəkləşdirdiyi bir sıra dəstək mexanizmləri elektromobil həvəskarlarının saayının artmasına səbəb olur. Dövlət Gömrük Komitəsinin məlumatına görə, 2017-ci ildə ölkəyə 88 elektromobil idxal olunmuşdursa, sonrakı illərdə onların sayı kəskin artaraq 2023-cü ildə 3 min 102-yə çatıb. Bütövlükdə, 2017-2023-cü illərdə Azərbaycana 4 min 236 elektrik mühərrikli nəqliyyat vasitəsi idxal edilib. Bu ilin yanvar-iyul aylarında isə ölkəyə 1792 belə avtomobil gətirilib.



Hazırda ölkəmizdə elektrik mühərrikli avtomobillərin şarj edilməsi üçün enerjidoldurma məntəqələrinin yaradılması da sürətlə davam etdirilir. Artıq Bakıda 4 məntəqədə ("İçərişəhər", "Yasamal 120" yarımstansiyalarının ərazisində, Tədris və İnnovasiylar Mərkəzində, Xəzər rayonunun Buzovna qəsəbəsində) enerjidoldurma cihazları quraşdırılaraq istismara hazır vəziyyətə gətirilib. Bununla yanaşı, Yevlax, Salyan və Qəbələ rayonlarında, eləcə də işğaldan azad olunmuş Füzuli, Cəbrayıl, Zəngilan, Şuşa, Xocavənd və Xocalıda da belə məntəqələr quraşdırılıb.

Bu ilin sonunadək isə ölkə üzrə 147 enerjidoldurma məntəqəsinin quraşdırılması nəzərdə tutulub ki, bunun da 69-u paytaxtın, 58-i regionların, 20-si isə Qarabağ və Şərqi Zəngəzurun payına düşür.

## İqlim problemlərinin həlli yeni maliyyələşmə tələb edir



**BMT-nin Azərbaycandakı daimi koordinatoru Vladanka Andreyeva Bakıdakı Davamlı İnkişaf və İqlim İnnovasiyaları üzrə Beynəlxalq Forumdakı çıxışında qeyd edib ki, əgər biz indi ekosistemə həssas münasibət bəsləməsək, gələcəyimizi də qoruya bilməyəcəyik.**

Diplomat əlavə edib ki, dünya qarşıdan gələn qlobal "Net Zero" hədəfinə çatmaq və təcili iqlim problemlərini həll etmək üçün ən yeni innovasiyalara və maliyyə vasitələrinə ehtiyac duyur. O, emissiyaların azaldılmasının iqtisadiyyatın əsas sahələrində, o cümlədən sənaye, nəqliyyat və tikintidə vacib olduğunu vurğulayıb: "BMT bu məqsədlərə nail olmaq üçün kollektiv səyləri və layihələri dəstəkləyir. İqlim dəyişmələri hamını əhatə edir və təsir göstərir, buna görə də qlobal dialoq və innovativ həllərin tapılması zəruridir".

Xatırladaq ki, Bakıda Böyük Britaniya səfirliyinin, BMT-nin Azərbaycan nümayəndəliyinin, eləcə də "Great Challenge Fund", "John Patterson Events" şirkətlərinin dəstəyi ilə Britaniya Ticarət Palatasının təşkil etdiyi Davamlı İnkişaf və İqlim İnnovasiyaları üzrə Beynəlxalq Forumda da qeyd edilən məsələ diqqət mərkəzində olub.

## Xarici ölkələrdə COP29 müzakirələri



**Azərbaycanın Niderlanddakı səfirliyinin və bu ölkənin iqlim elçisi Xayme de Börbon de Parmenin birgə təşkilatçılığı ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına həsr edilmiş konfrans keçirilib.**

Səfir Rəhman Mustafayev konfransda Bakının evsahibliyi edəcəyi COP29-un prioritetləri, Azərbaycanın təşəbbüsləri və iqlim strategiyası, eləcə də Azərbaycan–Niderland ticarət və investisiya əlaqələrinin genişlənməsi imkanları haqqında geniş təqdimat edib.

Tədbirdə Niderlandın özəl sektorundan 100-ə yaxın nümayəndə, Xarici İşlər, İqlim Siyasəti və Yaşıl İnkişaf, İnfrastruktur və Su İdarəçiliyi nazirliklərinin, Niderland İnkişaf Bankının təmsilçiləri, Niderlandın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasında nümayəndə heyətinin rəhbəri, Niderland–Britaniya Ticarət Palatasının üzvləri iştirak ediblər. Konfransda Niderlandın özəl sektorunun COP29-da iştirak imkanları və prioritetləri müzakirə olunub. Konfrans fikir mübadiləsi ilə davam edib.

*

**Dünən COP28 Birləşmiş Ərəb Əmirlikləri, COP29 Azərbaycan və COP30 Braziliya sədrliklərinin mədəniyyət nazirləri Rusiyanın Sankt-Peterburq şəhərində üçtərəfli görüş keçiriblər.**

Azərbaycanın mədəniyyət naziri Adil Kərimli, BƏƏ-nin mədəniyyət naziri Səlim bin Xalid əl-Qassimi və Braziliyanın mədəniyyət naziri Marqaret Menezes COP29 çərçivəsində keçiriləcək mədəniyyət nazirlərinin İkinci Yüksək Səviyyəli Görüşünün proqram və formatını müəyyən ediblər.

Bildirilib ki, Şarm Əl-Şeyxdə keçirilmiş COP27 tədbirindən bəri beynəlxalq gündəlikdə mədəniyyətin iqlim fəaliyyətindəki rolu aktuallıq qazanmağa başlayıb. Azərbaycan da öz növbəsində bu məsələni hər zaman xüsusi diqqətdə saxlayıb və qlobal səviyyədə müzakirə olunması istiqamətində davamlı işlər aparmaqdadır. Bu il mayın 1-dən 3-dək Bakıda keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu zamanı dünyanın aparıcı iqlim və irs üzrə ekspertlərinin iştirakı ilə bu mövzuya xüsusi plenar sessiya həsr edilib.

COP29 tədbirinin hazırlıq işləri ilə də tanış olan Braziliya və BƏƏ-nın mədəniyyət nazirləri hazırlıq işlərini yüksək qiymətləndiriblər.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Saxta ehtiyat hissələr avtomobilləri qəzalara aparır

## *Bu cinayətkar fəaliyyət sürücülərə ziyan vurur, cəmiyyətə itki, ölüm gətirir*

**Ölkəmizdə avtomobillərin sayı çoxaldıqca yeni ehtiyat hissələrinə də tələbat artır. Bundan sui-istifadə edən bəzi işbazlar ölkəyə saxta ehtiyat hissələri gətirməyə nail olurlar. Bu isə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən inzibati məsuliyyət yaradır.**

Məcəllənin 448-ci maddəsində qeyd olunur ki, saxta və ya dövlət standartlarının, standartlaşdırma üzrə digər normativ sənədlərin tələblərinə uyğun olmayan malların idxal edilməsinə görə saxta və ya keyfiyyətsiz mallar müsadirə edilməklə fiziki şəxslər 350 manatdan 500 manatadək, vəzifəli şəxslər 1500 manatdan 2 min manatadək, hüquqi şəxslər isə 4 min manatdan 6 min manatadək məbləğdə cərimə edilirlər. Geniş şəbəkə formasında həyata keçirilən bu qanunsuz ticarət fəaliyyətinin iştirakçıları, əsasən, saxta ehtiyat hissələrinin idxalçıları olsalar da, ölkənin əmtəə bazarına asanlıqla yol tapan belə keyfiyyətsiz malları ayrı-ayrı dükanlar vasitəsilə realizə edirlər.



Ekspertlərin fikrincə, ölkəmizdə təkcə “Hundai” avtomobillərinin saxta ehtiyat hissələrinin illik mal dövriyyəsi 2 milyon manatdan yüksəkdir. Qeyd etdiyimiz şəbəkənin sonuncu iştirakçıları isə avtomobil ustalarıdır. Belə ki, bir çox fürsətcil maşın ustaları daha çox qazanc əldə etmək məqsədilə avtomobil sahiblərini aldatmaqdan belə, çəkinmirlər. Düzdür, nisbətən iri avtoservislərdə bu məsələyə görə məsuliyyət daşıyan olsa da, kiçik təmir sexlərində heç də belə deyil.

Digər tərəfdən, böyük avtoservislərdə qiymətlər baha olduğundan avtomobil sahibləri əksər hallarda xırda təmir sexlərinə üz tuturlar. Bu zaman isə, necə deyərlər, astarı üzündən baha başa gəlir. Burada çalışan bəzi ustalar isə min bir hiyləyə əl ataraq avtomobildə yaranmış nasazlığın səbəbini tam müəyyənləşdirmədən sürücülərə yeni detallar aldırırlar. Bütün bu hallar bazarda xaos və haqsız rəqabət mühiti yaratmaqla istehlakçıların hüquqlarının pozulmasına, onların aldadılmasına, eləcə də satış nöqtələrinin keyfiyyətsiz mallarla doldurulmasına səbəb olur. Artıq sürücülər belə hallardan təngə gəliblər. Onlar deyirlər ki, son zamanlar ölkəyə gətirilən ehtiyat hissələrinin əksəriyyəti ya aşağı keyfiyyətli, ya da tamamilə saxtadır. Xüsusən də bəziləri Çindən keyfiyyətsiz ehtiyat hissələri gətirirlər ki, bu da avtomobillərin vaxtından əvvəl sıradan çıxmasına səbəb olur.

**Yeri gəlmişkən, “Azad İstehlakçılar” İctimai Birliyinin apardığı araşdırmalar nəticəsində “Hyundai” markalı avtomobillərə aid olan müxtəlif növ saxta ehtiyat hissələrinin dövriyyədə daha çox olması müəyyənləşdirilib.** İctimai Birlikdən bildirdilər ki, ölkədə kommersiya qurumları və liberal bazar iqtisadiyyatı üçün yaradılmış mövcud şəraitdən sui-istifadə edən bəzi fiziki və hüquqi şəxslər Çin Xalq Respublikası, Birləşmiş Ərəb Əmirlikləri, Türkiyə, Koreya Respublikası və Rusiya Federasiyasından ölkəmizə “Hyundai” markalı avtomobillərə aid olan müxtəlif növ saxta ehtiyat hissələri gətirirlər. Bu cür ehtiyat hissələri, əsasən, paytaxtın Bakı şəhərinin Babək prospektində yerləşən “Avto Mall” ticarət mərkəzində,“Korea avtomobil hissələri” və həmin prospektdə yerləşən çoxsaylı mağazalarda satılır.

Mövzu ilə əlaqədar avtomobil təmiri sahəsində bir sıra tanınmış ustalara müraciət etdik. Onların dövriyyədə olan saxta avtomobil ehtiyat hissələri ilə bağlı fikirlərini öyrənmək istəyimiz isə nəticəsiz qaldı. Bu da onu deməyə əsas verir ki, ölkəyə gətirilən saxta ehtiyat hissələrinin realizə olunmasında əsas pay sahibi məhz elə avtomobil ustalarıdır. Belə qeyri-qanuni fəaliyyət isə avtomobil sahiblərinə maddi və mənəvi ziyan vurur. Eyni zamanda, avtomobillərdə quraşdırılmış keyfiyyətsiz ehtiyat hissələri ağır qəzalara yol açır ki, bu da sürücülərin və sərnişinlərin həyatını ciddi təhlükə qarşısında qoyur. Bu səbəbdəndir ki, avtomobilində nasazlıq yaranmış və ya yol-nəqliyyat hadisəsi zamanı ziyan görmüş sürücülər hər ustaya etibar edə bilmirlər. Yaxşı, insaflı usta tapmaq üçün isə dost-tanışa müraciət etməli olurlar.



Çox təəssüf ki, ölkədə belə halların sayının getdikcə artması müşahidə olunur. Ona görə də ekspertlər hesab edirlər ki, istər iri servislərdə, istərsə də, xırda təmir sexlərində çalışan ustalar öz işinin peşəkarı olmalıdırlar. Beləəri, ən azından, ehtiyat hissələrinin saxta və ya həqiqi olmasını təyin etməyi bacarmalıdırlar. Digər tərəfdən, usta avtomobildə yaranmış nasazlığı tam müəyyənləşdirmədən tələsik qərar qəbul etməməlidir ki, sürücü buna görə həm maliyyə, həm də zaman itkisi ilə üzləşməsin.



**Redaksiyamızın əməkdaşı da bu yaxınlarda belə bir xoşagəlməz halla qarşılaşıb.** Həmkarımız deyir ki, rayonların birinə ezamiyyətə gedən zaman yolda avtomobilində nasazlıq yaranır. Nə qədər cəhd etsə də, mühərriki işə sala bilmir. Bu səbəbdən də yaxınlıqdakı təmir sexinə müraciət etməli olur. Burada isə ona yaranmış problemin yanacaq nasosu ilə əlaqədar olduğunu söyləyirlər. Həmin hissənin yenisi ilə əvəz edilməsinə baxmayaraq, mühərriki yenə də işə salmaq mümkün olmur. Məlum olur ki, ustanın dəyişdirdiyi ehtiyat hissə keyfiyyətsiz olduğundan istifadəyə yararsızdır. Nəhayət, böyük vaxt itkisi hesabına uzaq məsafədən yeni yanacaq nasosu gətirilməklə problem yoluna qoyulur. Bu və oxşar hallara, demək olar ki, hər gün, hər yerdə rast gəlmək mümkündür.

Göründüyü kimi, avtomobillərin təmiri və texniki qulluq sahəsində vəziyyət heç də ürəkaçan deyil. Bundan isə ən çox ziyan görən avtomobil sahibləridir. Saxta avtomobil ehtiyat hissələri isə həm vaxt alır, həm də can. Bu sahədə ciddi nəzarət tədbirləri görülməlidir ki, həm həyatımız təhlükə qarşısında qalmasın, həm də vaxtımız itməsin.

**Məsələ ilə əlaqədar İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə müraciət ünvanladıq.** Qurumdan bildirdlər ki, “Texniki tənzimləmə haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən, avtomobil ehtiyat hissələrinə dair məcburi tələblər texniki reqlamentlərlə müəyyən olunur. Texniki reqlamentlər qüvvəyə minənədək təsərrüfat subyektləri tərəfindən avtomobil ehtiyat hissələrinə dair standartların, həmçinin uyğunluğun qiymətləndirilməsi ilə bağlı müddəaları müəyyən edən normativ hüquqi aktların tələblərinə riayət olunmalıdır.

Dövlət Xidmətinin məlumatına görə, ölkəmizdə avtomobil ehtiyat hissələrinə dair dövlət standartları mövcuddur. Avtomobil ehtiyat hissələri (avtomobil fənərləri, təhlükəsizlik kəmərləri, qoruyucu sistemlər, avtomobil şüşələri, pnevmatik şinlər, siqnalizasiya qurğuları və s.) təhlükəsizlik göstəricilərinə görə həmin standartların tələblərinə uyğun gəlməlidir. Eyni zamanda, istehlakçıların hüquqlarının müdafiəsi ilə bağlı qanunvericiliyin müddəalarına əsasən, istehlakçı satıcıdan (istehsalçıdan) alınmış malın keyfiyyətinin normativ sənədlərə, müqavilə şərtlərinə uyğunluğu barədə və həmçinin mal haqqında satıcının (istehsalçının) təqdim etdiyi məlumata cavab verməsini tələb etmək hüququna malikdir.

Satıcı (istehsalçı) istehlakçıya keyfiyyəti normativ sənədlərə, müqavilə şərtlərinə və həmçinin mal haqqında istehsalçının təqdim etdiyi məlumata uyğun olan mal verməlidir. Eyni zamanda, Azərbaycan Respublikası ərazisinə idxal olunmuş malların (işlərin, xidmətlərin) lazımi keyfiyyətini təsdiq edən, qanunvericiliklə nəzərdə tutulmuş sənəd olmalıdır.

Qurumdan sorğumuza verilən cavabda o da qeyd olunur ki, müvafiq sahədə nəzarət tədbirləri “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə əsasən həyata keçirilir. Belə ki, “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının Qanunu ilə ölkə ərazisində sahibkarlıq sahəsində aparılan yoxlamalar 2025-ci il yanvarın 1-dək dayandırılıb. Nəzərdə tutulmuş müddətdə yalnız insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyi və iqtisadi maraqlarına əhəmiyyətli təhlükə yaradan hallarla bağlı əsaslandırılmış müraciətlər üzrə Dövlət Xidməti tərəfindən yoxlama aparıla bilər.

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətindən aldığımız məlumata görə, daxili bazarda keyfiyyətsiz və qüsurlu avtomobil ehtiyat hissələrinin satılması ilə bağlı təkcə cari ilin ötən dövründə quruma 33 istehlakçı müraciəti daxil olub. Bunlardan 1-i tam təsdiqini tapdığından şikayət təmin edilib və qüsurlu məhsul qaytarılıb. 21 müraciətin araşdırılması zamanı ərizədə qeyd olunan məsələlər öz təsdiqini tapmayıb. Daha 11 müraciət üzrə isə araşdırmalar davam edir.

Dövlət Xidmətindən onu da bildirdilər ki, vətəndaşlar istehlak bazarında keyfiyyətsiz avtomobil ehtiyat hissələrinin satışı halları ilə qarşılaşdıqları zaman həmin məhsulların satışını həyata keçirən sahibkarlıq subyektinin adı və ünvanı, malın alışını təsdiq edən qəbz və s. məlumatları təqdim etməklə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə birbaşa ərizə ilə, eləcə də rəsmi internet səhifəsi, elektron poçt və ya 195-1-4 Çağrı Mərkəzi vasitəsilə müraciət edə bilərlər.

***Mirbağır YAQUBZADƏ,***
***Vaqif BAYRAMOV***
***XQ***

### Ekspert rəyi



**Eyyub HÜSEYNOV,**
**“Azad İstehlakçılar” İctimai Birliyinin sədri**

Uzun illərdir ki, ölkənin əmtəə bazarında saxta, standartlara uyğun gəlməyən avtomobil hissələrinin satılması ilə bağlı “Azad İstehlakçılar” İctimai Birliyinə çoxsaylı məlumatlar, şikayətlər daxil olur. Bugünlərdə istehlakçılar tərəfindən saxta avtomobil hissələrinin nümunələri də ofisimizə təqdim olunub. Hətta iş o yerə çatıb ki, hökumətin sahibkarlar üçün yaratdığı əlverişli şəraitdən sui-istifadə edən işbazlar özləri də hansı malın keyfiyyətli, hansının isə saxta, yararsız olduğunu bildirir və ona uyğun qiymətlər təyin edirlər. Bütün əmtəə sektorlarında malların cox böyük əksəriyyəti, demək olar ki, heç bir mənşə sertifikatı olmadan satılır. Bu isə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 aprel 2014-cü il tarixli 94 saylı qərarının “Malların satılmasına dair” 5-ci bəndinin kobud şəkildə pozulması deməkdir.

Bununla yanaşı, sözügedən avtomobillərin istehsalçısı olan Cənubi Koreya şirkətinin mütəxəssisləri Azərbaycanda saxta “Hundai” avtomobil hissələrinin satışından narahatlığını bildirərək 2023-cü il avqustun 23-də bu işlərə nəzarət etməli olan cavabdeh dövlət orqanlarına saxta hissələri tanımaq və əmtəə bazarında satışını məhdudlaşdırmaq məqsədilə müraciət də ünvanlayıblar. Təəssüf ki, ötən müddətdə bu sahədə heç bir müsbət dəyişiklik baş verməmiş, saxta avtomobil hissələrinin əmtəə bazarına daxil olması halları azalmaq əvəzinə, bir qədər də artmışdır.

Paradoksal, həm də təəccüblü haldır ki, ölkəmizdə “Hundai” avtomobillərinin və onların ehtiyat hissələrinin satışı üzrə ekskluziv distribütoru, bu sahədə müstəsna hüququ olan “Avto Azərbaycan” MMC şirkəti də bazarda müşahidə edilən xaosa qarşı heç bir iş aparmır, seyrçi mövqe sərgiləyir. Bu da müəyyən suallar doğurmaya bilməz. Yeri gəlmişkən, araşdırmalar nəticəsində məlum olub ki, “Avto Azərbaycan” MMC-ni “Hundai” markali avtomobil hissələri ilə təmin edən Koreyanın “MOBİS” şirkəti hələ 2018-ci ildə əmtəə nişanını Azərbaycanın Əqli Mülkiyyət Agentliyində rəsmi qeydiyyata aldırmışdır. Belə olan təqdirdə rəsmi qeydiyyata alınmış əmtəə nişanı ilə ölkəyə saxta avtomobil hissələrinin idxal olunmasına nə ad vermək olar? Gömrük orqanları hara baxır? Və yaxud Əqli Mülkiyyət Agentliyi nəyə lazımdır? Bəs, sözügedən qurumlar bu acınacaqlı vəziyyətin aradan qaldırılması üçün nədən birgə fəaliyyət göstərmirlər?

“Azad İstehlakçılar” İctimai Birliyi olaraq daxili bazarda “Hundai” avtomobillərinin saxta ehtiyat hissələri ilə bağlı araşdırma aparmışıq. Bunun da nəticəsində bir sıra avtomobil hissələrinin saxta variantlarını üzə çıxarmışıq. Bunlara isə əyləc qəlibləri, yanacaq, yağ və hava süzgəcləri, mühərrik kəməri, hidravlik tarımlayıcı, sükan lenti, yağ karteri, yağ nasosu, salnik və porşenlər, val, vanus (valın boyunluğu), mühərrik təmir dəsti, mühərrik yastığı, muftalar, alışqan şamları, əyləc diski, amartizatorlar, sürgü qolları, porşen üzlüyü, zəncir dəsti və digər ehtiyat hissələri daxildir. Qeyd olunan saxta avtomobil hissələrinin hər biri sürücülərin və sərnişinlərin həyatı üçün ciddi təhlükə yaratmaqla yanaşı, həm də istehlakçılar üçün maddi itkilərlə və ya avtomobillərin tam sıradan çıxması ilə nəticələnir.

Məsələn, birliyimizin ofisinə təqdim edilən saxta yağ süzgəcini tərəziyə qoyduqda onun orjinaldan yüngül gəlməklə bərabər, daxilindəki klapanın hündürlüyünə görə seçilməsi məlum oldu. Bu da yanlış məlumatı avtomobilin xəbərdarlıq informasiya panelinə ötürməklə avtomobilin mühərrikinin tam sıradan çıxmasına səbəb olur. Bununla yanaşı, saxta süzgəcdə istifadə olunan təmizləyici qatların miqdarı azdır ki, bu da cihazın qalıqları tutub saxlamasına imkan vermir. Termostat saxta olduqda onun klapanı lazımi temperatur rejimində uyğun funksiyanı yerinə yetirmir, məlumat panelinə doğru informasiya ötürülmür. Saxta şamlar yanma rejiminin pozulmasına, avtomobilin mühərrikinin sıradan çıxmasına, bu tip əyləc yastıqları isə diskin sıradan çıxmasına və təhlükələrə səbəb olur.

Bu azmış kimi, saxta avtomobil hissələrinin satışı da çox zaman elə saxta maliyyə sənədləri əsasında həyata keçirilir. Məsələn, paytaxtın Babək prospektində yerləşən “Korea avtomobil hissələri” (Köhnə adı Favorit) dükanından alınmış saxta yağ süzgəci və termostat üçün müvafiq olaraq ödənilmiş 7 manat və 20 manatın müqabilində verilmiş maliyyə sənədinin də rəsmi kassa çeki olmadığı müəyyən edilib. Babək prospektində yerləşən “Maşın bazarı” adlandırılan ərazidəki “Avto Mall” satış mərkəzində də belə hallarla qarşılaşmaq mümkündür. Belə ki, mərkəzin ilk sırasının 1-ci mərtəbəsində yerləşən 26 saylı mağazadan 6 manata alınmış süzgəcə görə vətəndaşa saxta kassa çeki verilib. Bəzi satış nöqtələrində isə iz itirmək üçün hətta istehlakçıya saxta qaimə sənədi belə vermirlər.

Apardığımız araşdırmalar nəticəsində müəyyən etmişik ki, saxta hissələrin markalanmasında istehlakçıları aldatmaq məqsədilə əksər hallarda “MOBİS” qaloqramından istifadə olunur. Üstəlik, süzgəclərin acıq tərəfi xüsusi dizaynla örtülür. Saxta süzgəclər orjinaldan fərqli olaraq nisbətən böyük, tünd rəngli karton qutularda qablaşdırılır. Bu fərqi vizual olaraq termostatlarda da müşahidə etmək mümkündür.

Müşahidələr göstərir ki, yol–nəqliyyat hadisəsi baş verdikdə sığorta şirkətləri də, necə deyərlər, fürsəti fövtə verməyərək saxta avtomobil hissələrindən yetərincə istifadə etməyə çalışır, “orijinal” mal adı ilə məbləği artırmağa nail olurlar.

Bu sahədə digər problem avtotəmir məntəqələrinin əksəriyyətində saxta avtomobil hissələrindən geniş istifadə olunması, avtomobilini təmir etdirən şəxslərlə heç bir müqavilə bağlanılmaması, ödənilən məbləğ müqabilində rəsmi maliyyə sənədinin verilməməsi ilə bağlıdır. Məhz belə ustaların xidmətdən istifadə etmiş istehlakçı onların səhvi üzündən hadisə törədib hətta dünyasını dəyışsə belə, avtomobilin sonuncu dəfə harada və hansı usta tərəfindən təmir edilməsinə dair əldə heç bir fakt olmur. Bunların hamısı istehlakçı hüquqlarının və qanunların ciddi şəkildə pozulması deməkdir.

Hazırda daxili bazarda təkcə “Hundai” deyil, digər markalı avtomobillərin də saxta ehtiyat hissələrinin geniş şəbəkə formasında satılması hallarına rast gəlinir. Əfsuslar olsun ki, belə məhsulların müsadirə edilməsi ilə bağlı aidiyyəti dövlət qurumları tərəfindən ciddi tədbirlər görülmür. “Azad İstehlakçılar” İctimai Birliyi olaraq “Hundai” markalı saxta avtomobil hissələrinin geniş şəbəkə ilə satıldığı ticarət məkanlarında apardığımız araşdırmaların nəticələri ilə bağlı İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə, Gömrük Komitəsinə, Daxili İşlər Nazirliyinə, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə, Dövlət Təhlükəsizlik Xidmətinə və Əqli Mülkiyyət Agentliyinə rəsmi məlumatlar göndərmişik. Əminik ki, bütün bunlar nəticəsiz qalmayacaq, dövlət orqanları tərəfindən bu sahədə ciddi tədbirlər görüləcək.

Paytaxtın tarixi binaları

# “Dəyirmanlar kralı”nın memarlıq incisi

**Bakıda memarlıq tikililəri ilə şəhərin hüsnünə yaraşıq verən küçə və prospektlər az deyil. Paytaxtın belə məkanlarından biri də Murtuza Muxtarov küçəsidir. Burada yerləşən və “Ağabala Quliyevin evi” kimi tanınan bina milli-romantik üslubu ilə hər kəsi valeh edir. Hazırda bu tikili Azərbaycan Memarlar İttifaqının mülkiyyətindədir.**



Bu tarixi abidəni seyr etdikcə, xəyal insanı çox uzaqlara aparır. Elə bil hansısa dahi rəssamın çəkdiyi incə naxışlı bir tablonu seyr edirsən. Tikilinin belə baxımlı görünüşü ötüb keçən hər kəsdə xoş duyğular oyadır. Bina ilk baxışda “Tac Mahal” sənətkarlığını xatırlatsa da, abidənin məhz milli memarlığımızın nadir nümunələrindən biri olduğunu öyrəndik. Yüksək dekor elementləri ilə göz oxşayan memarlıq incisi hələ də möhtəşəmliyini qorumaqdadır.

**Memarlıq əsərinin tarixi barədə məlumatlar verən Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin katibi, gənc memar Şeyda Novruzzadə dedi:**

–XIX əsrin sonlarında Bakının mərkəzində Qərb memarlığının müxtəlif çalarları ilə stilistik istiqamət meydana gəlmişdi. Avropadan dəvət olunmuş memarlar layihələrində, əsasən, eklektika və modern üslubdan istifadə etsələr də, bir sıra hallarda milli və romantik yönümlü binalar da tikirdilər. Bu dövrdə yalnız Bakıda deyil, İran, Şimali Qafqaz və Rusiyada da dəyirmanları olan, tez-tez Qərbi Avropa ölkələrinə səyahət edən Ağabala Quliyev öz torpaq sahəsində yerli memarlığı milli ənənələrlə qovuşduran bir ev inşa etdirməyi qərara alır. O zaman “dəyirman kralı” adlandırılan sahibkarın İçərişəhər ərazisində də milli üslubda tikilmiş bir neçə mülkü var idi. O, şəhər tikililərində istifadə olunan sırf Avropa stilistikasına qarşı etiraz edərək, polyak əsilli şamaxılı memar Yevgeni Skibinskini dəvət edib yeni evinin layihəsini sifariş verir.

Ağabala Quliyev o vaxta qədər Avropanın müxtəlif şəhərlərinin görkəmli tikililəri ilə tanış olmuşdu. O, qərara gəlmişdi ki, evini milli-romantik ruhda tikdirsin. Memardan Şirvanşahlar sarayının elementlərindən, Yaxın Şərq və ərəb memarlığından istifadə etməyi xahiş edir. Memar sifarişçinin istəyinə hörmətlə yanaşır və binanın layihəsini qısa müddətdə işləyib hazırlayır. Yeni yaşayış evi Şirvanşahlar sarayında istifadə edilmiş memarlıq üslubunun bilavasitə təsiri altında tikilir. Bu qədim kompleksin yaxınlığında yerləşməsi də sahibkarın qərarında önəmli rol oynamışdı.

Mühəndis evin planını sadə həll edərək, bütün bəzəklərdən fasadlarda və interyerlərdə istifadə etmişdi. . İnteryerin rəsmlərini işləmək üçün Rusiyadan rəssam Vladimir Durov dəvət olunmuşdu. O, sifarişçinin zövqünü nəzərə alaraq, divarlarda Şərq mövzusunda pannolar çəkmişdi.

Sovet dövründə müxtəlif idarələrin fəaliyyət göstərməsinə baxmayaraq, binanın ilkin görkəmi dəyişilməyib, hətta divar dolabları da saxlanılıb. 1976-cı ilə kimi



binada “Şirvanşahlar sarayı kompleksi” qoruğunun müdiriyyəti fəaliyyət göstərib. Həmin ildən bu günədək Azərbaycan Memarlar İttifaqı burada yerləşir.

Söhbət zamanı onu da öyrəndik ki, binanın çölündə və daxilində bir neçə dəfə bərpa işləri aparılıb. Təmir yalnız yeniləşdirmə və təmizləmədən ibarət olub. Sonuncu dəfə 2018-ci ildə Memarlar İttifaqı üzvlərinin nəzarəti ilə fasadların təmizlənməsi, 1-ci mərtəbədə döşəmələrin üzlənməsi həyata keçirilib. Ölkə əhəmiyyətli tarixi memarlıq nümunəsi sayılan bina Azərbaycan Nazirlər Kabinetinin müvafiq qərarı ilə dövlət qeydiyatına götürülüb. Memarlıq incisi gözəl dizayn və interyeri ilə buraya gələn qonaqlarda böyük heyranlıq doğurur.

**Bəs, 1899-cu ildə inşa olunan bu binanın sahibi Ağabala Quliyev kim idi?**

Xalq yazıçısı Qılman İlkinin “Bakı və bakılılar” kitabında bu barədə ətraflı məlumat var: “1862-ci ildə Bakının Keşlə qəsəbəsində anadan olan Ağabala Quliyevin atası Hacıqulu yoxsul bir kişi idi. O, sonralar Keşlədən Bakıya köçür. Ehtiyac içində yaşayan ata bir müddət sonra oğlu Ağabalanı bir buxar dəyirmanında fəhlə işinə düzəldir. Uşaqlıqdan fərasətli olan Ağabala burada çalışdığı müddətdə dəyirmana aid hər işlə maraqlanırmış. Buğda kisələrinin daşınmasından tutmuş, buğdanın üyüdülməsinədək bütün işləri həvəslə öyrənirmiş. Ağabala gördüyü hər işi səliqə ilə yerinə yetirdiyi üçün kontor müdiri ondan hər zaman razı qaldığını deyirmiş. Çox keçmir ki, çalışqanlığı sayəsində o, sex rəhbəri təyin edilir. Gənc olsa da, pulun qədrini bilir və qənaətcilliyi sayəsində yeni vəzifədə xeyli sərmayə toplayır”.

Müəllif bildirir ki, varlanandan sonra Ağabala dəyirmanı pulla sahibindən alır və özü işlətməyə başlayır. O, dəyirmanın köhnə avadanlığını yenisi ilə əvəz edərək, gücünü xeyli artırır. Aldığı dəyirman onunla bir küçədə olan “malakan varlısı” Skobelevin dəyirmanı ilə (indiki Xəqani küçəsi) rəqabətdə geri qalırdısa, avadanlığın sazlığı və buraxılan məhsulun keyfiyyəti ilə nəinki Skobelevin, hətta Sadıxov qardaşlarının, H.Z.Tağıyevin, Kretingen və Qlaz qardaşlarının dəyirmanlarını da geridə qoyur.

Bir müddət sonra Ağabala Quliyevin fəaliyyəti daha da genişlənir. O, Şimali Qafqazda un, düyü təmizləyən, kraxmal dəyirmanları tikdirib, işə salır. Vladiqafqazda, Stavropolda, Samarada, Qroznıda və Beslanda tikdirdiyi dəyirmanlar ona bütün Rusiyada şöhrət qazandırır. Bununla da Ağabala Quliyev Rusiyada dəyirman işinin böyük bilicisi kimi tanınmağa başlayır. 1916-cı ildə Bakıda baş verən qiyam zamanı çörək çatışmazlığı üzündən mağazalar, ərzaq anbarları və dəyirmanlar hücuma məruz qalıb. Bu hadisə şəhərin tarixində “Babıy bunt” kimi yadda qalıb. Bazarlar talan edilib, digər dəyirmanlarla yanaşı, Ağabalanın dəyirmanı da ziyana uğrayıb.

Ağabala Quliyev şəhərdə uca binalar tikdirməyi sevmirmiş. Murtuza Muxtarov küçəsində tikdirdiyi yaşayış binası isə şəhərin ən əzəmətli tikililərindən hesab edilir. O binaya istər daxildən, istərsə də xaricdən arxitektura elementləri ilə bəzəklər vurulmuşdu.

Manaf Süleymanov göstərir ki, Ağabala Quliyevin 3 qız, 1 oğul övladı olub. Oğlu Ağa İsmayıl, qızları – Rübabə, Səriyyə və Sara xanım həmin binada boya-başa çatıblar: “Ağabala Quliyev həm də xeyriyyəçi, 1905-ci ildə təsis olunmuş Müsəlman Xeyriyyə Cəmiyyətinin ilk müəssisələrindən idi. O, “dəyirmanlar kralı” kimi tanınmaqdan savayı, ictimai xadim kimi də ad-san qazanmışdı. O zamanlar Bakının həyatında elə bir hadisə olmazdı ki, Ağabala Quliyev onda öz maddi və mənəvi dəstəyi ilə iştirak etməsin. O, dövlət quruculuğunda, ictimai-mədəni tədbirlərdə, xalq təsərrüfatına dair sahələrdə böyük xidmətlər göstərirdi”.

Əlbəttə, Bakı hər zaman görkəmli tarixi tikililəri ilə dünyanın ən gözəl şəhərləri sırasında yer alıb. Zaman ötdükcə, bu siyahıya yeni-yeni bənzərsiz abidələr də əlavə olunur. Bu gün paytaxtımızın cəlbediciliyi ilə seçilən müasir binaları şəhərin tarixi memarlığına yeni ahəng gətirir və Bakı günü-gündən gözəlləşir.

***Ceyhun ALIŞLI***
***XQ***

Bir kitabın söylətdikləri

**Ötən ay 60 yaşı tamam olan Rəşad Məcid Prezident Sərəncamı ilə media sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeninə layiq görüldü. AYB sədrinin müavini, Mətbuat Şurasının sədri, “525-ci qəzet”in baş redaktoru kimi gün ərzində gərgin çalışan, Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının üzvü olan, bütün bunlarla bərabər, gözəl şeir və məqalələr yazan ünlü qələm sahibinin bütün bunları necə çatdırması, sanki, bir sirri-xudadır.**

# Rəşad Məcid yaradıcılığının ədəbi-bədii estetikası




Gününü saatlara deyil, dəqiqələrə bölən Rəşad Məcidin hələ giley etdiyini, insanlarla ünsiyyətdə təbəssümsüz göründüyünü də görən olmayıb. Sinəsində gəzdirdiyi azərbaycanlı ürəyi ilə tez-tez dünyanın bir çox ölkəsində milli ədəbiyyatımızı və mediamızı layiqincə təmsil edir, peşəkar yazıları, maraqlı çıxışları ilə örnək yaradır, öyrənməkdən və öyrətməkdən usanmır. İnsanpərvərliyinə gəldikdə isə, həmkarları hamılıqla təsdiqləyər ki, Rəşad Məcid daim səmimiyyəti ilə seçilir, dostlarının uğuruna qəlbdən sevinir, çətinliyi olan hər bir kəsə diqqətlə yanaşıb, imkan daxilində köməyini əsirgəmir.

Bir insan üçün 60 yaş müdriklik dövrüdürmü, ya yox – demək çətindir, amma Rəşad Məcidin həyatda tutduğu mövqe ilə artıq çoxdan müdriklik məqamına yetişdiyi bəlli faktdır. Akademik İsa Həbibbəylinin onun haqqında yazdığı “Bütün yönləri ilə yaradıcı” kitabının (məsul redaktoru filologiya üzrə fəlsəfə doktoru, dosent Ağahüseyn Şükürovdur) təkmilləşdirilmiş 2-ci nəşrini oxuduqca bu qənaətlərimiz daha da gücləndi. “Bir yüngülvari müqəddimə”dən “Bütün yönləri ilə yaradıcı” adlı ümumiləşdirici yekun bölümünə qədər kitabın bütün səhifələrindən, bütün sətirlərindən tanınmış həmkarımızın rahatlıq bilməyən çalışqan obrazı göründü.

Görkəmli akademikin qələmində Rəşad Məcidin yaradıcılıq fəaliyyəti son dərəcə dəqiq və lakonik tezislərlə təqdim olunub: “Rəşad Məcid çoxcəhətli yaradıcılıq fəaliyyətinə malikdir. Və o, məşğul olduğu bütün yaradıcılıq sahələrində professionaldır. Publisistika Rəşad Məcidin yaradıcılıq fəaliyyətinin əsas, aparıcı tərəfidir, onun gündəlik işidir. Azərbaycanda “525-ci qəzet” səviyyəsində müstəqil mətbuat yaratmaq və bu qəzetin nəsrini uğurla davam və inkişaf etdirmək Rəşad Məcidin xidmətidir. Rəşad Məcid müstəqillik dövrü Azərbaycan publisistikasının əsas yaradıcılarından və görkəmli nümayəndələrindən biridir. “10 sentyabr” hekayəsi ilə Rəşad Məcid həm də nasirlik səlahiyyəti qazanmışdır. Ədəbi tənqid sahəsində də o, mükəmməl “yazıçı sözü” deməyi bacarır. Rəşad Məcid tam orijinal bir şairdir. Müstəqillik dövrü Azərbaycan şeirinin yaradıcıları sırasında özünəməxsus görkəmli yeri vardır. Rəşad Məcidin şeirləri mövzu, janr, üslub-yanaşma, bədii təsvir vasitələri etibarilə bənzərsizdir”.

Sübuta ehtiyac olmasa da, deyək ki, şairin son yaradıcılıq nümunələri olan “Şuşa dəftəri” adlı şeir silsiləsi möhtəşəmliyi ilə “Məni oxu!” deyir. İki ay öncə Şuşada birlikdə iştirakçısı olduğumuz Vaqif Poeziya Günlərinin Rəşad Məcid qələmində poetik əks-sədası olan həmin silsiləni digər gözəl şairimiz olan Vaqif Bəhmənli “Möhtəşəmdir!”, – deyə dəyərləndirdi. Başqalarının sezmədiyi, bir növ, böyründən xəbərsiz ötdüyü lövhələri, olmuşları, detalları tutmağını, poetik yaddaşa çevirməyini ürəkdən təqdir elədi. Yadımıza Rəşad Məcidin orada səsləndirdiyi “Şuşa sevgisi” şeirim düşür:

**Çox da qıvrılır yolu;**
**yol piyada, can atlı!**
**Ün yetməz zirvəsinə çox**
**nəsillər can atdı.**
**Adında qoşa heca –**
**sanki, qoşa qanaddı**
**Qopmuş körpə dilindən**
**qönçə Şuşa sevgisi!**

Elə akademik İsa Həbibbəyli də kitabın “Rəşad Məcidin Şuşanaməsi” bölümündə onun Şuşa şeirlərini yüksək qiymətləndirib: “Rəşad Məcidin “Şuşa dəftəri” şeirlər silsiləsi Azərbaycan ədəbiyyatında Qarabağ mövzusuna yenidən və yeni ruhda qayıdışın uğurlu bədii nümunələrindəndir… “Şuşanın şaxtası”na loğman kimi baxan şair Qarabağ muğamının sirrini İlahi kodda axtarır… Hiss olunur ki, “Şuşa dəftəri” Rəşad Məcidi bu mövzu ilə dərin bağlılığı olan daha bir seriala – “Laçın çələngini” hörməyə doğru aparır...”

Kitabın “Lirizm+epik notlar” bölümündə akademik İsa Həbibbəyli Rəşad Məcidin lirikasını dərin lirizmlə epik notların üzvi əlaqəsi əsasında yaranan əhəmiyyətli sənət hadisəsi saydığını bəyan edib. “O, cəmiyyətə də, təbiətə də, tarixə də, müasir həyata da şeirin gözü ilə baxır”, – yazıb.

“İdealın bədii təcəssümü”ndə Rəşad Məcid şeirinin estetik idealı kimi ifadə edilən ağatlı oğlan ölkənin bütövlüyünün və xalqın milli-mənəvi varlığının etibarlı keşikçisi kimi təfsir olunub. Vurğulanıb ki, şairin qələmində milli düşüncənin, vətənpərvərliyin və müstəqil dövlətçiliyin daşıyıcısı olan lirik-romantik qəhrəman özünün parlaq bədii təcəssümünü tapır.

Yeni nəşrin “Roman” və poetikası”, “Dastan”a doğru”, “Müasirlik səlahiyyəti”, “Publisistikada özünəməxsusluq”, “Yazıçı tənqidi: esselər”, “525-ci qəzet”in hünəri” kimi digər bölümlər də mövzuya mükəmməl elmi və ədəbi təhlil yanaşma baxımından diqqət çəkir. Nəticə etibarilə Rəşad Məcid bütün yönlərindən səciyyələndirilərək əsl azərbaycançı ziyalı, müstəqillik dövrü liro-epik şeirimizin əsas yaradıcılarından biri kimi xarakterizə edilir.

İnanırıq ki, “Elm və təhsil” nəşriyyatında çap olunmuş kitabı oxucular maraqla qarşılayacaqlar.

***Ə.DOSTƏLİ***
***XQ***

# Gəncədə “Nizami günləri”



**Mədəniyyət Nazirliyi və Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə Gəncə şəhərində dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin xatirəsinə həsr olunmuş “Nizami günləri” layihəsinin açılışı olub.**

Mərasimdə akademik Rafael Hüseynov “Nizami Gəncəvi ədəbi məktəbinin Şərq və Qərb ədəbi-mədəni təfəkküründə yeri”, filologiya elmləri üzrə fəlsəfə doktoru İlahə Hacıyeva “Anadilli “Xəmsə” ardıcılları: bütöv və fraqmentar cavablar”, Əməkdar rəssam Elçin Hami Axundov “Nizami şəxsiyyəti və irsinin animasiya həllinin problemləri və “Xəmsə” süjetləri”, filologiya üzrə fəlsəfə doktoru Əlimuxtar Muxtarov “Azərbaycan ədəbiyyatında Nizami Gəncəvi obrazı” mövzularında çıxış ediblər.

Daha sonra Nizami məqbərəsində Əməkdar incəsənət xadimi Hafis Quliyevin rejissorluğu ilə Gəncə Dövlət Milli Dram Teatrının aktyorlarının ifasında ilk dəfə "5 qapı" tamaşası təqdim olunub. Tamaşanın libretto müəllifi Şahin Musaoğlu, bəstəkarı isə Tamilla Əhədovadır.

Layihə sentyabrın 15-dək müxtəlif proqramlarla davam edəcək.

***XQ***

# “Dağılan tifaq” Şuşa teatrında

***Bu gün Şuşa Dövlət Musiqili Dram Teatrı yeni mövsümünün açılışını edəcək. Teatrın yaradıcı heyəti Əbdürrəhim bəy Haqverdiyevin “Dağılan tifaq” pyesini təqdim edəcək.***



Tamaşada Fikrət Əmirovun əsərlərindən, xalq musiqilərindən və Əməkdar mədəniyyət işçisi, tarzən Nəsib Məhərrəmovun lent yazısından istifadə olunub.

Səhnə əsərinin quruluşçu rejissoru teatrın direktoru, Əməkdar artist Yadigar Muradov, rejissoru Lalə Şirinova, quruluşçu rəssamı Valeh Məmmədov, musiqi tərtibatçısı Əməkdar artist Azad Məmmədovdur. Rolları Xalq artisti Şükufə Musayeva, Əməkdar artistlər Teymur Məmmədov, Nazir Rüstəmov, Azad Məmmədov və digər aktyorlar ifa edirlər.

***XQ***

# Şəhid ailələrinə təhsil dəstəyi



**“YAŞAT” Fondu bu il də tələbə adı qazanan şəhid övladlarına 2 min AZN pul mükafatı verəcək.**

Bu barədə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev ali təhsil müəssisələrinə qəbul olunan şəhid ailə üzvləri ilə görüşdə bildirib. O, gəncləri təbrik edib, təhsildə və gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Görüş iştirakçılarına fondun təsis etdiyi birdəfəlik pul mükafatının sertifikatları təqdim olunub.

***XQ***

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası
kafedra müdiri vəzifəsini tutmaq üçün
MÜSABİQƏ ELAN EDİR

**Həmkarlar İttifaqı Hərəkatı və Sosial fənlər - kafedra müdiri.**

Müsabiqədə iştirak etmək istəyənlərin kafedra müdiri vəzifəsinə müvafiq kafedranın profilinə uyğun yüksək, peşə-ixtisas hazırlığı, elmi ad və elmi dərəcələri olmalıdır. Sənədlər Elm və Təhsil Nazirliyi Kollegiyasının 15 noyabr 2017-ci il tarixli, 5/5 saylı qərarı ilə təsdiqlənmiş qaydalara əsasən elan dərc olunandan bir ay müddətinədək akademiyaya təqdim edilməlidir.

Telefonlar – 563-13-07, 563-06-88.
Ünvan – AZ 1130, Bakı şəhəri, Azadlıq prospekti 181.

Beynəlxalq həyat

# Almaniyada "miqrant ovu"

## *Qoca qitədə "domino effekti"*

**Qanunsuz miqrantlar yenidən Şengen zonası ölkələri arasında kəskin mübahisələrin obyektinə çevrilib. Xüsusilə də Almaniyanın çağırılmamış qonaqlara qarşı mübarizəyə başlaması qonşuları tərəfindən yaxşı qarşılanmayıb. Ekspertlər istisna etmirlər ki, almanların daxili siyasi mülahizələrdən irəli gələn bu addımı "domino effekti"nə gətirib çıxaracaq və digər Şengen ölkələrini razılaşdırılmamış sərhəd yoxlamalarını tətbiq etməyə sövq edəcək.**

Macarıstan Avropa İttifaqında (Aİ) sığınacaq axtaranlara qarşı sərt siyasət yürütməsilə tanınır. Buna görə də, son vaxtlar Budapeşt sərhədlərində heç bir miqrant axını da müşahidə olunmayıb. Buna baxmayaraq, ötən həftənin sonunda Macarıstan qeyri-qanuni miqrantlara ölkə ərazisindən Belçika paytaxtına "birtərəfli bilet" ödəməyə başlayacağını açıqlayıb. Dövlət katibi Bents Retvari ötən cümə günü keçirdiyi mətbuat konfransında bildirib ki, "Brüssel qeyri-qanuni miqrantlar istəsə, onları ala bilər". O, həmçinin Belçikaya "könüllü" və "pulsuz" ictimai nəqliyyat təqdim ediləcəyini də deyib.



Macarıstanın bu jesti Belçikanın və Avropa Komissiyasının qəzəbli reaksiyasına səbəb olub. Sonuncunun adını açıqlamayan nümayəndəsi çərşənbə axşamı bildirib ki, Budapeştin hərəkətləri "Aİ qanunvericiliyinin, həmçinin səmimi və sadiq əməkdaşlıq prinsipinin, eləcə də qarşılıqlı etimadın açıq şəkildə pozulmasıdır" və bütövlükdə "Şengen zonasının təhlükəsizliyini pozacaq". Bununla belə, Macarıstandan qeyri-qanuni mühacir axınının faktiki olaraq Belçikaya istiqamətlənəcəyi ilə bağlı ciddi qorxular yoxdur, çünki Budapeştlə bağlı bu, Aİ məhkəməsinin iyunda verdiyi qərarın qisasını almaq üçün daha çox teatral jest idi. Xatırladaq ki, məhkəmə Macarıstanı sığınacaq hüququna qoyulan ciddi məhdudiyyətlərlə əlaqədar "Avropa İttifaqı qanunlarının görünməmiş və son dərəcə ciddi pozuntusunda" ittiham edib və pozuntuların davam edəcəyi təqdirdə Budapeştə birdəfəlik 200 milyon avro və hər gün üçün 1 milyon avro cərimə kəsib. Bunun fonunda bir çoxları qeyri-qanuni mühacirlərin Aİ-nin mərkəzinə avtobuslarla daşınması ideyasını Macarıstan hakimiyyətinin Brüssel məmurlarının əsəblərini tarıma çəkmək kimi qiymətləndirməyə üstünlük verirlər.

Lakin Almaniyanın qeyri-qanuni immiqrantlarla mübarizə üçün yeni sərhəd nəzarəti tədbirləri tətbiq etmək barədə qərarı Aİ-də daha ciddi narahatlıqlar yaradıb. Bu həftə ölkənin daxili işlər naziri Nensi Feser bildirib ki, tezliklə Almaniya bütün doqquz qonşu ölkədən gələn insanları yoxlamağa başlayacaq. Keçmişdə bəzən Polşa, Avstriya, Çexiya və İsveçrə ilə sərhədlərdə belə yoxlamalar qurulurdu ki, bu da ölkənin Daxili İşlər Nazirliyinin məlumatına görə, ötən ilin oktyabrından bu yana sənədləri etibarsız olan və Almaniyaya daxil olmaq hüququ olmayan 30 minə yaxın şəxsin evlərinə göndərilməsinə imkan vermişdi. İndi alman sərhədçiləri Fransa, Lüksemburq, Hollandiya, Belçika və Danimarkadan gələn miqrantların Almaniyada sığınacaq istəmək hüququnun olub-olmadığını qiymətləndirmək üçün beş həftəyə qədər həbsdə saxlamaq hüququna malik olacaqlar. Bu, avqust ayında Solingen şəhərində suriyalının bıçaqla hücumundan sonra Berlin tərəfindən qəbul edilmiş son sərt miqrasiya tədbiridir.

Berlinin Avropada Şengen azad hərəkət zonasının fəaliyyətinə zidd olaraq qonşularından təcrid olunmaq qərarı narazılıqla qarşılanıb. Yalnız Macarıstanın baş naziri Viktor Orban Berlini anladığını bildirib, amma o, bunu özünməxsus istehza ilə bildirib. Cənab Orban X sosial şəbəkədə yazıb ki, "Almaniya qeyri-qanuni miqrasiyanın qarşısını almaq üçün sərt sərhəd nəzarəti tətbiq etmək qərarına gəlib. Kansler Şolts, kluba xoş gəlmisiniz".

Bununla belə, Avstriya kansleri Karl Nehhammer bildirib ki, əgər Berlin daha çox miqrantı ümumi sərhədlərindən geri göndərmək üçün tədbirlər görsə, Vyana da Şərqə, Balkanlara daha çox insan göndərməklə eyni addımı atacaq. Qonşu Polşanın baş naziri Donald Tusk isə almanların qərarını qəbuledilməz adlandırıb, çünki onun fikrincə, bu, "Şengen sazişinin geniş miqyasda faktiki dayandırılmasına" gətirib çıxaracaq. Cənab Tusk hökumətinin bu məsələ ilə bağlı təsirə məruz qalan digər ölkələrlə təcili məsləhətləşmələr aparmaq niyyətini açıqlayıb: "Mən şübhə etmirəm ki, Almaniyadakı daxili siyasi vəziyyət getdikcə daha kəskin addımlar atmağa vadar edir". Həqiqətən də, Şolts hökumətinin miqrasiya siyasətini sərtləşdirməsi Almaniyada ifrat sağçı "Almaniya üçün Alternativ" partiyasının populyarlığının görünməmiş dərəcədə artması fonunda baş verir.

Siyasi müşahidəçilərin fikrincə, Almaniyanın qeyri-qanuni mühacirlərlə bağlı indiki sərtliyi, şübhəsiz ki, Aİ-yə yaxşı təsir göstərməyəcək. Axı Avropa birliyinin əsas nailiyyətlərindən biri də maneəsiz hərəkət hüququdur. Avropa Şurasının miqrasiya üzrə eksperti Mireia Faro Sarratts bildirib ki, bu, Polşa, Macarıstan və Çexiya kimi ölkələrdə presedent yaradacaq. Avropa Siyasət Mərkəzinin eksperti Alberto-Horst Neidhardt isə düşünür ki, Berlinin bu addımı zəncirvari reaksiyaya səbəb ola bilər və miqrantlara qarşı sərt siyasət yürüdən Fransa və ya Hollandiya kimi ölkələr də eyni addımı atacaq.

***S.ELAY***
***XQ***

# Gəncədə şəhid övladları ilə görüş



**Yeni Azərbaycan Partiyasının Gəncə şəhər təşkilatının inzibati binasında Vətən uğrunda canlarından keçən şəhidlərimizin birinci sinfə gedən övladları ilə görüş keçirilib.**

Görüşdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov, Gəncə Şəhər İcra Hakimiyyəti başçısı Aparatının və Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin məsul əməkdaşları, şəhid ailələri iştirak ediblər.

Niyazi Bayramov çıxış edərək, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələrinə, müharibə iştirakçılarına və veteranlarına göstərdiyi diqqət və qayğıdan söz açıb. Şəhər rəhbəri şəhidlərin məktəbli övladlarını yeni tədris ilinin başlanması münasibətilə təbrik edib, onlara uğurlar arzulayıb.

Bayram Aslanov qeyd edib ki, Vətən uğrunda canlarından keçən şəhidlərin övladları xalqımıza əmanətdir və onların qayğısız böyümələri, təhsil almaları üçün dövlətimiz tərəfindən bütün tədbirlər görülür.

Şəhid ailələri adından çıxış edənlər onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Sonda şəhid övladlarına məktəbli formaları təqdim edilib.

***Hamlet QASIMOV***
***XQ***

# Bakı və Moskvanın birgə turizm layihələri

**Azərbaycan Turizm Bürosunun iştirakı ilə Moskva şəhərində keçirilən "MICE4U" işgüzar görüşlərində ölkəmizin işgüzar turizm potensialı tanıdılıb. Dövlət Turizm Agentliyindən əldə etdiyimiz məlumata görə, tədbirdə iştirakdan məqsəd ölkəmizin turizmə aid mövcud imkanlarını qlobal müstəvidə nümayiş etdirmək və təbliğat fəaliyyətini genişləndirməkdir.**




Rusiyanın işgüzar turizm sahəsi üzrə aparıcı agentliklərinin rəhbər işçiləri və mütəxəssisləri ilə keçirilən "B2B" formatlı görüşlərdə ölkəmizin turizm potensialı haqqında məlumat verilib.

Azərbaycan–Rusiya turizm əlaqələrininin hazırkı vəziyyətini şərh edən ekspert Ceyhun Aşurov bildirdi:

– Azərbaycan Turizm Bürosunun iştirakı ilə reallaşan işgüzar görüşlər turizm potensialımızın daha geniş auditoriyaya çatdırılması məqsədi daşıyır.

Mövcud geosiyasi vəziyyətlə əlaqədar Rusiyanın bir sıra yerlərə çıxışları məhduddur. Bu mənada, qonşu ölkə bir çox işgüzar tədbirləri məhz Azərbaycan məkanında turizm destinasiyası kimi təşkil edə bilər. Təbii ki, ölkəmiz bu imkanlardan faydalanmağa çalışır və alternativ bazar təşkil edir.

Ekspertin sözlərinə görə, Azərbaycan Rusiyada turizmlə bağlı təşkil edilən bütün sərgi və mərasimlərdə uğurla təmsil olunur. Rusiyadan hər il milyonlarla insan istirahət üçün dünyanın müxtəlif ölkələrinə üz tuturdu. Hazırkı geosiyasi durum bu göstəriciyə mənfi təsir etsə də, yenə də bu ölkədən yüzminlərlə insanın digər ölkələrə səyahət etdiyini görürük. Azərbaycanlı iş adamlarının da Rusiyanın müxtəlif sanatoriya və digər turizm məkanlarında ciddi investisiyaları var.

Xatırladaq ki, bu ilin yanvar–avqust aylarında Rusiyadan Azərbaycana 501 min 417 səyahətçi gəlib. Bu, 2023-cü ilin eyni dövrü ilə müqayisədə 18 faiz deməkdir.

***Ceyhun BALABƏY***
***XQ***

Yeni teatr mövsümü

**Bakı Bələdiyyə Teatrı 32-ci mövsümü görkəmli qırğız yazıçısı, ictimai-siyasi xadim Çingiz Aytmatovun "Ana tarla" tamaşası ilə açıq elan etdi. Qırğızıstanın Azərbaycandakı səfiri Maksat Mamıtkanov tamaşadan əvvəl çıxış edərək, bu səhnə əsəri haqqında öz fikirlərini dilə gətirdi, iki ölkə arasındakı dostluq, qardaşlıq əlaqələrindən danışdı. Səfirin çıxışından sonra "Ana tarla" tamaşasının aktyorları səhnədə göründü. Bu haqda bir qədər sonra...**

# "Ana tarla"nın durna nağılı

İlyas Əfəndiyev–Amaliya Pənahova–Mərahim Fərzəlibəyov tandemi XX əsrin ikinci yarısını əhatə edən bütöv bir teatral dövrün, epoxanın aparıcı xəttinə çevrildi və həmin dövr Azərbaycan teatrı, sözün əsl mənasında, intibah mərhələsi yaşadı. Bu üçlüyün parlaq tamaşalarının uğurları aradan uzun illər keçməsinə baxmayaraq, bu gün də xatırlanır və Azərbaycan teatrının keçdiyi şərəfli yol haqda danışmağa kifayət qədər əsas verir.

Unudulmaz sənətkarımız Amaliya Pənahovanın yaratdığı və bizə yadigar qoyub getdiyi Bakı Bələdiyyə Teatrı bu gün də Aynur xanım Muxtarovanın rəhbərliyi ilə həmin tandemi yaşadır. "Xan qızı", "Şuşada ürəyim qaldı" tamaşaları məhz İlyas Əfəndiyev və Amaliya Pənahova yaradıcılığının əsaslarına söykənirdi və bu tamaşalara quruluşu da məhz görkəmli rejissorumuz Mərahim Fərzəlibəyov vermişdi.



Bakı Bələdiyyə Teatrı Azərbaycan teatrının autsayderi təsiri bağışlasa da bu, bir faktdır ki, onların hazırladığı tamaşalar hər dəfə teatr mühitinin canlanmasına səbəb olur. Akademik Milli Dramında nümayiş olunan "Ana tarla" tamaşası bu qəbil səhnə əsərlərindəndir. Böyük qırğız yazıçısı Çingiz Aytmatovun eyni adlı romanının motivləri əsasında xalq artisti, "Şöhrət" ordenli Mərahim Fərzəlibəyovun səhnələşdirdiyi və quruluş verdiyi tamaşa mədəni həyatımızın əlamətdar hadisəsinə çevrildi.

Ümumiyyətlə düşünürəm ki, Bakı Bələdiyyə Teatrının tamaşaları haqqında cari resenziyalarla kifayətlənmək olmaz. Bu teatrın fəaliyyəti nəzəri baxımdan təhlilə cəlb edilməlidir. Lokal faktları işıqlandırmaqla kifayətlənən cari resenziyalarda teatr aləminin tam mənzərəsi görünmür. Tam mənzərə görünməyəndə isə üslubi istiqamətləri, forma və məzmun yeniliklərini necə aşkar etmək olar?! Təəssüf ki, bu sahədə boşluqlar özünü göstərir. Proses isə davam edir.

Aktyor plastikası, ifa zənginliyi, məkan-zamanın formadakı vüsətli təcəssümü, çoxlu rejissor tapıntıları, mizan müxtəlifliyi "Ana tarla"nın Azərbaycan teatrında hadisə olduğunu təsdiqləyən başlıca faktorlardır. Müharibə bəşəri mövzudur, xüsusən, Çingiz Aytmatovun torpaq-tarla metaforasından istifadə edərək bəşəriyyətə çağırışı bütün zamanlar üçün aktualdır. Mərahim Fərzəlibəyovun mövzu-problematikaya bu prizmadan baxışında möhtəşəm tapıntı sünbüllərin obrazlara çevrilməsidir. Sünbüllər bir-birinin pilləvari sinonimidir. Rejissor bu üsulla konkret hadisələri, lirizm xəttini müharibə problemi ilə qovuşduraraq ictimai məzmunu gücləndirmişdir. O, ana xəttin inkişafından belə bir məntiqi nəticə çıxarıb: insanlar gedəri, torpaq isə əbədidir. Vətən duyğusu məhz torpaqdan mayalanır, oğullara güc verən üzərində dayandığı torpaqdır. Və məhz bu ali duyğu qələbəni şərtləndirir.

Əməkdar artist Hüsniyyə Mürvətovanın Tolqonayı aktrisanın bioqrafiyasında tamamilə yeni səpkili bir obrazdır. Müharibə dövrü qadınlarının ümumiləşmiş obrazı olan Tolqonayın sevgisi, dözümü, mətanəti, daxili sarsıntılarına, ər və övlad itgisinə rəğmən məğrur duruşu tamaşaçının qəlbini ehtizaza gətirir. Tolqonay bir qadın və ana kimi möhtəşəm və yenilməzdir. Hüsyniyyə xanım Tolqonayın xarakterik cizgilərini, hiss və duyğularını o qədər incəliklə göstərə bilir ki, tamaşaçı səhnədə müharibənin dəhşətləri qarşısında sınmayan, əyilməyən, polad iradəli bir qadın görür. Bu qadın hər cür ehtirama və hörmətə layiqdir. Müharibədən qalib çıxmış xalq bu qadının önündə səcdə edə, ona abidə ucalda bilər. Ona görə ki, düşmənlə savaşda qalib gələn, canından keçən əsgərləri məhz onun kimi qadınlar dünyaya gətirib. Aktrisanın ifasının emosional təsirinə düşməmək mümkün deyil.

Rəşad Kəsəmənlinin Suvankulu son dərəcə təbiidir. Aktyor başqalaşma prinsipinə ustalıqla əməl edir. Tamaşadan əvvəl kulisdə gördüyüm Rəşadla səhnədəki Suvankul tamamilə başqa-başqa insanlardır. Səhnə arxasında aktyorları müşahidə edərkən onların daxili həyəcanını seyr edirdim və bu həyəcan, sözsüz, mənə də sirayət edirdi. Rejissor son göstərişlərini verirdi və mən səhnənin sehrinə düşmüşdüm. Bir azdan aktyorlar, bax, bu keçiddən adlayaraq Aytmatovun yaratdığı dünyanın sakinlərinə çevriləcəklər. Torpaq dil açıb danışacaq, sünbüllər canlanacaq... Bu, möcüzə deyil, bəs nədir?! Bu keçidin sehri, əfsunu, cazibəsi məni tam əhatə etmişdi. Teatr mühiti ilə uzun illərdən bəri sıx ünsiyyətdə olsam da ilk dəfə idi ki, səhnə arxasında hazırlıq prosesinə şahidlik edirdim. Mərahim müəllim bilərəkdən mənə bu şəraiti yaratmışdı ki, o keçidi görüm. Bu haqda başqa bir yazımda geniş, təfsilatı ilə yazacağam.

İndi isə "Ana tarla"nın qəhrəmanlarından danışaq. Qasımdan (Tural Əhməd), Alimandan (Ülvviyyə Rza), Caynaqdan (Elçin Muradov), Masılbekdən (Namiq Cavadov), Aişədən (Səmayə Sadıqova), Usanbaydan (İsmayıl Atakişiyev), bir də sehrli sünbüllərdən (Zülfiyyə Məmmədova, Günel Həmidova, Aynur Abbasova, Arzu Ağayeva)...



Qasım cəbhəyə gedərkən sevgilisi Alimana deyir ki, durnalar qayıdanda mən də qayıdacağam. Onların təması, sevgisi təbiət qüvvələri ilə əlaqəli şəkildə təqdim olunur. Tural Əhmədin Qasımı, Ülviyyə Rzanın Alimanı tamaşaçı qəlbində dərin duyğular oyadır, hiss və duyğuların fırtınası gözlərdə yaşa çevrilir. Hər iki aktyorun ifası möhtəşəmdir. Hər ikisi rejissor məqsədini səhnə işinin məqsədinə çevirməyi bacarır. Alimanın (aktrisanın səhnədə həyəcanlı çırpıntıları ümumi təəssüratı gücləndirməklə ritmə dinamiklik verirdi. Tural Əhməd tamaşaçı sevgisi qazanmış aktyordur, eləcə də Ülviyyə Rza Azərbaycan teatrı üçün bir tapıntıdır.

Zülfiyyə Məmmədova, Günel Həmidova da öz rollarının öhdəsindən bacarıqla gəlirlər. Bu fikir sünbülləri ifa edən dörd aktrisanın hər birinə aiddir. Onların umumi ansamblı hadisələri peşəkarcasına yönləndirir. Bu da şəksiz, rejissorun uğurudur. Torpaq və sünbül alleqoriyası yaradan rejissor mifoloji apokriflərdən sənətkarcasına yararlanıb və bu bu fantom ağrıları səhnə dili ilə ifadə edə bilib. Bir sözlə, "Ana tarla" uzun müddət yaddaşlardan silinməyəcək və Azərbaycan səhnəsinin uğurlarından biri kimi hər zaman xatırlanacaq.

***Kənan HACI,***
***yazıçı-publisist***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 199 (30603) 13 sentyabr 2024-cü il, cümə

# Formula 1 pilotları Bakı hazırlığı keçirlər



**Formula 1 komandaları sentyabrın 13–15-də Azərbaycanda keçiriləcək Qran-pri-də iştirak üçün Bakıya gəliblər. Artıq bəzi pilotlar trasa baxış keçirib, komandalarının pit-leyninə baş çəkib, yarış hazırlığına başlayıblar.**

Yarışdan əvvəl mətbuat konfransı təşkil olunub. Konfransda yarış iştirakçıları maraqlı fikirlər səsləndiriblər.

### "Bakı ilə bağlı xoş xatirələrim var"

**"Alfa Tauri" komandasının pilotu Daniel Rikkardo** Bakı Şəhər Halqasında yarışmağın heç də asan olmadığını deyib:

– Bakı ilə bağlı xoş xatirələrim var. 2017-ci ildə Azərbaycan Qran-Prisində qalib gəldim. Uzun zamandan sonra yenidən eyni şəkildə mübarizə aparmaq o qədər də asan olmayacaq. Bununla belə, xal qazanmaq üçün şanslar var.

Onun sözlərinə görə, yaxşı nəticə üçün komanda düzgün strategiya seçməlidir. Həftəsonu formada olduqlarını göstərməlidirlər. Avtomobillərlə bağlı problemlər həll edilib.

### "20 pilotdan biri olmaq böyük şansdır"

**"Haas" komandasının pilotu Oliver Berman** Azərbaycan Qran-Prisinin onun karyerasında xüsusi yeri olduğunu deyib. O qeyd edib ki, 20 pilotdan biri olmaq böyük şansdır.

Niderlandlı Kevin Maqnusseni əvəzləyəcək 19 yaşlı britaniyalı sürücü deyib ki, komandası ona böyük ümidlər bəsləyir:

– Komandam mənə etibar etdi. Üzərimdə çox çalışmışam. Mənə ümidlər böyükdür. Bu, mənim Bakıdakı ilk yarışım olmayacaq. Risk etməsəm, gücümü göstərə bilməyəcəyəm.

O.Berman onu da bildirib ki, Azərbaycan Qran-Prisi onun üçün böyük təcrübə olacaq. Deyib ki, yarışdan-yarışa təcrübəsinin artdığını hiss edir.

### "Bakı treki mənə doğmadır"

**"Aston Martin" komandasının pilotu Fernando Alonso** həftəsonunun onlar üçün asan olmayacağını bildirib. Bakı trekinin dar döngələri, yüksək sürət tələb edən yolların onların işini çətinləşdirəcəyini deyən təcrübəli sürücü vurğulayıb ki, mümkünsüz heç nə yoxdur. Hər zaman olduğu kimi mübarizə aparacaqlar.

Dünya çempionu azarkeşlərə həyəcanverici anlar yaşadacaqlarına inandığını da dilə gətirib. O, Bakı trasının F1 təqvimindəki ən sürətli şəhər treki olduğunu xatırladıb:

– Bu trek mənə yad deyil. Dəfələrlə Bakı yarışında yaxşı nəticələr əldə etmişəm. Onu da bilirəm ki, yüksək sürətlə dar küçələrdən keçmək olduqca həyəcanvericidir.

### "İnamlı mübarizə aparacağam"

**Tədbirdə "Alfa Romeo" komandasının pilotu Quanyuy Çjou** da maraqlı fikirlər səsləndirib. Bakı trasında qızğın mübarizə gedəcəyinə əmin olduğunu deyən pilot onu da qeyd edib ki, yarışda onların yaxşı çıxış etmək şansları var.

Çinli pilot yarışdan gözləntilərinin böyük olduğunu da vurğulayıb:

– Çətin trekində mübarizə aparacağıq. Gözləntilər böyükdür. Yaxşı nəticə əldə etmək üçün həyəcanlı olmamalıyam. Onu da deyim ki, hər yarışda təcrübə qazanmaq və təkmilləşmək üçün yaxşı fürsətdir. Belə fürsətlərdən istifadə etmək lazımdır. İnamlı şəkildə mübarizə aparacağam.

*Leyla QURBANOVA,*
*Elşən AĞALAR (foto)*
*XQ*

# Talış kəndində səyyar tibbi müayinə



**Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə azad olunmuş ərazilərə qayıtmış əhalinin növbəti səyyar müayinələrini Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun həkim heyəti Ağdərə rayonunun Talış kəndində keçirib.**

İnstitutun baş həkimi Nurlana Əliyeva XQ-yə bildirib ki, aksiya çərçivəsində artroloq, nevroloq, fizioterapevt-reabilitoloq və tibb bacısından ibarət heyət tərəfindən əhaliyə tibbi baxış keçirilib, elektromioqrafiya və elektroencefaloqrafiya müayinələri aparılıb. Eyni zamanda, səhhətində problem aşkarlanan sakinlərə peşəkar məsləhətlər verilib və müvafiq müalicələr təyin olunub.

Orta yaşlı əhalidə onurğa, sinir, oynaq-dayaq əzələ, mədə-bağırsaq xəstəliklərinin, ümumi serebrovaskulyar xəstəliklərinin aşkar edilməsi, 3–16, 16–65 yaşlı insanlar arasında skolioz və digər vertebrogen problemlərin diaqnostika və bərpası üzrə müayinələr aparılıb və müalicə təyinatı yazılıb.

Aksiya zamanı 70-dən çox vətəndaş müayinələrdən keçirilib. Əhalinin sağlamlığının qorunması üçün maarifləndirici söhbətlər də aparılıb.

*XQ*

# Şahmat Olimpiadasında növbəti qələbəmiz



**Azərbaycanın qadınlardan ibarət millisi Macarıstanın paytaxtı Budapeştdə təşkil olunan 45-ci Ümumdünya Şahmat Olimpiadasında növbəti qələbəsini qazanıb.**

Yığma II turda Avstraliyanı məğlub edib - 3:1.

Yuliya Rıjanova – Günay Məmmədzadə 0:1
Jilin Janq – Gövhər Beydullayeva 0,5:0,5
Tu Nquen – Xanım Balacayeva 0:1
Jiayan Şen – Gülnar Məmmədova 0,5:0,5

Qeyd edək ki, kişilərdən ibarət komandamız Finlandiyanı üstələyib - 3,5:0,5.

*XQ*

Dirilik çeşməsi

# Ətir saçan rozmarin – dərmanıdır dərdlərin



**Rozmarin bitkisinin azərbaycanca tərcüməsi bibəriyyədir. Bitki Azərbaycan mətbəxində geniş yer tutur – həm yeməklərdə ədviyyat, həm yağ, həm də çay kimi istifadə olunur.**

Aralıq dənizi mətbəxində rozmarin ədviyyat kimi tez-tez istifadə edilir. Yarpaqları tökülməyən və kiçik ağaca bənzəyən bitki nanənin də aid olduğu "Labiatae" ailəsindəndir. Kola bənzəyən bitki şam ağacını xatırladır. Təzə rozmarin bütün ilboyu tapılan bitkidir. Dadlı olduğu üçün tez-tez ət xörəklərində ədviyyat kimi çox istifadə olunur. Rozmarin çayının faydaları və istifadəsi haqqında dietoloqlar açıqlamalarında bildiriblər.

Qeyd edilir ki, rozmarinin faydalarını saymaqla bitmir. O, tərkibində yüksək miqdarda B, C, D, E və K vitaminləri olan qida dəyəri yüksək olan bir bitkidir. Həmçinin dəmir, kalsium və fosforla zəngindir.

Mütəxəssislər beyin qan dövranını və ürəyin fəaliyyətini yaxşılaşdırmaq üçün rozmarindən xüsusi istifadə qaydası tövsiyə edirlər: 2 stəkan qaynar suya 1 çay qaşığı yarpaq tökülür və 30 dəqiqə termosda saxlanır. Sonra başqa şüşə qaba süzülür.

Rozmarin dəri hüceyrələrini cavanlaşdırır, nəmləndirir, qırışları azaldır, qan dövranını aktivləşdirir, dərinin elastikliyini bərpa edir, şişkinliyi aradan qaldırır, üz rəngini yaxşılaşdırır, piqment ləkələrini təmizləyir. Həmçinin həzmi asanlaşdırır, immunitet sistemini gücləndirir, migren, əzələ və oynaq ağrılarını aradan qaldırır, yaddaş və konsentrasiyanı artırır, stress və narahatlığı azaldır. Detoks təsirlidir. Yalnız enerjini yeniləmir, həm də bədənin və zehnin yorğunluğunu aradan qaldırır.

*Z.HÜSEYNLİ*
*XQ*

# Çin səmasında möhtəşəm dron şousu

## *8 min 100 PUA-nın tamaşası "Ginnesin rekordlar kitabı"na düşüb*

**Çinin Şençjen şəhərində minlərlə dronun iştirakı ilə möhtəşəm səma şousu keçirilib. Hər il keçirilən tədbirdə bu dəfə eyni anda iki dünya rekorduna imza atılıb. İlk rekord eyni anda havada olan dronların sayına görə qeydə alınıb. Belə ki, 8 min 100 kvadrokopter Şençjenin gecə səmasına qalxaraq kürə, qara dəlik, planet və ürək fiqurları formalaşdırıb. Bir-birini əvəz edən fiqurlar tamaşacıları heyran qoyub.**



Bundan başqa, şou təşkilatçıları 7 min 998 drondan istifadə edərək havada nəhəng bir televizor ekranı yaradıblar. Ekranda bir neçə videoçarx göstərilib. Bu, həm də kvadrokopterin iştirakı ilə ən böyük təsviri kimi "Ginnesin rekordlar kitabı"na düşüb.

Aksiyanın miqyası və epik xarakteri bir çox sosial şəbəkə istifadəçilərini, o cümlədən amerikalı milyarder İlon Maskı heyran qoyub.

Qeyd edək ki, Çinin silikon vadisi kimi tanınan Şençjen artıq bir neçə ildir ki, öz texnologiya nailiyyətləri ilə dünyanı heyrətləndirir. Şəhər ölkənin innovasiya və yüksək texnologiyaların inkişaf mərkəzidir.

*PÜNHAN*
*XQ*

# Qısamüddətli yağış gözlənilir

**Bakıda və Abşeron yarımadasında sentyabrın 13-də hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən, yağmursuz keçəcəyi gözlənilir.**

Milli Hidrometeorologiya Xidmətindən mətbuata verilən məlumata görə, səhər və axşam bəzi şəhərətrafı ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var.

Şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 20-24° isti, gündüz 28-31° isti olacaq. Atmosfer təzyiqi 759 civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 70-80 faiz, gündüz 45-55 faiz olacaq.

Azərbaycanın əksər rayonlarında hava şəraitinin, əsasən yağmursuz keçəcəyi, lakin bəzi dağlıq və dağətəyi rayonlarda fasilələrlə yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Mülayim şərq küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 18-23° isti, gündüz 30-34° isti, dağlarda gecə 9-14° isti, gündüz 14-18° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

# ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikasının Belarus Respublikasında fövqəladə və səlahiyyətli səfiri Məhərrəm Əliyev və qardaşı Adil Əliyev Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsinin rəisi, polis general-mayoru Ramiz Zeynalova qardaşı

**TOFİQ ZEYNALOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Hərbi Prokurorluğunun rəhbərliyi və kollektivi Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsinin rəisi, polis general-mayoru Ramiz Zeynalova qardaşı

**TOFİQ ZEYNALOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsinin rəisi, polis general-mayoru Ramiz Zeynalova qardaşı

**TOFİQ ZEYNALOVUN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və əzizlərinə dərin hüznlə başsağlığı verir.

Şirvan şəhərindən İlqar Abbasov Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsinin rəisi, polis general-mayoru Ramiz Zeynalova qardaşı

**TOFİQ ZEYNALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sabirabad rayonundan Hacı Əlabbas Şıxəliyev ailəsi ilə birlikdə Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsinin rəisi, polis general-mayoru Ramiz Zeynalova qardaşı

**TOFİQ ZEYNALOVUN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və əzizlərinə dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3856
SİFARİŞ 2009
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır 00:00